HEYDƏR ƏLİYEV

# Azərbaycanda iqtisadiyyatın və sosial sahənin yüksəlişi özəl sektorun inkişafından asılıdır

[illegible]

79(2A)
764

HEYDƏR ƏLİYEV

# Azərbaycanda iqtisadiyyatın və sosial sahənin yüksəlişi özəl sektorun inkişafından asılıdır

204744

* *Görüşlər*
* *Fərmanlar*
* *Əsasnamələr*
* *Qaydalar*
* *Proqramlar*
* *Tədbirlər*

«Nurlar»
Bakı-2002

M.F.Axundov adına
Azərbaycan Milli
Kitabxanası



# Azərbaycanda iqtisadiyyatın və sosial sahənin yüksəlişi özəl sektorun inkişafından asılıdır



Tərtib edəni:

**TEYMUR ƏHMƏDOV**

**Əliyev Heydər.**
**Azərbaycanda iqtisadiyyatın və sosial sahənin yüksəlişi özəl sektorun inkişafından asılıdır**
Bakı, Nurlar, 2002, 112 səh.

***Kitabda Azərbaycan Respublikasının Prezidenti Heydər Əlirza oğlu Əliyevin 2002-ci il aprelin 23-də yerli sahibkarlarla və mayın 14-də xarici iş adamları ilə görüşləri, eyni zamanda avqustun 17-dən sentyabrın 28-dək ölkəmizdə kiçik və orta sahibkarlığın inkişafı haqqında qəbul etdiyi sənədlər – fərmanlar, əsasnamələr, qaydalar, proqramlar, tədbirlər toplu halda təqdim edilmişdir.***

***Bu tarixi görüş və sənədlər iqtisadi islahatları sürətləndirmək, müstəqil Azərbaycanın iqtisadi qüdrətini artırmaq üçün kiçik və orta sahibkarlığın vüsətli inkişafına dövlət qayğısının parlaq təzahürüdür.***

ISBN: 9952-403-24-0

© «NURLAR»

# AZƏRBAYCAN PREZİDENTİ HEYDƏR ƏLİYEVİN YERLİ SAHİBKARLARLA GÖRÜŞÜ

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev aprelin 25-də Prezident Sarayında yerli sahibkarlarla görüş keçirmişdir.

Dövlətimizin başçısı Heydər Əliyev salonun foyesində ölkəmizdə istehsal edilən yüksək keyfiyyətli məhsullardan ibarət sərgi ilə yaxından tanış oldu.

Azərbaycan Prezidentinə məlumat verildi ki, bu məhsulların əksəriyyəti 1970-ci illərdə respublikada yaradılmış və hazırda özəl sektora məxsus müəssisələrdə istehsal olunmuşdur.

Prezident Heydər Əliyev ayrı-ayrı müəssisələrin, səhmdar cəmiyyətlərinin buraxdığı məhsullarla, istehsal müəssisələrinin vəziyyəti, rəqabət qabiliyyəti, daxili tələbatın ödənilməsi, bazarda məhsulların satışının vəziyyəti və təşkili ilə maraqlandı, müvafiq tövsiyə və məsləhətlərini verdi.

Dövlətimizin başçısı sahibkarlara müraciətlə dedi ki, əgər siz yaxşı işləsəniz, məhsulları keyfiyyətli və bol etsəniz, bazarı ələ alacaqsınız, Qərb ölkələrindən belə məhsulların gətirilməsinə o qədər də ehtiyac olmayacaqdır. Bu məhsullar əhalimizi təmin etməlidir. Bunlar nə qədər keyfiyyətli olsa, həm əhali təmin olunar, həm də, yenə deyirəm, bazarı ələ ala bilərsiniz. Bazar iqtisadiyyatı rəqabətdir. Gərək hər gün düşünəsən ki, bazarı itirməyəsən.

Sahibkarlar onları görüşə dəvət etdiyinə, fəaliyyətləri üçün yaratdığı şəraitə və dəyərli tövsiyələrinə görə Azərbaycan Prezidentinə dərin minnətdarlıqlarını bildirdilər, öz müəssisələrinin işi barədə məlumat verdilər, respublikamızın rəhbərinə xatirə hədiyyələri təqdim etdilər.

* * *

Sonra görüş başlandı.

Prezident Heydər Əliyev görüşü giriş nitqi ilə açdı.

## AZƏRBAYCAN PREZİDENTİ HEYDƏR ƏLİYEVİN GİRİŞ NİTQİ

— Hörmətli xanımlar və cənablar!

Hörmətli sahibkarlar!

Mən sizi səmimi qəlbdən salamlayıram və bütün işlərinizdə uğurlar arzulayıram. Azərbaycan dövlətinin iqtisadi siyasəti Azərbaycanın iqtisadiyyatını bazar iqtisadiyyatı yolu ilə inkişaf etdirməkdən ibarətdir. Bunun üçün biz 1995-ci ildən başlayaraq, ardıcıl surətdə lazım olan iqtisadi islahatları həyata keçiririk. Biz bu gün məmnuniyyət hissi ilə deyə bilərik ki, artıq bizim iqtisadi siyasətimiz, həyata keçirdiyimiz tədbirlər öz müsbət nəticəsini verir və verməkdədir.

**Azərbaycanın iqtisadiyyatı 1990-cı ilin əvvəllərində böhran vəziyyətində olduğu halda, 1995-ci ildən artıq inkişafa başlayıbdır. İqtisadiyyatın bütün sahələrində inkişaf müşahidə olunur və bu inkişaf ilbəil artır.** Bunların əsas səbəbləri, qeyd etdiyim kimi, iqtisadi islahatların həyata keçirilməsi ilə bağlıdır. **İqtisadi islahatlar müxtəlif xarakter daşıyır, müxtəlif sahələri əhatə edir və böyük tədbirlərin həyata keçirilməsini tələb edir. Biz bunların hamısını edirik, baxmayaraq ki, bunları həyata keçirmək üçün bir çox çətinliklərimiz var idi.** Keçmiş iqtisadi psixologiyadan uzaqlaşmaq, insanları yeni iqtisadi təfəkkürə alışdırmaq və beləliklə də islahatları həyata keçirərək, eyni zamanda onların müsbət nəticələrinin əldə olunmasına nail olmaq lazım idi. Dediyim kimi, biz bu nəticələri əldə etmişik.

Aparılan siyasət, islahatlar və bazar iqtisadiyyatı prinsipi ölkədə yeni təbəqənin, sahibkarlar təbəqəsinin yaranmasına gətirib çıxarıbdır. Bu, belə də olmalıydı, çünki bazar iqtisadiyyatının əsasında şəxsi mülkiyyət, özəl mülkiyyət və sahibkarlıq durur. **Bizim görəcəyimiz işlər ondan ibarət idi ki, islahatları həyata keçirmək üçün, bazar iqtisadiyyatının tələblərini ödəmək üçün lazım olan qanunlar qəbul etməliydik, qaydalar yaratmalı idik və ölkəmizdə bu qanunların həyata keçirilməsini, onlara riayət olunmasını təmin etməliydik. Biz deyə bilərik ki, bunu da etmişik.**

İndi Azərbaycanda böyük sahibkarlar təbəqəsi yaranıbdır. Sahibkarlar təbəqəsi Azərbaycan iqtisadiyyatının aparıcı bir hissəsidir.



Özəlləşdirmə prosesi gedir, iqtisadiyyatın çox sahəsi özəlləşdirilibdir. Əldə etdiyimiz nailiyyətlərdə özəlləşdirmənin böyük əhəmiyyəti vardır. İqtisadiyyatın bir çox sahələrindəki nəticələr özəl sektorun hesabına əldə edilibdir. Bir daha deyirəm, özəl sektorun yaradıcıları, özəl sektorun aparıcıları sahibkarlar qrupunu, sahibkarlar təbəqəsini meydana gətirir.

Demək olar ki, indi bizim sosial-iqtisadi inkişafımız sahibkarların fəaliyyətindən asılıdır. Çünki əgər iqtisadiyyat özəlləşdirilibsə, yaxud onun böyük bir hissəsi özəlləşdirilibsə, demək, iqtisadiyyatın böyük bir hissəsi sahibkarların əlindədir və onların səmərəli işləməsi Azərbaycanın iqtisadiyyatının inkişafını təmin edən amildir. Ona görə də biz buna dövlət siyasətimizin böyük bir hissəsi kimi baxırıq.

Əgər keçmişlə müqayisə etsək, o vaxt bütün iqtisadiyyat dövlət inhisarında idi və biz iqtisadiyyatda inkişafı təmin etmək üçün, müxtəlif sahələrdə istehsalı təmin etmək üçün o sahələrdə fəaliyyət göstərən dövlət orqanlarının, təşkilatlarının, birliklərin işləri ilə məşğul olurduq və vaxtaşırı onlarla müxtəlif müşavirələr keçirib gördükləri işləri təhlil edirdik, işlərin sürətlənməsi üçün lazımi tədbirlər görürdük və onlara kömək edirdik. İndi demək olar ki, bunlar yoxdur, yaxud da bizim iqtisadiyyatımızın az hissəsinə aiddir. İqtisadiyyatın əsas hissəsini təşkil edən özəl sektordur.

Bir də qeyd edirəm, özəl sektorun da əsas daşıyıcıları, aparıcıları sahibkarlardır. Demək, biz keçmişdə gördüyümüz işləri indi sahibkarlarla görməliyik. Təbiidir, burada fərq var. Çünki keçmişdə dövlət tabeliyində olan təşkilatlar idi, biz lazımi müşavirələr keçirərək, onların qarşısına tələblər qoyurduq. İndi isə biznesmenlər sərbəstdirlər, öz əmlakının, öz işlərinin sahibidirlər. **İş adamları ilə, biznes adamları ilə bizim münasibətlərimiz yalnız və yalnız demokratiya prinsipi əsasında qurulur və qurula bilər. Bu prinsiplərə riayət edərək, biz iş adamlarının fəaliyyətinin daha da səmərəli olmasına maraqlı olaraq, onlara yardım etmək, kömək göstərmək istəyirik. Biz bunu indiyə qədər etmişik. Qəbul etdiyimiz qanunlar bunu təmin edib və edir, Prezidentin fərmanları və sərəncamları bunu təmin edibdir və edir, həyata keçirdiyimiz müxtəlif tədbirlər bunu təmin edir.**

**Bu gün, bu görüşdə isə bizim məqsədimiz Azərbaycanda yerli sahibkarların vəziyyəti ilə daha da yaxından tanış olmaqdan ibarətdir. Yəni yerli sahibkarların işində nə kimi çətinliklər var, onların işinə mane olan amillər nədən ibarətdir, dövlətin, hökumətin qanunlarının, sərəncamlarının, qərarlarının yerinə yetirilməsinə mane olan səbəblər nədən ibarətdir və nəhayət, sahibkarların işinin daha da səmərəli olması üçün nə etmək lazımdır. Bu məqsədlə də biz bu gün sizinlə görüşə gəlmişik.**

Bilirsiniz ki, belə bir görüşün keçirilməsi haqqında mən aprel ayının 12-də qərar qəbul etdim, bu qərarı ictimaiyyətə çatdırdım və o gündən başlayaraq bizim müvafiq nazirliklər, xüsusən İqtisadi İnkişaf Nazirliyi belə bir görüşün hazırlanması ilə məşğuldur. Çox sevindirici haldır ki, bu görüşə Azərbaycanın iş adamları böyük maraq göstəriblər, yüzlərlə, minlərlə insan müraciət edib görüşdə iştirak etmək arzularını bildiribdir. Ancaq təəssüflər olsun ki, bizim bu salona — mənə bildirdilər ki, təxminən 500 adam tuta bilər — bundan artıq dəvət etmək mümkün olmayıbdır. Ancaq mən düşünürəm ki, əgər bizim bu görüşümüz istənilən səviyyədə alınsa və həqiqətən bizim sizinlə olan işlərimizə kömək etsə, müəyyən vaxt təyin edib, bu gün burada iştirak etməyə imkanı olmayan bütün başqa sahibkarlarla da görüşəcəyik.

Mən işi belə planlaşdırıram ki, bu gün sizinlə bu görüşü keçirək. Sonra Azərbaycanda fəaliyyət göstərən xarici ölkələrin sahibkarları ilə belə bir görüş keçirmək istəyirəm. Bunların nəticəsində əldə olunan məlumatları, materialları öyrənmək və onların əsasında lazımi tədbirlər görmək üçün biz Azərbaycanın dövlət orqanlarının, hökumət orqanlarının nümayəndələri ilə müşavirə keçirəcək, hakimiyyət orqanlarının vəzifələrini müəyyən edəcəyik.

**Bu görüşün və bundan sonra keçiriləcək görüşün məqsədi ondan ibarətdir ki, biz bilavasitə iş adamlarından məlumat alaq ki, sahibkarlıq işi nə vəziyyətdədir, bizim qanunlarımız, fərmanlarımız, sərəncamlarımız Azərbaycanda sahibkarlığın inkişaf etdirilməsi üçün lazımi imkanlar yaradırmı, yoxsa yox. Əgər bu sahədə qanunvericilik nöqteyi-nəzərindən, yaxud da ki, icra orqanlarının qərarları ilə əlaqədar çətinliklər varsa, sizdən məlumat aldıqdan sonra biz müzakirə etməli və lazımi fərmanlar, sərəncamlar verməliyik.**



**Ən başlıcası, biz istəyirik ki, bilək, sizin işinizə nə mane olur?** Biz bunu əvvəldən də bilirik. Bir neçə dəfə müşavirələr keçirmişik, bu sizə məlumdur, televiziya və radio vasitəsilə, mətbuat vasitəsilə bilirsiniz ki, Azərbaycanda sahibkarlıq işi başlanandan, bazar iqtisadiyyatına keçid başlanandan Azərbaycanın müxtəlif hökumət orqanları cürbəcür yoxlamalarla, müdaxilələrlə sahibkarların işlərinə mane olmağa cəhd göstəriblər. Mən bu barədə bir neçə fərmanlar vermişəm və Azərbaycanda hüquq-mühafizə orqanlarının, başqa nəzarət edən orqanların sahibkarlara mane olmaması tələblərini qoymuşam. Bunlar öz nəticələrini veribdir.

Ancaq son dövrün müşahidəsi onu göstərir ki, bizim həyata keçirdiyimiz tədbirlərə baxmayaraq, yenə də müxtəlif hökumət orqanları sahibkarlara şərait yaratmaq, yardım etmək, onlara kömək etmək əvəzinə, müxtəlif manеələr törədirlər, yoxlamalar aparırlar, onların işlərinə müdaxilə edirlər, öz şəxsi mənafelərini təmin etmək istəyirlər. Bunlar da sahibkarlara mane olur. Hətta mənə deyirlər ki, bəzi sahibkarlar belə yoxlamalardan, müdaxilələrdən o qədər boğaza gəlirlər ki, haqlı işlərini bağlayırlar. Sahibkar nə məqsədi daşıyır? O, iş görür ki, pul qazansın. Onun istəyi pul qazanmaqdır, işi isə cəmiyyətə fayda verməkdir. Sahibkar müəyyən məhsulun istehsalı ilə məşğul olur, demək, o məhsul cəmiyyətə lazımdır. Yaxud ticarətlə məşğul olur, cəmiyyətin yaxşı ticarətə ehtiyacı var. Başqa xidmət sahələri ilə məşğul olur. İnsanların buna da ehtiyacı var. Əgər sahibkar bu işlərlə məşğul olaraq və qoyduğu sərmayəni çıxara və qazancı götürə bilmirsə, demək, onun sahibkarlıqla məşğul olmasının mənası yoxdur. Təəssüf ki, bizə məlumatlar çatır ki, belə hallar var və az deyildir. Bu bizi narahat edir.

**Bizim bugünkü görüşümüzün əsas məqsədlərindən biri ondan ibarətdir ki, bilavasitə siz sahibkarların özündən vəziyyət haqqında doğru, düzgün, obyektiv məlumat alaq. Mən bir də deyirəm, doğru, düzgün, obyektiv. Yəni siz həqiqəti deməlisiniz. Nə həqiqəti gizlətməyə cəhd göstərməməlisiniz, eyni zamanda, öz şəxsi fikirlərinizə görə, münasibətinizə görə ayrı-ayrı hökumət, dövlət orqanları haqqında əsası olmayan fikirlər də söyləməməlisiniz.**

Biz bu görüşə yalnız Azərbaycanın yerli sahibkarlarını çağırmışıq. Burada Azərbaycanın sahibkarlıq və bazar iqtisadiyyatı prosesində iştirak edən hakimiyyət orqanlarından, onların başçılarından heç kəs iştirak etmir. Məndən başqa, burada Baş nazir, Prezidentin İcra Aparatının rəhbəri, iqtisadi məsələlər üzrə dövlət müşaviri və Prezidentin köməkçisi iştirak edir, ayrı heç kəs yoxdur. Mən bunu nə üçün etmişəm? Ona görə ki, siz burada sərbəst danışa biləsiniz, ayrı-ayrı nazirlər, hüquq-mühafizə orqanlarından, vergi orqanlarından, başqa orqanlardan sizə təsir edə bilməsinlər, göz ağartmasınlar. Siz onların yanında danışmağa bir az çəkinə bilərsiniz, bu, olmasın, sərbəstlik olsun. İndi siz deyə bilərsiniz ki, onlar burada yoxdur, amma televiziya vasitəsilə çəkirsiniz, bunu görəcəklər. Mən bu məsələni də nəzərə almışam. İndi bu bizim görüşümüzün birinci hissəsidir. Yəni mənim bu söhbətimdən sonra iqtisadi inkişaf nazirinə söz verəcəyəm, o, qısa məruzə etsin. Bizim mətbuat nümayəndələri burada olacaqdır. Amma ondan sonra mən onları da uzaqlaşdıracağam ki, heç kəs narahat olmasın ki, dediyi sözlər yazıldı, şəkli çəkildi və onun asılı olduğu hansısa nazirə verildi, o da sonra ədavət aparmağa, yaxud da başqa işlər görməyə başladı.

Təəssüflər olsun ki, bizim cəmiyyətimizdə hələ belə hallar var. Ona görə də mən bu görüşdə təmin etmişəm ki, sizinlə açıq söhbət olsun, sərbəst söhbət olsun və Azərbaycanın Prezidenti kimi sizdən həqiqəti öyrənim. Bir də qeyd edirəm, sizin verdiyiniz bugünkü məlumatlar öyrəniləcək, təhlil olunacaq və onların əsasında bizim son müşavirəmiz keçiriləcəkdir. Mən istəyirəm ki, orada, həmin o müşavirədə bizim əlimizdə konkret materiallar olsun, lap aşağıdan gələn materiallar, sizdən gələn məlumatlar olsun.

Beləliklə, mən istəyirəm ki, bizim bu görüşümüz açıq keçsin, sərbəst, rahat keçsin, heç kəs narahat olmasın. **Azərbaycan Prezidenti kimi mənim məqsədim həmişə belə olubdur: biz Azərbaycanda iqtisadi siyasətimizin istiqamətini müəyyən edən kimi və bunun bazar iqtisadiyyatı istiqaməti olduğunu təyin etdiyimizə görə, Azərbaycanda biznesin inkişafına daim fikir vermişəm və fikir verirəm.**

Mən dedim, bu, təkcə mənim subyektiv arzum deyildir. Azərbaycanda iqtisadiyyatın və sosial sahənin inkişafı biznesin inkişafından asılıdır, özəl sektorun inkişafından asılıdır. Biz özəl sektoru yaratmışıq, yaradırıq. Ancaq özəl sektor Azərbaycanda iqtisadiyyatın bütün sahələrini biz istədiyimiz səviyyədə əhatə edə bilsə, səmərəli iş görə bilsə, onda həqiqətən bazar iqtisadiyyatı kimi iqtisadiyyatımız keçmiş mərkəzləşdirilmiş iqtisadiyyatdan qat-qat üstün olacaqdır.

Biz bazar iqtisadiyyatını elan etdik, özəlləşdirməni apardıq, özəl sektor yaratdıq. Amma əgər bu özəl sektor istənilən səviyyədə fəaliyyət göstərə bilmirsə, onda demək, biz istədiyimizə nail ola bilmirik. Bizi bu da narahat edir. Bax, bu məqsədlə mən bu gün bu görüşü keçirməyi qərara almışam. Bu məqsədlə də sizi bu görüşə dəvət etmişəm. Bir də deyirəm, hər birinizdən açıq, ədalətli, obyektiv söhbət gözləyirəm.

* * *

Sonra İqtisadi İnkişaf naziri Fərhad Əliyev çıxış etdi.

## İQTİSADİ İNKİŞAF NAZİRİ FƏRHAD ƏLİYEVİN ÇIXIŞI

— Möhtərəm cənab Prezident!

Hörmətli görüş iştirakçıları!

Azərbaycan Respublikasının Prezidenti cənab Heydər Əliyevin şəxsi təşəbbüsü ilə sahibkarlarla bu görüşün keçirilməsi barədə elanın verildiyi tarixdən çox qısa müddət ötməsinə baxmayaraq, hazırlıq dövründə minlərlə sahibkar tədbirdə iştirak etmək arzusunda olduğunu bildirmişdir. Bu, bir tərəfdən sahibkarların Azərbaycan dövlətinin iqtisadi siyasətinə olan inamını, aparılan radikal iqtisadi islahatları onların dəstəklədiyini ifadə edirsə, digər tərəfdən bu sahədə hələlik kifayət qədər problemlərin mövcud olduğunu göstərir.

Bugünkü tədbirdə iqtisadiyyatın bütün sahələrini və regionları təmsil edən 450 sahibkar iştirak edir. Görüşdə iştirak edə bilməyən sahibkarları əmin etmək istərdim ki, onların təklifləri diqqətlə öyrəniləcəkdir.

Hörmətli görüş iştirakçıları!

Ötən ilin oktyabr ayında müstəqilliyinin 10 illiyini qeyd edən Azərbaycanın iqtisadiyyatı 1990-cı illərin əvvəllərində daxili və xarici amillərin təsiri altında iflic vəziyyətinə düşmüşdü.

Azərbaycan Respublikası Prezidentinin başçılığı altında 1994-cü ildən etibarən siyasi, hüquqi və iqtisadi islahatların həyata keçirilməsinə başlandı.

Müstəqil Azərbaycan Respublikasının ilk Konstitusiyası qəbul olundu və ölkənin dünyəvi dəyərlər, demokratiya, mülkiyyət çoxnövlülüyü, azad sahibkarlıq prinsiplərinə əsaslanan inkişaf yoluna qədəm qoyduğu bütün dünya ictimaiyyətinə bəyan edildi.

İdarəetmə sisteminin təkmilləşdirilməsi məqsədilə mərkəzi icra hakimiyyəti orqanlarından kommersiya funksiyaları əsasən götürülmüş, paralel funksiyaları həyata keçirən 30-a yaxın nazirlik və komitə ləğv edilmiş və ya birləşdirilmişdir. Qanunvericilik bazasının təkmilləşdirilməsi istiqamətində mühüm işlər görülmüş, Vergi, Gömrük, Mülki Məcəllələr və digər qanunlar qəbul edilmişdir.

Həyata keçirilən iqtisadi islahatlar nəticəsində ölkədə makroiqtisadi sabitlik bərqərar olmuş, son 6 ildə ÜDM-in həcmi 2,6 dəfə artmış, inflyasiyanın demək olar ki, qarşısı alınmış, büdcə kəsiri ümumi daxili məhsulun 1-2 faizinə qədər endirilmiş, milli valyutanın məzənnəsi sabitləşmiş, iqtisadiyyatın inkişafına bütün mənbələr hesabına 8,7 milyard dollar həcmində investisiya yönəldilmişdir.

Görülən tədbirlər nəticəsində 1995-ci illə müqayisədə 2001-ci ildə əhalinin real pul gəlirləri 3 dəfə, orta aylıq əmək haqqı 4 dəfə artmışdır. Hazırda özəl sektorda orta aylıq əmək haqqı 510 min manat təşkil edir.

Azərbaycan Respublikası Prezidentinin başçılığı ilə iqtisadiyyatın aparıcı sahəsi olan neft sektorunda uğurlu neft strategiyası həyata keçirilməkdədir.

Dövlət Neft Fondunun yaradılması, beynəlxalq neft və qaz kəmərlərinin çəkilməsi, Böyük İpək Yolunun bərpası, TRASEKA, İNOQEYT layihələrinin həyata keçirilməsi beynəlxalq tranzit daşımalarında Azərbaycanın rolunu daha da artırmışdır.

Neft sənayesinin inkişafı bu sahəyə xidmət edən nəqliyyat, rabitə və inşaat sektorlarının inkişafına təkan vermişdir.

Bununla belə iqtisadiyyatın digər sahələrində sahibkarlığın genişlənməsini təmin etmək üçün Azərbaycan Respublikası Prezidentinin məlum fərmanına uyğun olaraq Yoxsulluğun azaldılması və iqtisadi inkişafın təmin olunması üzrə Dövlət Proqramının hazırlanması məqsədilə xüsusi komissiya və işçi qrupları yaradılmışdır. Hazırlanan sənədlər əhalinin ən yoxsul təbəqələri də cəlb olunmaqla regionlarda müzakirə edilməkdədir. Proqram sahibkarlığın inkişafına təkan verməklə sözün əsl mənasında ümummilli proqram olacaqdır.

Beynəlxalq və xarici ölkə təşkilatları ilə, o cümlədən, BMT-nin İnkişaf Proqramı, Beynəlxalq Valyuta Fondu, Dünya Bankı və digər qurumlarla sahibkarlığın inkişafı sahəsində geniş əməkdaşlıq edilir.

Sahibkarlığın inkişafına yönəlmiş məqsədyönlü siyasətin nəticəsində hazırda ümumi daxili məhsulda (ÜDM) qeyri-dövlət sektorunun payı 71 faizə, əhalinin ümumi məşğulluğunda özəl bölmənin payı 70 faizə çatmışdır.

2001-ci ilin yekunlarına görə, dövlət qeydiyyatından keçmiş hüquqi şəxs statuslu təsərrüfat-maliyyə strukturlarının sayı 40 mindən, fermer təsərrüfatlarının sayı 34 mindən çox olmuş, hüquqi şəxs yaratmadan sahibkarlıq fəaliyyəti ilə məşğul olan təsərrüfat subyektlərinin sayı artaraq 100 mini (106873) keçmişdir.

Sevindirici haldır ki, sahibkarlar sırasında gənclərin sayı çoxdur. Məlumdur ki, bu gün gənclər müstəqil Azərbaycan dövlətinin ümid bəslədiyi nəsildir və onların təhsili, intellekti, məşğuliyyəti, həyat tərzi indi necə formalaşırsa, sabah buna uyğun nəticələr verəcəkdir.

Möhtərəm cənab Prezident!

Sizin gənclərə olan qayğınız, göstərdiyiniz etimad sahibkarlıq sahəsində öz bəhrələrini verməkdədir. Bu gün Azərbaycan əhalisinin 35 faizini gənclər təşkil edir. Hazırda respublikamızda sahibkarların 70 faizdən çoxu gənclərdir.

Əslində, gənclər təkcə sahibkarlar sırasında deyil, respublika həyatının bütün sahələrində, xüsusən idarəetmə işində çoxluq təşkil edirlər. Bütün bunlar isə Azərbaycan Prezidenti Heydər Əliyevin gənclərə göstərdiyi diqqət və qayğı nəticəsində mümkün olmuşdur. Bu həm də Milli Olimpiya Komitəsinin Prezidenti, Milli Məclisin deputatı İlham Əliyevin gənclər arasında apardığı səmərəli işin müsbət nəticəsidir.

Hörmətli görüş iştirakçıları!

Özəlləşdirmə sahibkarlığın inkişafında ən mühüm amillərdən

biridir.

Artıq 7 ildir ki, davam edən özəlləşdirmə prosesi zamanı bəzi müəssisələrin bağlanmasına və bir sıra digər problemlərə baxmayaraq, hazırda 24 minə yaxın kiçik müəssisə özəlləşdirilmiş, 1500 orta və iri müəssisə səhmdar cəmiyyətə çevrilmiş, 100 min vətəndaş səhm, 140 min vətəndaş əmlak sahibi olmuşdur.

Bu gün yüzlərlə müəssisə müvəffəqiyyətlə fəaliyyət göstərir, rəqabət qabiliyyətli məhsul istehsal edir və görüşdən əvvəl nümayiş etdirilən sərgi də bunun əyani göstəricisidir.

Məlum olduğu kimi, aqrar sektorda aparılan islahatların 1-ci mərhələsi əsasən başa çatmış, müəyyən problemlərə baxmayaraq, əhaliyə 1 milyon 350 min hektar torpaq sahəsi paylanmışdır. Kənd təsərrüfatı məhsullarının istehsalı ilə (o cümlədən sənaye üsulu ilə) məşğul olan hüquqi şəxslər cənab Prezidentin qərarına əsasən 3 il müddətinə vergilərdən azad edilmişlər.

Qeyd etmək lazımdır ki, fermer təsərrüfatlarına edilmiş müxtəlif güzəştlərə baxmayaraq, aqrar islahatların hazırda həyata keçirilən 2-ci mərhələsində əsas problemlər maliyyə çatışmazlığı, suvarma infrastrukturunun bərpası, fermerlərdən alınan məhsulların haqqının vaxtlı-vaxtında ödənilməməsi, kənd təsərrüfatı məhsullarının emalı, qablaşdırılması, satışı və ixracı ilə bağlıdır.

Problemlərin həlli məqsədi ilə fermerlərə dövlət maliyyə yardımının artırılması, kənd yerlərinə investisiyaların daha fəal cəlb edilməsi, ixraca yardım fondunun yaradılması, yolların, suvarma sisteminin və digər infrastruktur obyektlərinin bərpası və yenilərinin inşa edilməsi üçün dövlət kreditlərinin alınması ilə əlaqədar işlər davam etməkdədir.

Azərbaycan Respublikası Prezidentinin əsassız yoxlamaların aradan qaldırılması ilə bağlı imzaladığı fərmanların sahibkarların hüquqlarının qorunmasında, dövlət tənzimləmə orqanları ilə sahibkarlıq strukturları arasında etibarlı və şəffaf əlaqə mexanizminin yaradılmasında, sahibkarlıq mühitinin sağlamlaşdırılmasında böyük əhəmiyyəti olmuşdur.

Lakin bununla belə bu sahədə hələ müəyyən problemlər vardır. Xüsusilə sahibkarla nəzarət orqanları arasındakı münasibətlər heç də



istənilən səviyyədə deyildir. Respublikada sahibkarlıq fəaliyyətinə dövlət nəzarətini 40-a yaxın mərkəzi və yerli icra hakimiyyəti orqanı həyata keçirir. Mövcud qanunvericilikdə nəzarətin qaydaları və bu fəaliyyəti həyata keçirən orqanların vəzifə və səlahiyyətləri kifayət qədər aydın göstərilmədiyindən tez-tez sui-istifadə hallarına yol verilir.

Əsassız yoxlamalar zamanı sahibkarlıq subyektlərinin fəaliyyəti dayandırılır, onlara külli miqdarda maddi ziyan vurulur və bunun müqabilində heç kəs məsuliyyət daşımır.

Bir sıra mərkəzi icra hakimiyyəti orqanları, şəhər və rayon icra hakimiyyətləri tərəfindən daxili sərəncamlarla hüquqi və fiziki şəxslərin qanunvericiliyə zidd olaraq yeni qeydiyyatı aparılır və bunun müqabilində heç bir hüquqi normaya sığmayan "qeydiyyat şəhadətnaməsi", "xüsusi razılıq", "iş rejimini tənzimləyən" məcburi sənədlər və sair öhdəliklər verilir. Hətta qanunvericilikdə nəzərdə tutulan (dövlət qeydiyyatı, statistik və vergi qeydiyyatı) şəhadətnamələrin olmasına baxmayaraq, qeyd olunan sənədləri yerli orqanlardan almayan təsərrüfat subyektlərinin fəaliyyəti qanunsuz olaraq dayandırılır və müxtəlif maliyyə sanksiyaları tətbiq edilir ki, bu da sahibkarlar arasında ciddi narazılıqlar yaradır.

Azərbaycan Respublikası Prezidentinin "Dövlət nəzarət sisteminin təkmilləşdirilməsi və sahibkarlığın inkişafı sahəsində süni maneələrin aradan qaldırılması haqqında" Fərmanına uyğun olaraq "Nəzarət Kitabçaları"nın tətbiqinə başlanmışdır. Əsasnaməyə görə həmin kitabçalarda yoxlamanı aparan orqanın adı, yoxlamanın məqsədi, qanuni əsası və digər zəruri məlumatlar əksini tapmalıdır. Bunun da başlıca məqsədi sahibkarlıq subyektlərinin fəaliyyətinə müdaxilələrin, aparılan lüzumsuz yoxlama və təftişlərin qarşısını almaqdan ibarətdir. Lakin təəssüflər olsun ki, sahibkarlıq fəaliyyəti ilə məşğul olan hüquqi şəxslərin hazırki vaxtadək cəmi 17,4 faizi Nəzarət Kitabçasını almışdır. Nəzarət Kitabçalarından istifadənin vəziyyəti barədə toplanmış məlumatlara əsasən müəyyənləşmişdir ki, aparılmış yoxlamaların 80 faizinin heç bir əsası olmamışdır.

Hazırda mövcud qanunvericiliyə görə 75 fəaliyyət sahəsi lisenziyalaşdırılır. Eyni zamanda göstərilən sahələrin daxilində fəaliyyət növləri parçalanır (rabitə, dağ-mədən işləri, alkoqollu içkilər və tütün məmulatı) və nəticə etibarilə lisenziyalaşdırılan sahələrin sayı 270-ə

çatmışdır. Lisenziyaların verilməsi və onlara nəzarət 27 mərkəzi və yerli icra hakimiyyəti orqanı, onların idarələri və ya digər qurumları tərəfindən həyata keçirilir.

Lisenziyaların bilavasitə təsərrüfat funksiyalarını yerinə yetirən mərkəzi icra hakimiyyəti orqanları tərəfindən verilməsi haqlı rəqabətin pozulması, bazara çıxışın məhdudlaşdırılması və digər mənfi hallar ilə nəticələnir.

Yuxarıda deyilənləri nəzərə alaraq iqtisadi sahədə həyata keçirilən yoxlamaların, təftiş funksiyalarının vergi orqanları istisna olmaqla, qalan bütün mərkəzi və yerli icra hakimiyyəti orqanları və onların tabeçiliyində olan qurumlar üçün tamamilə qadağan edilməsi, vergi müfəttişləri tərəfindən keçirilən yoxlamaların məhdudlaşdırılması, lisenziyalaşdırma sahəsində bürokratik əngəlləri aradan qaldırmaq məqsədi ilə lisenziyalaşdırmanın təkmilləşdirilməsi və lisenziyalaşdırılan fəaliyyət sahələrinin sayının azaldılması öz həllini gözləyən ciddi problemlərdəndir.

Möhtərəm cənab Prezident!

1993-2001-ci illərdə Sahibkarlığa Kömək Milli Fondu tərəfindən kiçik sahibkarlığın üstün inkişaf istiqamətləri üzrə 100-dən çox investisiya layihəsinə güzəştli kredit verilmişdir. 1999-2001-ci illər ərzində dövlət büdcəsində ümumilikdə 37,3 milyard manat həcmində vəsaitin nəzərdə tutulmasına baxmayaraq, sahibkarlara 5,4 milyard manat həcmində güzəştli kredit verilmişdir.

Qeyd etmək lazımdır ki, sahibkarlığa dövlət maliyyə köməyi sistemi hələlik tələb olunan səviyyədə qurulmamışdır.

Bu baxımdan sistemin təkmilləşdirilməsinə, maliyyə yardımının həcminin artırılmasına ciddi ehtiyac duyulur. Bununla əlaqədar dövlətimizin başçısının tapşırığına uyğun olaraq, müvafiq tədbirlər həyata keçirilməkdədir.

Digər tərəfdən, etiraf etmək lazımdır ki, sahibkarlarımızın əksəriyyətinin peşəkarlığı lazımi səviyyədə deyildir və onların təqdim etdikləri biznes planlar mövcud tələblərə cavab vermədiyindən, bir çox hallarda kreditlərin ayrılması mümkün olmur.

Bununla əlaqədar olaraq sahibkarlara təhsil, məsləhət və informasiya xidmətlərinin təşkili sahəsində mühüm tədbirlər görülür, treninq kursları, seminarlar təşkil edilir, onlar xarici ölkələrə ezam olunurlar.



Sahibkarlar üçün vergi yükünün azaldılması, vergi sisteminin sadələşdirilməsi istiqamətində 1993-cü ildən etibarən mühüm addımlar atılmışdır. Məsələn, vergilərin sayı 15-dən 9-dək azaldılmış, mənfəət vergisi 35 faizdən 27 faizə, əlavə dəyər vergisi 28 faizdən 18 faizə, fiziki şəxslərdən gəlir vergisinin maksimum həddi 55 faizdən 35 faizə, sosial sığorta ayırmaları 40 faizdən 29 faizədək endirilmiş, kiçik sahibkarlıq subyektlərinin bir qisminə vahid vergi tətbiq edilməyə başlanmışdır.

Bununla belə, vergi dərəcələrinin, sosial sığorta ödənişlərinin endirilməsinin davam etdirilməsi, vergi güzəştlərinin tətbiqi, vahid korporativ vergiyə keçmək məsələsinə baxılması, kiçik biznes üçün xüsusi vergi və uçot sisteminin yaradılması və vergi idarəciliyinin daha da təkmilləşdirilməsi günün ən vacib tələblərindən biridir.

Sahibkarlıq subyektlərinin qeydiyyatını tənzimləyən qanunvericilik aktlarının təkmilləşdirilməsinə, prosedurların sadələşdirilməsinə də ehtiyac duyulur. Dövlət qeydiyyatı proseduruna beynəlxalq təcrübəyə uyğun olaraq, müəyyən sahədə fəaliyyətə icazə verilməsi kimi deyil, sadəcə, subyektləri uçota almağa imkan yaradan məlumatverici bir prosedur kimi baxılması sahibkarlığın inkişafına müsbət təsir göstərərdi.

Möhtərəm cənab Prezident!

Sahibkarlığın maliyyələşdirilməsinin real mənbəyi kimi çıxış edən kommersiya banklarından maliyyə vəsaitinin əldə edilməsi bir sıra problemlərlə müşayiət olunur. Təklif edilən kreditlərin faizinin yüksək olması, girov problemi, kreditlərin sığortası mexanizminin tam formalaşmaması kommersiya bankları ilə sahibkarların münasibətlərində başlıca problemlərdəndir. Kommersiya bankları tərəfindən verilən kreditlər əsasən qısamüddətlidir.

Bununla əlaqədar olaraq, ilk növbədə kiçik sahibkarlara verilən kreditlərdə faiz dərəcələrinin azaldılmasını, uzunmüddətli kreditlər verən banklar barəsində təşviq tədbirlərinin tətbiq edilməsi, kreditlərin sığortalanması, mikrokreditləşmə sisteminin yaradılması planlaşdırılır.

Sahibkarlığın inkişafı üçün digər əhəmiyyətli maliyyə mənbəyi vətəndaşlarımız tərəfindən bu və ya digər şəraitdə qazanılmış və hələ ki, Azərbaycanda iqtisadi dövriyyəyə cəlb edilməmiş vəsaitlərin leqallaşdırılaraq ölkə iqtisadiyyatına, müəssisələrin təşkilinə, yeni iş yerlərinin açılmasına yönəldilməsi ola bilər.

Sahibkarlığın inkişafına ayrı-ayrı təsərrüfat subyektlərinin inhisarçılıq fəaliyyəti də əngəllər yaradır. Bazarda hökmran mövqe tutan qurumlar tərəfindən inhisar qiymətlərinin tətbiqinə, inhisarçı təsərrüfat subyektləri tərəfindən rəqiblərin bazara girməsində maneələrin törədilməsinə, idarəetmə və təsərrüfat orqanlarının razılaşdırılmış hərəkətləri əsasında bazarın bölüşdürülməsi və ya rəqabətin məhdudlaşdırılmasına yol verilir.

Sahibkarların fəaliyyət göstərib-göstərməməsindən asılı olmayaraq, daxili bazarda təbii inhisarçı təsərrüfat subyektləri tərəfindən əvvəlcədən öz xidmətlərinə qoşulmasına görə haqların alınmasının qadağan edilməsinə zərurət vardır. Bu sahədə elektrik enerjisinə əvvəlcədən qoşulma haqqı ləğv edilsə də, belə hallar bəzi təbii inhisarçı təsərrüfat subyektləri tərəfindən hələ də aradan qaldırılmamışdır.

Bu baxımdan ölkədə tarif sisteminin təkmilləşdirilməsi, tariflərin səviyyəsinin iqtisadiyyatın tələbləri baxımından çevik şəkildə tənzimlənməsi məqsədi ilə müvafiq təşkilatların nümayəndələrindən ibarət Tarif Şurası yaradılmışdır. Bu qurum tariflərin və qiymətlərin sahibkarlığın mənafeyi baxımından müntəzəm olaraq tənzimlənməsində mühüm vasitə olacaqdır.

Sahibkarlığın inkişafında əhalinin ən aşağı təminatlı hissəsinə sosial yardımların və güzəştlərin ünvanlılığının təmin edilməsi, özəlləşdirilən müəssisələrin dövlətə olan borclarının silinməsi barədə qəbul edilmiş qərarların mühüm əhəmiyyəti olmuşdur.

Qeyd olunanlarla bərabər, sahibkarlığın inkişafı məqsədi ilə daxili bazarın qorunması, yerli istehsalın stimullaşdırılması, qaçaqmalçılığın aradan qaldırılması, keçirilən tenderlərin şəffaflığının artırılması, yerli şirkətlərin bu tenderlərə daha fəal cəlb edilməsi, xarici şirkətlərin həyata keçirdiyi layihələrdə yerli şirkətlərin subpodratçı kimi daha geniş iştirakı; iqtisadiyyatın, o cümlədən sahibkarlığın tarazlı şəkildə inkişaf etdirilməsi, regionlarda, xüsusilə, blokadada olan Naxçıvan Muxtar Respublikasında, dağlıq və sərhədyanı rayonlarda infrastruktur ilə təminat məsələlərinin əhəmiyyətli dərəcədə yaxşılaşdırılması, bu regionlara ciddi təşviq tədbirlərinin tətbiqi ilə bağlı müvafiq işlər görülməkdədir.



Sahibkarlığın genişlənməsinin əsas bazası olan özəlləşdirmədə də problemlər mövcuddur. İlk növbədə demək lazımdır ki, özəlləşdirilmiş bir çox müəssisələr fəaliyyətini dayandırmışdır və ya qismən fəaliyyət göstərir. Bunun səbəbləri özəlləşdirmə prosesində buraxılmış səhvlər, kəmiyyət göstəricilərinə üstünlük verilməsi, habelə təsərrüfat əlaqələrinin qırılması, bazarın itirilməsi, avadanlığın köhnəlməsi ilə bağlıdır.

1980-ci illərin sonunda keçirilən tətillər, müəssisələrin fəaliyyətinin dayandırılması, neft maşınqayırması, kimya, yüngül sənaye, konserv və digər müəssisələrin keçmiş SSRİ-dəki bazarının itirilməsinə səbəb olmuşdur.

İndi də müəssisələrin özəlləşdirilməsində və fəaliyyətində müəyyən əngəllər qalmaqdadır. Bunlar əsasən bəzi mərkəzi icra hakimiyyəti orqanları tərəfindən özəlləşdirilməyə maneələrin törədilməsi, mövcud qanunvericiliyin tələblərinə zidd olaraq, sahibkarların istifadə etdikləri müəssisə və obyektlərin yerləşdiyi torpaq sahələrinin yerli icra hakimiyyəti orqanları və bələdiyyələr tərəfindən kənar şəxslərin istifadəsinə verilməsi, məhkəmə qətnamələrinə əsasən, tələbin özəlləşdirmə üçün açıq elan edilmiş müəssisə və obyektlərin fəaliyyəti üçün zəruri olan avadanlığa yönəldilməsi ilə bağlıdır.

Özəlləşdirilən müəssisələrdə işçilərin sosial müavinətlərinin ödənilməsi, habelə ekoloji təhlükəsizliklə bağlı yeni sahibkarlara tələblərin qoyulması da özəlləşdirmə prosesinə əngəl yaradan problemlərdəndir. Bu baxımdan sosial müavinətlərin birbaşa Sosial Müdafiə Fondundan ödənilməsi həlli vacib olan məsələlərdəndir.

Sahibkarlığın inkişafı ilə bağlı elektrik enerjisi, qaz və su ilə təminatda da problemlər vardır. Hazırda bu problemlərin həlli məqsədi ilə beynəlxalq təşkilatlarla əməkdaşlıq şəraitində islahatlar həyata keçirilir. Belə ki, ölkə üzrə enerjipaylayıcı şəbəkələrin bazasında 4 səhmdar cəmiyyəti yaradılmış və onların idarəetməyə verilməsi işi

davam edir. Azərbaycan Respublikası Prezidenti tərəfindən bu yaxınlarda təsdiq edilmiş müvafiq proqrama uyğun olaraq, analoji tədbirlər qaz, su, kanalizasiya və digər kommunal xidmət sahələrində də həyata keçiriləcəkdir.

Bu yaxınlarda kiçik su elektrik stansiyalarının özəlləşdirilməyə açılması da elektrik enerjisi istehsalının artmasına və bu sahədə sahibkarlığın inkişafına təkan verəcəkdir.

Bununla bərabər, beynəlxalq maliyyə təsisatlarının və ayrı-ayrı ölkələrin ayırdıqları güzəştli kreditlər hesabına magirstral yolların, suvarma şəbəkələrinin bərpası ilə bağlı mühüm layihələr həyata keçirilməkdədir.

Sahibkarlığın kütləvi informasiya vasitələrində daha geniş təbliği, onların problemlərinin işıqlandırılması, "Sahibkarların dostu", "İlin sahibkarı" və digər mükafatların, həmçinin "Milli sahibkarlar günü"nün təsis edilməsi, sahibkarların ictimai birliklərinin, eləcə də Respublika Sahibkarlar Şurasının yaradılması bu sahənin inkişafına müsbət təsir göstərə bilər.

Hörmətli görüş iştirakçıları!

Deməkk lazımdır ki, dövlət idarəetmə orqanları ilə yanaşı, qanunvericiliyin sahibkarlar tərəfindən pozulması halları da kifayət qədər geniş yayılmışdır.

Məsələn, vergidən yayınma, gəlirlərin gizlədilməsi, müəssisələrin və torpaq sahələrinin qanunsuz zəbt olunması, qanunla müəyyən olunmamış yerlərdə — meşə zolaqlarında, qoruqlarda, parklarda, dəniz sahilində, neft buruqlarının arasında, magistral neft və qaz kəmərlərinin üzərində müxtəlif obyektlərin tikilməsi halları tez-tez müşahidə olunur.

Digər tərəfdən, dövlətə məxsus təbii sərvətlərdən qanunsuz istifadə edib bunun müqabilində nəzərdə tutulmuş vergidən və digər ödənişlərdən yayınma, ətraf mühitin çirkləndirilməsi, insanların həyatına və sağlamlığına təhlükə törədilməsi halları xüsusilə narahatlıq doğurur.

Bir çox hallarda sahibkarlar tarixi və mədəni əhəmiyyət kəsb edən binalarda, yaxud digər tikililərdə yerləşmiş müəssisə rəhbərləri ilə sövdələşmələrə girir, qanunsuz olaraq həmin binalardan sahələr



icarəyə götürür və buna xeyli vəsait sərf edirlər. Sonradan isə bu əməllərin qarşısı alındıqda, onlar qanunsuz icarəyə götürdükləri sahələrdən çıxarıldıqda ciddi narazılıqlar yaranır.

Hörmətli görüş iştirakçıları!

Qeyd olunan problemlərə baxmayaraq, son 8 ildə görülmüş tədbirlər nəticəsində sahibkarlığın inkişafı ölkənin, onun vətəndaşlarının həyatında ciddi dəyişikliklərlə nəticələnmişdir. Cəmi 10-15 il bundan əvvəl xarici ölkələrə səfərlər zamanı küçələrin təmizliyi və yaraşığı, mağazalardakı bolluq bizim üçün əlçatmaz xəyal, arzu kimi görünürdü. Məhz həyata keçirilən məqsədyönlü iqtisadi siyasətin nəticəsidir ki, bu arzular Azərbaycanda gerçəkləşdi və qarşısıalınmaz reallığa çevrildi.

Sevindirici haldır ki, sahibkarlığın inkişafı nəticəsində yerli müəssisələrin istehsal etdikləri məhsullar xarici məhsullara qarşı yüksək rəqabət qabiliyyətini göstərir. Buna misal olaraq ət, toyuq və süd məhsulları, meyvə şirələri, çörək və un məmulatı, mineral su, spirtli içki və siqaret, ayaqqabı, geyim, mebel, inşaat materialları və digər istehsal sahələrini sadalamaq olar.

Əgər 1995-ci ildə ərzaq məhsulları ümumi idxalın 41 faizini təşkil edirdisə, 2001-ci ilin yekunlarına görə 16 faiz olmuşdur. Lakin bununla belə, ərzaq və ya digər məhsullarla təminatda yerli istehsalın rolunu artırmaq üçün böyük potensial imkanlar vardır.

Sonda xüsusi vurğulamaq istərdim ki, sahibkarlar dövlətsiz, dövlət isə sahibkarlarsız mövcud ola bilməz. Prezidentimiz dəfələrlə vurğulamışdır ki, dövlət sahibkara onun mülkiyyətini qorumaq, ona dinc şəraitdə, maneəsiz fəaliyyət göstərmək üçün real imkan yaratmaq məqsədi ilə lazımdırsa, sahibkar dövlətə öz mövcudluğunu, iqtisadi bazasını, maliyyə və iqtisadi əsasını təmin etmək üçün lazımdır. Odur ki, dövlətin fəaliyyətinin qiymət meyarı sahibkara yaratdığı şəraitlə, sahibkarın fəaliyyətinin qiymət meyarı isə ödədiyi vergi, insanlara verdiyi iş və dolanışıq ilə ölçülür.

Möhtərəm cənab Prezident!

Bütün bu nailiyyətlər məhz Sizin müəyyən etdiyiniz siyasətin real nəticəsidir. Mövcud problemlər isə yalnız Sizin möhkəm iradəniz, həmişəki kimi prinsipial mövqeyiniz, radikal qərarlarınız sayəsin-

də həll oluna bilər.

Çıxışımın sonunda Sizi əmin etmək istərdim ki, əldə edilmiş uğurların möhkəmləndirilməsi, ölkəmizin iqtisadi tərəqqisinə, vətəndaşlarımızın maddi rifahının daha da yüksəlməsinə yönəlmiş strategiyanızın həyata keçirilməsi üçün bundan sonra da bütün qüvvə və bacarığımızı səfərbər edəcəyik.

Diqqətinizə görə təşəkkür edirəm.

* * *

HEYDƏR ƏLİYEV: Bizim görüşümüzün birinci hissəsi bitdi. Biz sizi, yəni iş adamlarını dinləyəcəyik. Görürəm, burada söz demək üçün müraciət edənlər var. Mən onların müraciətlərini nəzərə alaraq söz verəcəyəm. Ancaq burada yəqin ki, hər kəsin söz demək arzusu var. Ona görə də burada çıxış etmək lazım deyil, nitq söyləmək də lazım deyildir. Yaxşı sahibkarlıq edirsinizsə, çox sağ olun, yaxşı nəticələr əldə edirsinizsə, çox sağ olun. Əgər siz gəlib burada öz nailiyyətləriniz haqqında on dəqiqə, sizi narahat edən, sizə mane olan şeylərdən isə iki dəqiqə danışsanız, bu, səmərəli olmayacaqdır.

Sizin gördüyünüz işlər məlumdur. Sahibkarlar Azərbaycanda iqtisadiyyatın inkişafına böyük töhfələr verirlər. Ancaq bu gün bu barədə məlumat verməyə ehtiyac yoxdur. Mən xahiş edirəm ki, tribunaya, mikrofon qarşısına gəlmək istəyən hər bir şəxs ancaq və ancaq sahibkarlığın daha da uğurla həyata keçirilməsinə mane olan amillər barədə açıq-aydın desin, heç kəs utanmasın, heç kəs çəkinməsin. Çünki bu nöqsanların, mane olan şeylərin səbəbləri bizə məlumdur. Ola bilərdi, mən sizinlə görüşmədən də böyük bir toplantı keçirərək, mənə məlum olan faktlardan istifadə edib Azərbaycanda hakimiyyət orqanları qarşısında lazım olan vəzifələri qoyum. Ancaq mən hesab edirəm ki, bizə məlum olmayan şeylər də var. Bunları siz bizdən daha yaxşı bilirsiniz. Sizin özünüz işinizdə bunu hiss edirsiniz. Rica edirəm ki, ancaq bu barədə danışasınız.

Təbiidir ki, indi biz günün axırına qədər burada bir yerdə işləyəcəyik. Ancaq buna baxmayaraq, hamı burada öz fikrini demək imkanı əldə edə bilməyəcəkdir. Ona görə də sizə xüsusi anket paylanıbdır. Siz orada öz fikirlərinizi yazıb qutulara atarsınız. Qutular haradadır?

RAMİZ MEHDİYEV (Prezidentin İcra Aparatının rəhbəri): Buradadır.



HEYDƏR ƏLİYEV: Onlar qutu deyil, Ramiz Mehdiyev, biz istəyirik ki, bu, gizli olsun, o yazılar da anonim olsun. İndi danışacaqlar, niyə qutu gətirməmisiniz? Şöbə müdiri qabağına bir dənə çanaq qoyub deyir ki, yazıları gətirin bura atın. Özünüz də deyirsiniz ki, anonim olsun. Yaxşı, qutunu hazırlamaq çətin bir şey deyildir ki?! Yəqin unutmusunuz, indi hazırlayırsınız.

RAMİZ MEHDİYEV: Cənab Prezident, nəzərdə tutmuşuq.

HEYDƏR ƏLİYEV: Bəs, haradadır?

RAMİZ MEHDİYEV: Tənəffüs zamanı qoyulacaqdır.

HEYDƏR ƏLİYEV: Axı, niyə tənəffüsdə, indi yazacaqlar. Deyirsən ki, hələ fikirləşib yazacaqlar?! Elə bu iş vaxtı da qoya bilərdiniz.

RAMİZ MEHDİYEV: Get-gəl olmasın deyə, fikirləşdik ki, yazıb tənəffüs zamanı qutuya atarlar.

HEYDƏR ƏLİYEV: Nə olar, bir az da get-gəl olsun.

Bir halda ki, belə deyirlər, onda mən rica edirəm, biz tənəffüs edən kimi qutuları gətirin. Özü də bir qutu olmasın, qutunun yanında da heç kəs durmasın. Rica edirəm ki, heç nədən çəkinməyin, qorxmayın, nə fikriniz varsa, həmin o anketdə yazıb qutulara atın. Yəni burada deyəcəyiniz və o qutuya atdığınız anketlərdəki fikirlər hamısı toplanacaqdır. Özü də onlar anonimdir. Adınızı yazmayın, familiyanızı yazmayın. Biz bunu nə üçün edirik, — mən bunu dedim. Biz bilirik ki, şikayət edəcəyiniz orqanların rəhbərləri, ola bilər, gələcəkdə sizə kömək etmək əvəzinə, maneçilik etsinlər ki, niyə gedib bizim işlərimizi orada açdınız.

Bilirəm ki, bəzi biznesmenlərin şikayətləri var, öz aralarında deyirlər. Amma gəlib açıq demək istəmirlər. Bunun da səbəbi var. Çünki açıq deyəndə, hansı orqandan şikayət edibsə, o, təəssüflər olsun ki, ona qarşı daha da təzyiqlər edir, yaxud ədalətsiz hərəkətlər edir. Ona görə biznesmen fikirləşir ki, bir təhər başımı dolandırım.

Demək, bizim görüşümüzün birinci hissəsi bitdi. Mən xahiş edirəm, bizim televiziya, foto və başqa mətbuat nümayəndələri getsinlər. Biz nəzərdə tutmuşduq ki, fasilə edək. Amma fasilə etmək tezdir. Biz burada cəmi bir saat yarımdan da azdır işləyirik. Heç olmasa, bir az da

işləyək, sonra fasilə edək. Mən belə düşünürəm. Ona görə mətbuat, siz gedin, sağ olun.

* * *

Sonra görüş qapalı şəkildə davam etdirildi. Beş saatdan çox davam edən qapalı görüşdə sahibkarlar onları narahat edən məsələlər barədə fikirlərini söylədilər.

* * *

Fasilədən sonra görüş kütləvi informasiya nümayəndələrinin iştirakı ilə davam etdi.

Azərbaycan Prezidenti Heydər Əliyev görüşdə yekun nitqi söylədi.



# YERLİ SAHİBKARLARLA GÖRÜŞDƏ AZƏRBAYCAN PREZİDENTİ HEYDƏR ƏLİYEVİN YEKUN NİTQİ

— Hörmətli xanımlar və cənablar!

Hesab edirəm ki, biz bu görüş ilə əlaqədar məqsədimizə nail olduq. Saat 11-dən indiyə qədər — artıq yeddi saatdır — biz burada, bu salonda sahibkarlığın inkişafı ilə əlaqədar birlikdə fikir mübadiləsi apardıq. Bizim bu görüş başlananda da mən müraciət etdim və bildirdim ki, bugünkü görüş yalnız və yalnız yerli sahibkarlığın inkişafına mane olan səbəbləri aradan qaldırmaq məqsədi daşıyır. Problemlər çoxdur, məsələlər çoxdur, əgər biz istəsəydik burada onların hamısını aşkar edək, yaxud da onlar haqqında fikir mübadiləsi aparaq, bu, çox çətin olardı. Ona görə də mən əvvəldən də, görüş zamanı da dəfələrlə bildirdim ki, biz sahibkarlığın inkişafı ilə əlaqədar bir neçə tədbir həyata keçirmək məqsədindəyik və bu tədbirləri səmərəli keçirmək və nəhayət, sahibkarlığın inkişafı üçün lazımi qərarlar qəbul etmək üçün vəziyyəti sahibkarların özündən öyrənmək istəyirik. Buna görə də biz bugünkü görüşə gəlmişik.

Düşünürəm ki, bu görüşümüz səmərəli, maraqlı keçdi. Hər halda güman edirəm ki, siz etiraf edərsiniz ki, mən burada hər kəsə öz fikrini sərbəst demək şəraiti yaratdım və hətta bəzilərinə fikirlərini ifadə etmək üçün kömək etməyə çalışdım. Düzdür, başlanğıc vaxtı sahibkarlar — yəni sizi deyirəm — bir az nədənsə çəkinirdilər, utanırdılar, amma sonra get-gedə açılışdılar. İndi, görüşümüzün sonunda hesab edirəm ki, bizim bu salonumuz çox qızışmış vəziyyətdədir.

Hiss etdim ki, əgər biz burada hələ beş-altı saat da otursaq danışmaq istəyən, fikir demək istəyən var. Ancaq bunu əvvəldən bildirmişdim ki, təbiidir, burada hamı danışa bilməz. Yəni danışa bilər, ancaq sadəcə vaxt buna imkan vermir. Ona görə də bütün təkliflərinizi və xüsusən sizin işinizə nə mane olursa, onları yazılı surətdə, anonim surətdə oraya, qutuya atın. Bilmirəm, indi qutuya bir şey atılıb, yoxsa yox?

RAMİZ MEHDİYEV (Prezidentin İcra Aparatının rəhbəri): Cənab Prezident, müəyyən qədər atılıbdır.

HEYDƏR ƏLİYEV: Müəyyən qədər atılıbdır. Mən burada sa-

hibkarlara dedim ki, istəyirəm siz şikayət edəsiniz. Əgər şikayət etməyə əsas varsa, çəkinməyəsiniz, bildirəsiniz ki, nə var, nə yoxdur. Nəhayət, biz buna nail ola bildik.

Bizim ordan-burdan eşitdiyimiz bəzi məsələlər haqqında burada açıq bəyanatlar verildi. Ancaq yenə də güman edirəm ki, bunlar yerli sahibkarların işinin yaxşılaşdırılması üçün hələ tam deyil. O mənada ki, biz bütün nöqsanları, bütün əngəlləri burada bilavasitə eşidə bilmədik. Ona görə də sizə verilmiş anketlərdə yazdıqlarınızdan, buradakı çıxışlardan istifadə olunacaqdır. Ən nəhayət, kim istəyirsə, bu gün də, sabah da, bir neçə gün müddətində də fikirlərini yazılı surətdə verə bilər. İstəsə öz imzası ilə yazsın, istəməsə anonim yazsın. Bunların hamısı təhlil olunacaqdır. Təbiidir ki, müəyyən qədər yoxlanılacaqdır. Biz son müşavirəmizdə bunların əsasında bu məsələlərə həm öz münasibətimizi bildirəcəyik, həm də bu barədə lazımi qərarlar qəbul edəcəyik.

Mən bugünkü görüşdən çox məmnunam. Çox məmnunam ki, bir neçə saatdır sahibkarlarla bir yerdəyik, sərbəst görüşürük, söhbət edirik. Bu mənim üçün çox əhəmiyyətlidir. Güman edirəm, sizin üçün də əhəmiyyətlidir. Elə bu, görüşün özünün əhəmiyyətli olduğunu təsdiq edir. Ancaq mən məmnunam ki, sahibkarlığa mane olan bir neçə məsələlər haqqında burada açıq fikirlər söyləndi. Onlar çoxdur və indi onların hamısını demək istəmirəm. Ancaq biz bunu əvvəldən də müəyyən qədər bilirdik. Sizin dediklərinizdən daha da geniş məlumatlandıq ki, bizim dövlət orqanları, hakimiyyət orqanları, yəni sahibkarların öz sahibkarlığını həyata keçirmək üçün cavabdeh olan orqanların işində çox böyük nöqsanlar, çox böyük qüsurlar, böyük əyintilər, vəzifələrindən sui-istifadə olunması faktları, hətta cinayət halları vardır. Təbiidir ki, cinayəti gərək məhkəmə təyin etsin. Amma mən sadəcə, öz fikrimi bildirmək istəyirəm.

Mən təsəvvür edə bilmirdim, bu görüşə hazırlıq zamanı bizim aparatın işçiləri sahibkarların nədən narazı olduqları barədə sorğu aparıblar. Hesab edirəm ki, sorğu çox maraqlı nəticələr veribdir. Ancaq bu da hələ işin başlanğıcıdır. Yəni bizim bu məsələni öyrənmək barəsində işimizin başlanğıcıdır. Sizin burada dediklərinizdən çox şey məlum oldu.



Məsələn, sorğuda belə məlumatlar var. Sorğu min nəfər arasında aparılıbdır. Aşağıda göstərilən səbəblərdən hansı sahibkarlığın inkişafına mane olur sualına cavablar belədir: yüksək vergilər-508 nəfər, maliyyə vəsaitinin çatışmaması-304 nəfər, bazar infrastrukturunun aşağı səviyyəsi-106, əhalidə sahibkarlıq təşəbbüsünün zəifliyi-95 nəfər, cəlb olunduğumuz müharibə-125 nəfər, qanunsuz yoxlamalar-441 nəfər. Siz çıxışlarınızda da bu rəqəmləri təsdiq etdiniz. Düzdür, heç biriniz rəqəmlər gətirmədiniz, ancaq sizin dedikləriniz, hər halda, sorğu ilə üst-üstə düşür. Sorğunun başqa göstəriciləri də var. Güman edirəm ki, bunlar hamısı bundan sonra görüləcək işlərimizdə istifadə olunacaqdır.

Beləliklə, bizim Vergi Nazirliyi, Gömrük Komitəsi, hüquq-mühafizə orqanları — bunlar üzdə olanlardır. Amma mən təsəvvür edə bilməzdim ki, sanitariya nəzarətçiləri sahibkarların iş aparması üçün nə qədər maneələr qoyublar və nə qədər çətinliklər yaradıblar. Yaxud burada dedilər, lisenziyaların bir çoxu lazımdır, ya lazım deyil? Doğrudur, hələ bu görüşə qədər mənim aparatımda və Nazirlər Kabinetində bu məsələ üzərində işləyiblər və lisenziyaların sayının xeyli azalması haqqında mənə məlumat verilibdir. Ancaq hesab edirəm ki, bu görüşdən sonra bir daha düşünmək lazımdır.

Məni burada çox dəhşətə gətirən o oldu ki, gedib mağazaları bağlayırlar. Burada deyildi ki, hətta Gömrük Komitəsinin işçiləri gedib mağaza bağlayırlar. Birincisi, bu, onların funksiyasına aid deyil. İkincisi də mağazanı bağlamaq olmaz. Yaxud mənim üçün çox təəccüblü oldu ki, Bakı şəhər İcra Hakimiyyətinin Ticarət-İstehlak Departamenti indi Bakıda olan mağazaların işinə çox mane olur və onlar üçün böyük çətinliklər yaradır.

Mən sizinlə görüşümdə bu fikrimi bildirdim. Bunu bir də bəyan etmək istəyirəm ki, Azərbaycanda özəlləşmənin ən müsbət nəticələrindən biri ticarətin özəlləşdirilməsi olubdur. İndi özəlləşdirilmiş ticarət, yəni özəl sektorun əlində olan ticarət bizim Azərbaycanın bugünkü gününün ən yaxşı nailiyyətlərindən biridir. Azərbaycan vətəndaşı Bakının mağazalarından müxtəlif malları, istənilən malları, dünyanın hər yerində olan malları burada öz şəhərində, yaşadığı yerdə ala bilir. İndi mağazaların görkəmi, xidmət səviyyəsi, onların rek-

lamları, demək olar ki, Bakının görünüşünü xeyli dəyişdiribdir. Amma mən bunu deyirəm ona görə yox ki, bunlar gözəldirlər və bizim şəhərə müəyyən gözəllik verirlər. Mən bunu ona görə deyirəm ki, bu qədər mağazalar, müxtəlif mallarla dolu olan mağazalar ticarət aparırlarsa, Qərb ölkələrindən, digər ölkələrdən çox yüksək keyfiyyətli mallar gətirib Azərbaycanda satırlarsa, Azərbaycanın vətəndaşları bu mallardan istifadə edirlərsə, alırlarsa, bu, bizim iqtisadi inkişafımızın ən yaxşı göstəricilərindən biridir. Biz buna nail olmaq istəyirik.

Ancaq unutmaq lazım deyil ki, keçmişdə, Sovet İttifaqı zamanı mağazaların içi boş idi. İndi mağazalar dəyişilibdir, onlar yüksək səviyyədə qurulubdur və çox zəngin mağazalardır. Bu, bizim apardığımız iqtisadi siyasətin nəticələrindən biridir. Biz bunu inkişaf etdirməliyik, irəliyə aparmalıyıq.

Əgər Bakı şəhər Ticarət-İstehlak Departamenti gedib bu mağazaları bağlayırsa, yaxud onların işinə mane olursa, vergi orqanları gedib onları sıxışdırırlarsa, hətta anlaşılmaz bir şeydir ki, gömrük orqanları gedib mağazaların işinə müdaxilə edirlərsə, bunlar dözülməz hallardır. Burada da deyildi. Ticarət təşkilatının rəhbəri burada bu barədə danışanda gördüm, zalda nə qədər alqışlar var idi. Nəyə görə alqışlar var idi? Ona görə ki, o, açıqca dedi ki, mağazaların işləməsinə imkan vermirlər. Sahibkarların çoxları da mağazaları bağlayırlar, bu işlərindən imtina edirlər. Çünki məmurların bu cür müdaxiləsi, yoxlamalar mağazaları elə vəziyyətə salır ki, sahibkar nəinki qazanc əldə edə, hətta qoyduğu vəsaiti çıxara bilmir. Təbiidir, belə halda heç kəs işləməz. Demək, son illərdə bizim böyük əzab-əziyyətlə yaratdığımız bu ticarət sistemi belə getsə dağılacaqdır. Bu çox narahatedici haldır. Təbiidir ki, biz bu barədə lazımi ölçülər götürəcəyik.

Ancaq mən öz təəssüratlarımı burada indi ilkin olaraq bildirmək istəyirəm. Burada deyildi ki, Goranboy rayonunda icra başçısı Ticarət-İstehlak Departamenti yaradıbdır, orada 23 nəfər işçi var və hər köşkə bir işçi çatır. Yaxşı, onda bu nəyə lazımdır. Bu, məni dəhşətləndirdi. Kiçik bir rayonda Ticarət-İstehlak Departamenti yaratmaq və orada 23 nəfər işçi saxlamaq nəyə lazımdır, kimə lazımdır?!

Biz ticarətə azadlıq vermişik. Qoy onlar azad yaşasınlar, azad işləsinlər, ticarətini aparsınlar. Onlar böyük iş görürlər. Ancaq müxtəlif



məmurlar, icra orqanları tərəfindən bunların qarşısı alınır. Ramiz Mehdiyev, mən sənə tapşırıq verirəm, sabah yoxla, Goranboy rayonunda həqiqətən belə bir vəziyyət varsa, mənə məruzə et. Güman edirəm, mən bu barədə lazımi konkret qərarı qəbul edəcəyəm. Bunuləngitmək lazım deyil.

Ancaq biz burada təkcə ticarət sahəsində deyil, başqa sahələrdə də mövcud olan çətinlikləri eşitdik, bildik. Ona görə mən burada bizə verdiyiniz məlumatlara görə sizə təşəkkür edirəm. Hesab edirəm, bu gün bizim açıq söhbətimiz alındı. Ancaq hiss etdim ki, bu söhbətimiz o qədər qızışır ki, bunun üçün indiyə qədər işlədiyimiz vaxt çatmır. Yəqin ki, 10-15 saat vaxt lazımdır. Bir də təkrar edirəm, buna imkan olmadığına görə, siz ürəyinizdə olan bütün fikirləri, xüsusən işinizə mane olan halların hamısını yazın, verin.

Əmin ola bilərsiniz ki, biz — Azərbaycan dövləti və şəxsən Azərbaycan Prezidenti ölkəmizdə sahibkarlığın inkişafını özümüzün əsas vəzifələrimizdən biri hesab edirik. Biz Azərbaycanın sosial-iqtisadi inkişafını bilavasitə sahibkarlıqla, onun inkişafı ilə bağlayırıq və sahibkarlığın inkişaf etdirilməsi üçün bundan sonra lazım olan tədbirlərin həyata keçirilməsi ilə məşğul olacağıq. Sizin işinizə qanunsuz müdaxilə edənlərin, sizə mane olanların, qanunsuz olaraq sizdən bəhrələnməyə çalışanların hamısının qarşısını alacağıq.

Mən istərdim, siz biləsiniz ki, Azərbaycanda bazar iqtisadiyyatının həyata keçirilməsi və onun bir hissəsi olan sahibkarlıq prosesinin yaranması və inkişaf etdirilməsi asan bir şey deyildir. Bizim hamımız birlikdə on illərlə mərkəzləşmiş dövlət iqtisadiyyatı şəraitində yaşamışıq. O dövrdə heç bir sahibkarlığa imkan verilmirdi və insanlar nəsildən-nəsilə sahibkarlığın nə olduğunu unudurdular. İndi sahibkarlığı yenidən bərpa etmək, insanları buna alışdırmaq, onlarda sahibkarlıq keyfiyyəti yaratmaq, insanlarda sahibkarlıq xüsusiyyətləri tərbiyə etmək, yüksək səviyyəli sahibkarlar hazırlamaq, milli sahibkarlar yaratmaq — bunlar vaxt tələb edir. Bunlar eyni zamanda, dövlətin qayğısını tələb edir.

Biz səbirli olmalıyıq. Siz bilməlisiniz ki, biz lazım olan qayğını göstərəcəyik. İnanıram ki, siz də, bütün sahibkarlar da daha çox təkmilləşəcəksiniz, sahibkarlıq xüsusiyyətlərini daha da dərindən mə-

nimsəyəcəksiniz, sağlam, öz xalqına, vətəninə sədaqətlə xidmət edən sahibkarlar kimi inkişaf edəcəksiniz. Bunlar hamısı Azərbaycanda iqtisadiyyatın sürətlənməsini təmin edəcəkdir. Mən buna inanıram. Bunun üçün vaxt lazımdır. Bir də qeyd edirəm, bunun üçün bir tərəfdən dövlətin qayğısı, digər tərəfdən sahibkarların özünün bu işi daha da dərindən mənimsəməsi lazımdır. Bu proses gedir. Biz bu prosesi gücləndirməliyik. Bizim bugünkü görüşümüz də məhz bu prosesi gücləndirmək və bu prosesi səmərəli etmək məqsədi daşıyır.

Ümidvaram ki, biz yaxşı nəticələr əldə edəcəyik. Bilin ki, Azərbaycan Prezidenti bütün sahibkarların himayədarıdır və dayağıdır. Rahat yaşayın, çətinliklərlə mübarizə aparın, çətinlikləri, maneələri vaxtında bizə çatdırın. Biz isə bu çətinliklərin aradan götürülməsi üçün lazım olan bütün tədbirləri həyata keçirəcəyik.

Sizə, Azərbaycanın bütün sahibkarlarına cansağlığı arzu edirəm, bu yeni peşənin mənimsənilməsində və sahibkarlıq fəaliyyətinizdə böyük sosial-iqtisadi uğurlar arzulayıram. Sağ olun, gələn görüşə qədər!

**26 aprel 2002-ci il.**




YEYİNTİ


AZERBA
ELECTRO
AZEL
AZERBAIJAN
ELECTRONICS
Canon






Miri Pak
TAIMEX

FRESH DAIRY PRODU



*Xarici iş adamlarının Azərbaycanda daha səmərəli fəaliyyəti üçün hər cür şərait yaradılır*



## AZƏRBAYCAN PREZİDENTİ HEYDƏR ƏLİYEVİN XARİCİ SAHİBKARLARLA GÖRÜŞÜ

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev mayın 14-də Prezident Sarayında ölkəmizdə fəaliyyət göstərən xarici sahibkarlarla görüş keçirmişdir.

Dövlətimizin başçısı Heydər Əliyev salonun foyesində xarici sahibkarların ölkəmizdə istehsal etdikləri yüksək keyfiyyətli məhsullardan ibarət sərgi ilə yaxından tanış oldu.

Xarici sahibkarlar, müştərək şirkət və müəssisələrin rəhbərləri başçılıq etdikləri istehsal sahələri, buraxılan məhsullar barədə ətraflı məlumat verdilər.

Prezident Heydər Əliyev ayrı-ayrı şirkətlərin, səhmdar cəmiyyətlərinin məhsulları, müəssisələrin vəziyyəti və inkişaf perspektivləri ilə, daxili tələbatın ödənilməsi, bazarda məhsulların satışının vəziyyəti və təşkili ilə maraqlandı, tövsiyə və məsləhətlərini verdi.

Dövlətimizin başçısı bildirdi ki, Azərbaycanda sənayenin bir çox sahələri üzrə istehsalı genişləndirmək üçün imkanlar çoxdur.

Azərbaycan Prezidenti ölkəmizin neft sektorunda işləyən tanınmış xarici şirkətlərin fəaliyyətini əks etdirən stendlərlə də tanış oldu, həmin şirkətlərin nümayəndələri ilə söhbət etdi.

Xarici iş adamları ölkəmizdə sahibkarlığın inkişafına, Azərbaycana xarici sərmayələrin cəlb edilməsinə, xarici sahibkarlarla dövlət idarəetmə orqanları arasında münasibətlərin tənzimlənməsinə, sahibkarların problemlərinin həllinə göstərdiyi qayğı və diqqətə görə Prezident Heydər Əliyevə dərin təşəkkür və minnətdarlıqlarını bildirdilər.

Dövlətimizin başçısına sahibkarlar adından gül dəstəsi, xatirə hədiyyələri təqdim olundu.

Sonra görüş başlandı.

Prezident Heydər Əliyev görüşü giriş nitqi ilə açdı.



## AZƏRBAYCAN PREZİDENTİ HEYDƏR ƏLİYEVİN GİRİŞ NİTQİ

— Hörmətli xanımlar və cənablar!

Hörmətli iş adamları!

Sizin hamınızı səmimi qəlbdən salamlayıram, işlərinizdə uğurlar arzulayıram. Bugünkü görüşümüz iqtisadiyyatımızın inkişafı ilə əlaqədar Azərbaycan dövləti tərəfindən görülən mühüm tədbirlərdən biridir. Azərbaycan dövlət müstəqilliyini əldə edəndən sonra demokratiya yolu ilə, demokratik, hüquqi, dünyəvi dövlət quruculuğu yolu ilə gedib və ötən 10 ildə xalqımız, dövlətimiz böyük nailiyyətlər əldə edibdir. Azərbaycan bazar iqtisadiyyatı yolu ilə getməkdədir. Azərbaycanda bazar iqtisadiyyatını təmin etmək üçün 1995-1996-cı illərdən etibarən müxtəlif tədbirlər həyata keçirilibdir. İndi biz deyə bilərik ki, Azərbaycan bazar iqtisadiyyatına keçibdir. Əlbəttə, keçid dövrünün hələ müəyyən problemləri var. Bəzi sahələrdə görüləsi işlər var. Ancaq biz qətiyyətlə deyə bilərik ki, Azərbaycanın iqtisadiyyatı indi bazar iqtisadiyyatı prinsipləri əsasında qurulur və inkişaf etdirilir. Buna nail olmaq üçün biz bir çox tədbirlər həyata keçirmişik. Birinci növbədə dövlət mülkiyyətinin özəlləşdirilməsi, iqtisadi islahatların aparılması, torpaq islahatının həyata keçirilməsi və bir çox başqa tədbirlər Azərbaycanda artıq iqtisadiyyatın, əsasən, özəl sektora mənsub olmasını təmin edibdir. Təxminən 1994-1995-ci illərdən dövlətimiz Azərbaycanda bazar iqtisadiyyatını inkişaf etdirmək üçün xarici sərmayələrin cəlb olunması sahəsində ardıcıl siyasət aparır və konkret tədbirlər görmüşdür.

Azərbaycana xarici sərmayənin cəlb olunmasının əhəmiyyəti artıq bizim cəmiyyətimiz üçün məlumdur. Bunu sizə izah etməyə də ehtiyac yoxdur. Bazar iqtisadiyyatını təmin etmək üçün qarşımızda özəlləşdirməni aparıb, əmlakı şəxsi mülkiyyətə verib özəl sektorun inkişafını təmin etmək vəzifəsi dururdu. Ancaq bunu təmin etmək, sürətləndirmək üçün Azərbaycana xarici sərmayənin, müasir texnologiyanın, müasir idarəetmə sisteminin və bazar iqtisadiyyatının qabaqcıl ölkələrdə əldə etdiyi nümunələrinin gətirilməsi zərurəti vardı.

Ötən illər biz bunlarla məşğul olmuşuq. İndi məmnuniyyətlə qeyd edə bilərik ki, Azərbaycanın iqtisadiyyatı ilbəil inkişaf edir. Azər-

baycanda özəl sektor, sahibkarlar təbəqəsi yaranıbdır. Azərbaycana güclü xarici sərmayə gəlir. Bununla bərabər, Azərbaycana müxtəlif ölkələrdən şirkətlər, iş adamları gəlib burada iş görürlər. Məhz bunların nəticəsidir ki, Azərbaycanın iqtisadiyyatı ilbəil inkişaf edir.

Demək, bazar iqtisadiyyatının aparıcı qüvvəsi iş adamlarıdır, özəl şirkətlərdir, xarici sərmayəçilərdir. Bu sahədə görülən işləri qiymətləndirərək, hesab edirik ki, hələ istifadə olunmamış imkanlar da çoxdur. Əldə edilmiş təcrübədən daha səmərəli istifadə etmək lazımdır. **Biz indiyə qədər görülən işləri Azərbaycanın bazar iqtisadiyyatı yolu ilə getməsi prosesində birinci mərhələ hesab edirik. Bunların əsasında daha da sürətlə irəliyə getmək istəyirik. Məhz bu səbəbdən biz Azərbaycanda özəl sektorun inkişaf etməsi üçün lazım olan bütün şəraiti yaratmışıq. Azərbaycana xarici sərmayənin cəlb olunması üçün əsas şərtləri yaratmışıq. Birinci növbədə, Azərbaycanda daxili ictimai-siyasi sabitliyin təmin olunması bütün sahələrdə, o cümlədən iqtisadiyyatın inkişafında əldə etdiyimiz nailiyyətlərin əsasıdır.**

Özəl sektorun inkişafı üçün lazım olan qanunlar qəbul edilib, qaydalar müəyyənləşdirilib, fərmanlar verilibdir. Bunlar hamısı öz işini görübdür. Ancaq qeyd etdiyim kimi, biz bundan sonra daha da sürətlə irəliləməliyik. Biz həm Azərbaycanda artıq yaranmış sahibkarların işini çox əhəmiyyətli hesab edirik, onlara hər cür yardım edirik və bundan sonra da edəcəyik. Həm də Azərbaycana gələn xarici şirkətlərin öz işlərini istənilən səviyyədə aparması üçün lazımi tədbirlər görmüşük və bundan sonra da görəcəyik. Bu məqsədlə də biz daim özəl sektorun nümayəndələri ilə əlaqə saxlayırıq. Azərbaycanda fəaliyyət göstərən müxtəlif firmalarla əlaqə saxlayırıq, onların işləri ilə maraqlanır, onlara yardım etməyə çalışırıq.

Bildiyiniz kimi, aprelin 25-də biz Azərbaycanın yerli sahibkarları ilə, yəni onların nümayəndələri ilə görüşdük və qarşıda duran məsələləri müzakirə etdik. Bu gün isə mən Azərbaycanda iş görən xarici şirkətlərin nümayəndələri ilə, yaxud xarici şirkətlərlə Azərbaycan şirkətlərinin yaratdıqları müştərək müəssisələrin nümayəndələri ilə görüşməyi qərara almışam. Bu məqsədlə mən sizi dəvət etmişəm. Çox məmnunam ki, mənim müraciətim Azərbaycanda fəaliyyət göstərən xarici şirkətlər, iş adamları tərəfindən qiymətləndirilibdir və bu gün biz sizinlə görüşə gəlmişik.



Həm aprel ayının 25-dəki, həm də bugünkü görüşün məqsədi biznesin inkişafına kömək etməkdən ibarətdir. Yəni biznesin inkişafı üçün lazım olan əlavə tədbirlər haqqında məlumat almaq, təkliflər almaq və onların əsasında dövlət, hökumət tərəfindən müvafiq qərarlar qəbul etməkdən ibarətdir. Biznesin inkişafına mane olan, yaradılan əngəllər haqqında məlumat almaq, onların aradan qaldırılması üçün lazımi tədbirlər görməkdən ibarətdir. Bunların müəyyən hissəsi bizə məlumdur. Yəni, bundan sonra biz Azərbaycanda biznesin inkişaf etdirilməsi üçün daha nə kimi tədbirlər həyata keçirməliyik — bunlar bizə məlumdur, biz bunu bilirik. Ancaq bilmədiyimiz şeylər də var. Onları sizlərdən öyrənmək istəyirik.

Azərbaycanda özəl sektorun fəaliyyətinə, biznesin inkişafına manеələrin, əngəllərin bir qismini biz bilirik və lazımi tədbirlər görürük. Ancaq bilmədiklərimiz də var. Bunları biz bilavasitə sizdən öyrənmək istəyirik. Ona görə də bizim bugünkü görüşümüz müəyyən qədər qeyri-formal xarakter daşıyır. Aprel ayının 25-də olan görüş kimi, bugünkü görüş də Azərbaycan Prezidentinin biznes nümayəndələri ilə daha yaxın münasibətlər yaratması məqsədi daşıyır. Bu münasibətlər də yalnız və yalnız Azərbaycanda biznesin inkişafını təmin etməkdən, xarici sərmayəni daha çox cəlb etməkdən və ölkəmizin iqtisadiyyatını inkişaf etdirməkdən ibarətdir. Buna görə də mən istərdim ki, bizim bu görüşümüzdə hər kəs özünü sərbəst hiss etsin. Biz bir-birimizlə səmimi olmalıyıq, formalizmə yol verməк olmaz. Mənim şəxsən məqsədim sizlərdən daha da çox məlumat almaq, işlərinizdə sizə mane olan hər bir faktı, — yaxud mane olan, bəlkə də, ümumi problemlər var, — aradan qaldırmaqdır.

Aprel ayının 25-dəki görüşlərdən sonra bizdə bir çox fikirlər yaranıbdır. Onlar özəl sektora daha da əlverişli şərait yaratmaqdan ibarətdir. Güman edirəm ki, sizinlə də görüşümüzdə əldə etdiyimiz yeni məlumatlar, fikirləriniz, təklifləriniz çox ətraflı təsəvvür əldə etmək və lazım olan tədbirlər görmək üçün faydalı olacaqdır.

Siz xarici ölkələrin vətəndaşlarısınız. Azərbaycan bazar iqtisadiyyatı sahəsində gənc bir ölkədir. Bizdə təcrübə azdır. Biz bazar iqtisadiyyatını sosialist iqtisadiyyatının, yəni o dövrlərdə yaranmış mülkiyyət formasının dəyişdirilməsi ilə yaratmağa başlamışıq. Bu, çətin proses olubdur, bu gün də çətindir. Ən çətini odur ki, bizdə təcrübə yox idi. Yaşadığımız hər il bizi daha da təcrübələndirib, bu sahədə bi-

liklərimizi genişləndiribdir. Ancaq bunlara baxmayaraq, iqtisadi cəhətdən inkişaf etmiş ölkələrdə olan təcrübənin hamısını hələ Azərbaycana gətirə bilməmişik.

Siz, xarici ölkələrin vətəndaşları öz ölkələrinizdə bizneslə məşğul olub təcrübə toplamısınız. Ona görə sizin burada fəaliyyətiniz Azərbaycanda biznesin inkişafı üçün, ölkəmizin iqtisadiyyatının inkişafı üçün çox əhəmiyyətlidir. Sizin bu təcrübəniz, indiyə qədər buradakı əməli fəaliyyətiniz Azərbaycana kömək edibdir. Ancaq bundan sonra nə etməliyik? Qarşımızda duran çətinliklər, əngəllər nədən ibarətdir? Bunların hamısını biz sizdən öyrənmək istəyirik. Bunlar barəsində sizdən məlumatlar almaq istəyirik.

Mən bir daha rica edirəm ki, burada söz demək istəyən şəxslər öz fikirlərini açıq desinlər, çəkinməsinlər. Bizi tənqid etmək lazımdır, tənqid edin. Əgər buraya gələn iş adamları bizi ancaq tərifləsələr, bu görüşün əhəmiyyəti olmazdı. Yəni çatışmayan cəhətlər, nöqsanlar, əngəllər tənqid edilməli, açıq deyilməlidir. Buna görə də biz aprel ayının 25-də olduğu kimi, bu görüşümüzü də müəyyən mərhələlərə bölürük. Birinci hissədə, indi mənim çıxışımdan sonra məlumat veriləcəkdir. Ondan sonra bütün mətbuat nümayəndələrindən xahiş edəcəyik ki, onlar istirahətə çəkilsinlər, biz burada qapalı şəraitdə, mətbuat nümayəndələrinin və Azərbaycanın vəzifəli şəxslərinin iştirakı olmadan müzakirə aparaq. Ondan sonra isə bizim görüşümüzün son iclası olacaqdır. Onda xahiş edəcəyəm ki, mətbuat nümayəndələri də iştirak etsinlər.

Bu gün burada Azərbaycanın hökumət üzvlərindən, dövlət nümayəndələrindən yalnız bir neçə şəxs iştirak edir. Başqalarını buraya dəvət etməmişik. Çünki istəyirik ki, burada sərbəstlik olsun və daha çox xarici şirkətlərə yer verilsin və bundan biz faydalana bilək.

Bizim bu görüşümüzə Azərbaycanda təmsil olunan xarici ölkələrin səfirləri də gəliblər. Bilirəm ki, onlar öz ölkələrinin iş adamlarının Azərbaycanda daha da uğurla işləməsini istəyirlər. Biz də bunu istəyirik. Biz səfirlərlə vaxtaşırı görüşlər keçiririk. Onların verdikləri məlumatlardan istifadə edirik. Amma bu gün onların bizim bu görüşümüzdə iştirakını da mən çox əhəmiyyətli hesab edirəm.

Beləliklə, gəlin, görüşümüzün birinci hissəsini davam etdirək. Sözü Azərbaycanın iqtisadi inkişaf naziri Fərhad Əliyevə verirəm.



# İQTİSADİ İNKİŞAF NAZİRİ FƏRHAD ƏLİYEVİN ÇIXIŞI

— Möhtərəm cənab Prezident!

Xanımlar və cənablar!

Azərbaycan Respublikasının Prezidenti cənab Heydər Əliyevin şəxsi təşəbbüsü ilə bu ilin aprel ayının 25-də yerli sahibkarlarla keçirilmiş görüşü iş adamlarının dövlətə inamını gücləndirmiş, onları daha böyük nailiyyətlər əldə etməyə ruhlandırmışdır. Xarici iş adamları ilə keçirilən bugünkü görüş də, sərmayə mühitinin daha da yaxşılaşdırılmasına, sərmayələrin həcminin artmasına, beləliklə, ölkəmizin iqtisadi inkişafına müsbət təsir göstərəcəkdir.

Bugünkü tədbirdə xarici ölkələrin səfirləri, beynəlxalq təşkilatların nümayəndələri, iqtisadiyyatın müxtəlif sahələrində fəaliyyət göstərən 470 xarici iş adamı iştirak edir. Fürsətdən istifadə edərək, hazırlıq işlərinə yaxından kömək göstərdiklərinə görə xarici ölkələrin Azərbaycandakı səfirliklərinə, iş adamlarına, ictimai birliklərə dərin təşəkkürümü bildirirəm və onları əmin etmək istərdim ki, təqdim olunan təkliflər diqqətlə öyrəniləcəkdir.

Hörmətli görüş iştirakçıları!

Xarici sərmayələrin, müasir texnologiyaların və avadanlığın, idarəetmə təcrübəsinin ölkə iqtisadiyyatına cəlb edilməsi yolu ilə yüksək keyfiyyətli, rəqabət qabiliyyətli məhsulların istehsal olunması Azərbaycan Respublikası Prezidentinin müəyyən etdiyi iqtisadi inkişaf strategiyasının mühüm tərkib hissəsidir.

Məlum olduğu kimi, dövlət müstəqilliyini bərpa etdikdən sonra son dərəcə mürəkkəb hərbi-siyasi, sosial-iqtisadi problemlərlə qarşılaşmış ölkəmizdə Azərbaycan Respublikasının Prezidenti cənab Heydər Əliyevin başçılığı ilə aparılan qətiyyətli siyasət nəticəsində sabitlik bərqərar olmuş, müstəqil ölkəmizin ilk Konstitusiyası və digər zəruri qanunvericilik aktları qəbul edilmiş, demokratik təsisatlar şəbəkəsi formalaşmışdır. Bu gün tam inamla demək olar ki, dünyəvi, demokratik, müstəqil Azərbaycan dövləti qurulmuşdur və inkişaf etməkdədir.

Demokratik cəmiyyətin formalaşmasına yönəldilmiş tədbirlər ölkəmizin Avropa Şurasına qəbulu, NATO, Avropa Birliyi və digər

nüfuzlu beynəlxalq təşkilatlarla əməkdaşlığın qurulması ilə nəticələnmişdir.

Təsadüfi deyil ki, hazırda Azərbaycanda 42 siyasi partiya, 30 radio və televiziya, 500-dən artıq qəzet və jurnal, 1400-dən çox qeyri-hökumət təşkilatı fəaliyyət göstərir.

Həyata keçirilən məqsədyönlü iqtisadi islahatlar nəticəsində ölkədə bazar iqtisadiyyatına əsaslanan yeni iqtisadi münasibətlər formalaşmış, mülkiyyət çoxnövlüyü təmin edilmiş və azad rəqabət şəraiti yaradılmışdır. Bütün bunlar Azərbaycanda makroiqtisadi sabitliyin bərqərar olmasına, ümumi daxili məhsulun ardıcıl artımına, inflyasiyanın idarə edilən həddə saxlanmasına səbəb olmuşdur.

Ötən müddətdə respublikamızda sərmayəçilərin hüquq və mənafelərinin qorunması, mülkiyyətin toxunulmazlığı, yerli və xarici sahibkarlara eyni iş şəraitinin yaradılması, əldə edilmiş mənfəətdən maneəsiz istifadə olunması ilə bağlı əhəmiyyətli tədbirlər görülmüşdür. Bununla da xarici sərmayəçilərin, beynəlxalq maliyyə-iqtisadi təşkilatların Azərbaycana olan marağı artmışdır.

Hazırda bir çox beynəlxalq maliyyə-iqtisadi təşkilatlarla, o cümlədən Beynəlxalq Valyuta Fondu ilə və Dünya Bankı ilə müvəffəqiyyətlə əməkdaşlıq edilir. Bu günədək Azərbaycanda iqtisadi islahatların aparılmasına, makroiqtisadi sabitliyin dəstəklənməsinə Beynəlxalq Valyuta Fondu tərəfindən 435 milyon ABŞ dolları, struktur islahatlarının aparılmasına, təhsil, mədəniyyət, infrastruktur və digər sahələrdə müxtəlif layihələrin həyata keçirilməsinə Dünya Bankı tərəfindən 491 milyon ABŞ dolları həcmində yardım göstərilmişdir.

Azərbaycan Respublikasının xarici ölkələrlə ikitərəfli əməkdaşlığı da sürətlə inkişaf edir. Hazırda dünyanın 123 ölkəsi ilə ticarət əlaqələri qurulmuşdur. 30-dan çox ölkə ilə müxtəlif sahələrdə əməkdaşlığa dair 300-dən artıq ikitərəfli saziş imzalanmışdır.

Xarici iş adamlarının, sərmayələrin qorunmasının etibarlı mexanizmi kimi sərmayələrin qarşılıqlı qorunması, ikiqat vergitutmanın aradan qaldırılması ilə bağlı sazişlərin imzalanması işinin daha da intensivləşdirilməsi nəzərdə tutulmuşdur.

1994-cü ildə "Əsrin müqaviləsi" adlanan ilk neft müqaviləsi imzalandıqdan sonra xarici sərmayəçilərin Azərbaycana marağı artmış,



müqavilələrin və xidmət işləri ilə əlaqədar subkontraktların həyata keçirilməsinə 400-dən artıq xarici şirkət cəlb edilmişdir. Dövlət Neft Fondu yaradılmış, beynəlxalq neft və qaz kəmərlərinin çəkilməsi, Böyük İpək Yolunun bərpası, TRASEKA layihələri həyata keçirilməyə başlanmış, ölkənin sosial-iqtisadi inkişafı yeni mərhələyə qədəm qoymuşdur.

Beynəlxalq təşkilatlar, donor ölkələr Azərbaycan Respublikası Prezidentinin neft sənayesi ilə yanaşı, qeyri-neft sektorunun inkişafına yönəlmiş siyasətini dəstəkləyərək, yoxsulluğun azaldılması və iqtisadi inkişafın təmin edilməsi üzrə Dövlət Proqramının hazırlanmasına hərtərəfli yardım göstərirlər.

Azərbaycanda sərmayə imkanlarını daha da genişləndirmək məqsədi ilə Böyük Britaniyada, Amerikada, Almaniyada, Fransada, Türkiyədə, Yaponiyada və digər ölkələrdə çox əhəmiyyətli konfranslar və sərgilər keçirilmiş, bu da neft sektoru ilə bərabər, qeyri-neft sektorunun inkişafına müsbət təsir göstərməkdədir.

Proqnozlara görə, yaxın 3 ildə Azərbaycan iqtisadiyyatına müxtəlif mənbələr hesabına 10 milyard ABŞ dolları həcmində xarici sərmayə cəlb ediləcəkdir. Məlum olduğu kimi, Azərbaycan iqtisadiyyatına xarici sərmayələrin cəlb edilməsinin ən mühüm vasitələrindən biri özəlləşdirmə prosesidir. Azərbaycan Respublikası Prezidentinin sərəncamları ilə yeni sahələrin, o cümlədən xarici sərmayəçilər üçün xüsusilə cəlbedici olan metallurgiya, kimya, energetika, maşınqayırma, nəqliyyat, rabitə və digər sahələrdə fəaliyyət göstərən şirkətlərin özəlləşdirməyə açılması xarici sərmayə axınına güclü təkan vermişdir. Yeyinti, yüngül sənaye məhsullarının, inşaat materiallarının və digər məhsulların istehsalı ilə məşğul olan müəssisələrin xarici şirkətlər tərəfindən özəlləşdirilməsi, energetika, metallurgiya müəssisələrinin uzunmüddətli idarəetməyə verilməsi həyata keçirilən tədbirlərin uğurundan xəbər verir.

İndiyədək keçirilmiş sərmayə müsabiqələri nəticəsində qalib sərmayəçilər tərəfindən müvafiq şirkətlərə 200 milyon ABŞ dollarından çox vəsait qoyulmuşdur.

Azərbaycan Respublikasının dünya iqtisadi sisteminə inteqrasiyasında ölkəmizin Dünya Ticarət Təşkilatına üzv olması mühüm

əhəmiyyət kəsb etdiyindən bu istiqamətdə işlər ardıcıl olaraq davam etdirilir.

Hörmətli görüş iştirakçıları!

Sadalanan tədbirlərin həyata keçirilməsi nəticəsində 1995-2001-ci illər ərzində Azərbaycan iqtisadiyyatına 6,8 milyard ABŞ dolları həcmində xarici sərmayə cəlb edilmişdir. İlkin məlumatlara görə, 2002-ci ilin yanvar-mart aylarında iqtisadiyyata 360 milyon ABŞ dolları həcmində xarici sərmayə qoyulmuşdur ki, bu da 1993-cü il ərzində qoyulmuş xarici sərmayələrdən 12 dəfə, 1994-cü ildəki müvafiq göstəricidən isə 2,4 dəfə çoxdur.

2002-ci il aprelin 1-nə olan məlumata görə, Azərbaycanda 100 faiz xarici kapitalla işləyən 1946 şirkət, 955 müştərək şirkət qeydiyyatdan keçmişdir.

2001-ci ilin büdcə daxilolmalarında xarici sərmayəli şirkətlərin xüsusi çəkisi 19,7 faiz, 2002-ci ilin birinci rübündə isə 21,8 faiz təşkil etmişdir.

Sərmayə əməkdaşlığının genişləndirilməsi Azərbaycan Respublikasının xarici ölkələrlə ticarət əlaqələrinin inkişafına da müsbət təsir göstərmişdir. 2001-ci ilin yekunlarına görə, ixracın həcmi 2,3 milyard, idxalın həcmi 1,4 milyard, xarici ticarət balansının müsbət saldosu 900 milyon ABŞ dolları olmuşdur.

Möhtərəm cənab Prezident!

Qeyd olunan nailiyyətlərlə yanaşı, Azərbaycan Respublikasında xarici iş adamlarının fəaliyyəti sahəsində bir çox problemlər də mövcuddur.

Hazırda ölkə ərazisi üzrə xarici sərmayələrin qeyri-bərabər inkişafı davam edir. 2001-ci ilin nəticələrinə görə, mövcud xarici sərmayəli şirkətlərin 93 faizi Bakı şəhərində yerləşir. Qeyri-neft sektoruna yönəlmiş birbaşa xarici sərmayələrin xüsusi çəkisi aşağıdır. Qeyri-neft sektorundakı xarici sərmayəli şirkətlərin sahə strukturunda müəyyən müsbət meyllərə baxmayaraq, fəaliyyət göstərən şirkətlərin 67,2 faizi qeyri-istehsal sahələrində cəmləşmişdir.

Respublikaya gələn xarici şirkətlər bir çox hallarda kommersiya layihələrinə görə dövlət zəmanəti tələb edir və bu səbəbdən həmin layihələrin həyata keçirilməsi mümkün olmur.



Nəticə etibarilə, təkcə 2001-ci ildə 187 xarici sərmayəli şirkət fəaliyyətə başlamış, 47 şirkət isə Azərbaycan bazarını tərk etmişdir ki, bu da bazar iqtisadiyyatı qanunauyğunluqlarına xas olan təbii bir prosesdir.

Sərmayələrin sahələr və regionlar üzrə tarazlığının təmin edilməsi baxımından, regionlarda infrastruktur, ilk növbədə elektrik enerjisi, qaz, su ilə təminatın yaxşılaşdırılması, təşviq tədbirlərinin həyata keçirilməsi məqsədi ilə təkliflər hazırlanmaqdadır.

Bəzi sahələrdəki problemlərin həlli məqsədi ilə dövlət tərəfindən tənzimlənən qiymətlərə, xüsusilə istehsal prosesində istifadə olunan yanacaq, elektrik enerjisi, su və qazın, rabitə xidmətlərinin qiymətlərinə Azərbaycan Respublikası Prezidentinin qərarı ilə yaradılmış Tarif Şurasında baxılması nəzərdə tutulmuşdur.

Xüsusi ixrac zonalarının yaradılması, neft sahəsində olduğu kimi, iqtisadiyyatın digər sahələrində də xarici şirkətlərlə konsorsiumların təşkili, məhsulun pay bölgüsü üzrə sazişlərin imzalanması və bu sazişlərə qanun statusunun verilməsi də qeyri-neft sektorunda xarici sərmayələrin əhəmiyyətli dərəcədə artırılmasında səmərəli mexanizm ola bilər.

Mövcud qanunvericiliyə əsasən, Azərbaycan Respublikası vətəndaşlarının xarici ölkələrdə sahibkarlıq fəaliyyəti nəticəsində əldə etdikləri əmlak, pul və sair varidat sərmayə şəklində Azərbaycan Respublikasına gətirilərsə, bunlara xarici sərmayələr üçün nəzərdə tutulmuş qaydalar və təminatlar tətbiq olunmalıdır. Əgər bu qanun lazımi səviyyədə tətbiq olunarsa, iqtisadiyyata cəlb olunan vəsaitlərin həcminin daha çox artmasına müsbət təsir göstərər.

Bununla bərabər, Azərbaycan Respublikasında sərmayə imkanlarına həsr olunmuş yeni beynəlxalq konfransların keçirilməsi, sərmayə məlumat kitablarının nəşri, Azərbaycanın müxtəlif regionlarında həyata keçiriləcək layihələri özündə əks etdirən sərmayə xəritəsinin tərtib edilməsi ilə bağlı işlər görülür.

Sərmayə mühitinin daha da yaxşılaşdırılması baxımından xarici iş adamlarının təkliflərinin öyrənilməsi, idarəetmədə sərmayəçilərin təmsil etdikləri ölkələrin qabaqcıl təcrübəsinin tətbiqi, onların problemlərinin operativ şəkildə həlli mühüm əhəmiyyət kəsb edir. Bu

məqsədlə cənab Prezidentin tapşırığına əsasən, Xarici Sərmayəçilər Şurasının yaradılması ilə bağlı təklif hazırlanmışdır.

Möhtərəm cənab Prezident!

Sərmayələrin sahələr və regionlar üzrə qeyri-bərabər inkişafı həm qanunvericilik sahəsində mövcud olan boşluqlar, həm də idarəetmədə yaranan bəzi çatışmazlıqlarla bağlıdır. Dəvət olunmuş iş adamlarının öz çıxışlarında bu problemləri qaldıracağını nəzərə alaraq, onların üzərində ətraflı dayanmaq istəməzdim.

Bununla belə, deməк lazımdır ki, xarici iş adamları tərəfindən də qanunvericiliyin pozulması halları kifayət qədər geniş yayılmışdır. Belə ki, vergidən yayınma, gəlirlərin gizlədilməsi, qeyri-rəsmi əmək haqlarının verilməsi halları xarici şirkətlərdə tez-tez müşahidə olunur. Bəzi hallarda xeyriyyəçilik tədbirləri adı altında qanunsuz hərəkətlərə yol verilir, ölkənin milli, tarixi ənənələrinə zidd olan təbliğat aparılır.

Qeyd olunan problemlərə baxmayaraq, ölkə rəhbərinin Azərbaycanda əlverişli sərmayə mühitinin yaradılmasına yönəlmiş məqsədyönlü siyasəti öz nəticəsini verməkdədir.

Hazırda əhalinin hər nəfərinə düşən xarici sərmayənin həcminə görə Azərbaycan nəinki postsovet məkanında, hətta Şərqi Avropa ölkələri arasında ən qabaqcıl yerlərdən birini tutur. Təkcə 2001-ci ilin yekunlarına görə, ölkə iqtisadiyyatına və sosial sahələrə yönəldilən bütün sərmayələrin 70 faizini xarici sərmayə təşkil etmişdir.

İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatının, habelə Almaniyanın "Hermes" sığorta şirkətinin hesabatlarında Azərbaycana 6-cı risklilik dərəcəsi verilmişdir. Müqayisə üçün deyim ki, MDB dövlətləri arasında yalnız Rusiya və Qazaxıstan, qonşu ölkələrdən isə Türkiyə eyni risklilik dərəcəsinə malikdir.

Bank sektorunda həyata keçirilən islahatlar nəticəsində ölkəmizin bank reytinqi də yaxşılaşmışdır.

Möhtərəm cənab Prezident!

Xarici sərmayələrin cəlb edilməsi sahəsində əldə olunmuş nailiyyətlər Sizin uzaqgörən iqtisadi strategiyanızın bəhrəsidir. Tövsiyələrinizə uyğun olaraq, hazırda başlıca vəzifəmiz beynəlxalq təşkilatlarla, xarici ölkələrlə və şirkətlərlə əməkdaşlığın genişləndirilməsi



nəticəsində yaranan imkanları xalqımızın maddi rifahının daha da yaxşılaşmasına yönəltməkdən ibarətdir.

Sizi əmin etmək istərdim ki, bu vəzifənin layiqincə yerinə yetirilməsi üçün bütün qüvvə və bacarığımızı əsirgəməyəcəyik.

Diqqətinizə görə minnətdaram.

* * *

Sonra görüş qapalı şəkildə davam etdirildi. Beş saatdan çox davam edən görüşdə xarici sahibkarlar onları narahat edən məsələlər barədə fikirlərini söylədilər.

* * *

Fasilədən sonra görüş kütləvi informasiya nümayəndələrinin iştirakı ilə davam etdirildi.

Azərbaycan Prezidenti Heydər Əliyev görüşdə yekun nitqi söylədi.

# XARİCİ SAHİBKARLARLA GÖRÜŞDƏ AZƏRBAYCAN PREZİDENTİ HEYDƏR ƏLİYEVİN YEKUN NİTQİ

— Hörmətli xanımlar və cənablar!

Bu görüşə gəldiyinizə, bəyan etdiyiniz fikirlərə, təkliflərinizə, tənqidinizə görə sizə bir daha təşəkkür edirəm. Bildirmək istəyirəm ki, aprelin 25-də keçirdiyimiz görüş və bugünkü görüşümüz Azərbaycan iqtisadiyyatının problemlərini həll etmək, onun inkişafını təmin etmək üçün çox əhəmiyyətlidir. Əmin ola bilərsiniz ki, sizin irəli sürdüyünüz təkliflər, tənqidi fikirlər, göstərdiyiniz faktların hamısı, o cümlədən burada səslənməyən, ancaq yazılı şəkildə təqdim etdiyiniz təkliflər hamısı birlikdə çox diqqətlə təhlil olunacaq və Azərbaycanda iqtisadiyyatın, biznesin inkişafı üçün nəzərdə tutduğumuz gələcək tədbirlərimizdə onlardan istifadə ediləcəkdir.

Burada bildirilən fikirlər biznesin müxtəlif sahələrinə aiddir. Mən bu barədə danışmaq istəmirəm. Çünki bizim bu tədbirlərin forması bundan ibarətdir ki, biz qapalı görüşdə sizinlə açıq söhbət aparırıq və bunların nəticəsindən istifadə edəcəyik. İndi isə bizim bu görüşümüzə yekun vuraraq bildirmək istəyirəm ki, göstərilən **bütün nöqsanlara, qüsurlara baxmayaraq, Azərbaycanın iqtisadiyyatı son illər sürətlə inkişaf edir. Azərbaycanda iqtisadi islahatlar və onlardan əvvəl siyasi, hüquqi islahatlar uğurla həyata keçirilibdir. Biz çox işlər görmüşük və onların əməli nəticələrini müşahidə edirik.**

**İqtisadiyyatımızın son illərdə ardıcıl olaraq, ilbəil inkişaf etməsi məhz Azərbaycanda bazar iqtisadiyyatının həyata keçirilməsi üçün lazım olan tədbirlərin görülməsinin nəticəsidir.**

Biz 1990-cı illərin əvvəllərində dövlət müstəqilliyini əldə edəndə keçmiş sosialist sisteminin iqtisadiyyatına malik idik. Ağır bir şəraitdə dövlət müstəqilliyini qoruyub saxlaya bildik, Azərbaycanın iqtisadiyyatında mövcud olan dağıdıcı proseslərin qarşısını aldıq və tədricən iqtisadiyyatı inkişaf etdirməyə başladıq. O vaxt da biz bəyan etmişdik ki, Azərbaycanda iqtisadiyyatın inkişafını təmin etmək üçün xarici sərmayənin cəlb olunması, iqtisadi cəhətdən inkişaf etmiş ölkələrin təcrübəsindən istifadə edilməsi, ticarətin liberallaşdırılması əsas şərtlərdən biridir.



Biz bu yol ilə getdik. Məlumdur ki, 1994-cü ildən başlayaraq Azərbaycanda yeni neft strategiyasının həyata keçirilməsi ölkəmizin iqtisadiyyatının inkişafında xüsusi rol oynayır. Biz 1994-cü ildə ilk müqaviləni — "Əsrin müqaviləsi"ni imzalayanda buna inanırdıq, gələcəyə çox böyük ümidlə baxırdıq. Ancaq o müqavilənin nə qədər ağır və çətin şəraitdə imzalanmasını və sonra onun Azərbaycanda həyata keçirilməsi üçün müxtəlif maneələrin olmasını nəzərə alsaq, aydın olar ki, biz nə qədər ağır və çətin bir yol keçmişik. Ancaq bu yolu keçmişik və bunun müsbət nəticələri göz qabağındadır. İndi artıq Azərbaycanda neft sektorunda böyük layihələr həyata keçirmişik və həyata keçiririk. Pay bölgüsünə aid 21 müqavilə imzalanıbdır. Onların bir çoxu artıq öz nəticələrini verir.

Burada bildirildi ki, neft sahəsində müqavilələrin həyata keçirilməsində 400 xarici şirkət iştirak edir. Bu, təkcə neft sahəsinə yox, ona xidmət edən bütün başqa sahələrə xarici sərmayənin və şirkətlərin cəlb olunmasının əyani nümunəsidir.

Bakı-Tbilisi-Ceyhan əsas neft ixrac kəməri, Bakı-Tbilisi-Ərzurum qaz kəməri artıq reallığa çevrilmişdir. Hörmətli cənab Vudvord burada bildirdi ki, bu ilin sonuna kimi Bakı-Tbilisi-Ceyhan boru xəttinin inşasına başlanacaqdır. Gələn il Bakı-Tbilisi-Ərzurum qaz xəttinin inşasına başlanacaqdır. Ancaq təkcə bunlar deyil, bizim başqa böyük layihələrimiz də var. Amma bunlarla yanaşı, biz daim çalışmışıq ki, qeyri-neft sektoruna da xarici sərmayə cəlb olunsun və xarici ölkələrin şirkətləri həm müstəqil şəkildə, həm də Azərbaycan şirkətləri ilə bərabər ölkəmizdə iş görsünlər və biz respublikamızın iqtisadiyyatının bütün sahələrini inkişaf etdirə biləк. Cəhdlərimiz çoxdur, nailiyyətlərimiz də var. Ancaq istədiyimizin çoxuna hələ nail olmamışıq. Bu yolda çətinliklər də var. Bunlar həm bizim üçün olan çətinliklərdir, həm də xarici sərmayəçilər üçün, xarici ölkələrin iş adamları, xarici şirkətlər üçün olan çətinliklərdir. Ona görə də aprel ayının 25-də keçirilmiş görüşün, bu gün keçirilən görüşün nəticələrinə əsasən biz böyük tədbirlər planı hazırlayırıq. Bir çox fərmanların layihələri hazırlanır. Hakimiyyət orqanlarının nümayəndələri ilə də görüş keçiriləcəkdir.

Ümidvaram ki, mövcud olan nöqsanların çoxunun aradan qaldırılması üçün lazımi tədbirlər görmək mümkün olacaqdır.

Sizin burada dediyiniz və bizə məlum olan, xarici biznesmenlərin iş görməsinə əngəl törədən problemlər, çətinliklər bir çox qrupa bölünür. Bunların bir hissəsi Azərbaycanda qanunvericiliyin təkmilləşdirilməsi ilə əlaqədardır.

Ancaq mən bu gün sizləri dinləyərək və özüm də müəyyən qədər daxilən təhlil edərək düşünürəm ki, biz bir çox qanunlar qəbul etmişik. Bəzən bir qanun o biri qanunun bir hissəsinə mane olur. Bir qanun o birini təkrarlayır. Bəlkə də qanunlar çox olduğuna görə onların icrasını təmin etmək də çox çətin olur. Amma bu o demək deyildir ki, bundan sonra qanunlar qəbul edilməməlidir. Qanunlar qəbul olunacaqdır. Lazım olan qanunlar qəbul ediləcəkdir. Əmin edirəm ki, qanunların hamısının məzmunu Azərbaycanda özəl sektorun, biznesin inkişafını təmin etmək, xarici sərmayəni Azərbaycana cəlb etmək məqsədi daşıyacaqdır. Buna görə də **qanunvericiliyin təkmilləşdirilməsi, – bu görüşlərdən mən nəticə çıxarıram, – bizim qarşımızda duran məsələlərdən biridir.**

Vergi haqqında burada hamı danışdı. Vergidən heç kəs məmnun deyildir. Hər bir iş adamı arzu edərdi ki, vergi olmasın, yaxud da vergi çox az olsun. İş adamı iş görməlidir, qazanc götürməlidir. Lakin dövlət, ölkə də yaşamalıdır. Vergilər toplanmalıdır. Amma **bugünkü danışıqlardan sonra, görünür ki, biz vergilər haqqında da düşünməliyik, lazımi təbirlər görməliyik.**

Burada iş adamlarına mane olan çox misallar gətirildi. Həm Vergilər Nazirliyi və onun orqanları, həm Gömrük Komitəsi və onun bütün orqanları... Bəlkə siz bu gün demədiniz, yaxud da az dediniz. Özəl sektora müdaxilə, bizim ayrı-ayrı orqanlar tərəfindən onların yoxlanılması və beləliklə, onların işlərinin pozulması faktları da bizə məlumdur. Hüquq-mühafizə orqanları əməkdaşlarının vəzifələrindən sui-istifadə etməsi təkcə iş adamlarına deyil, bir çox sahələrdə biznesin də inkişafına çox mane olur.

Lisenziyalar haqqında çox danışıldı. Bu barədə biz düşünürük. Ancaq ötən görüşdə və bugünkü görüşdə söylənən fikirlər tələb edir ki, **lisenziya sistemini köklü surətdə təkmilləşdirmək lazımdır. Lisenziyalar çoxdur. Onları verən orqanlar çoxdur. Burada deyildi ki, lisenziyanı çox hallarda rüşvətsiz vermirlər. Deməli, bunların**



**qarşısı alınmalıdır. Yenə deyirəm, lisenziya sistemi tamamilə təkmilləşdirilməlidir.**

Rüşvətxorluq, korrupsiya haqqında da fikirlər söyləndi. Ümumiyyətlə, biz bilirik, həm biznes sahəsində, həm iqtisadiyyatda, həm də həyatımızın başqa sahələrində belə hallar var. Bunlarla mübarizə aparırıq və bundan sonra da aparacağıq. Güman edirəm ki, bizim bu iki görüş nəticəsində görəcəyimiz tədbirlərdə məhz rüşvətxorluqla mübarizə xüsusi yer tutmalıdır.

Burada bir çox başqa problemlər haqqında da danışıldı. Hamısı nəzərə alınacaqdır. Əgər neft sektorunu kənara qoysaq, Azərbaycanda özəl sektor yaranandan indiyə qədər xarici şirkətlər, əsasən, ticarət, xidmət, iaşə, bir az da nəqliyyat sahəsindədir. Bu sahələrə ilk illərdə, əsasən, xarici şirkətlər cəlb olunublar, yaxud da onlar maraq göstəriblər. Ya özləri, ya da yerli şirkətlərlə birlikdə çox işlər görüblər. Bu işlər öz nəticəsini verir. Bir tərəfdən, bizim iqtisadi islahatları, özəlləşdirmə proqramını həyata keçirməyimiz, digər tərəfdən, xarici ölkələrin şirkətlərinin Azərbaycanda ticarət, xidmət, iaşə və s. sahələrdə çox işlər görməsi, demək olar ki, bu sahələri lazımi səviyyəyə qaldırıbdır. İndi Azərbaycanda ticarət, demək olar, tamamilə özəl sektora məxsusdur. Çox məmnunedici haldır ki, özəl sektor da ticarəti yaxşı inkişaf etdiribdir. Bizdə indi gözəl ticarət şəbəkələri, mağazaları, müəssisələri yaranıbdır. Dünyanın bir çox ölkələrindən müxtəlif çeşidli mallar gətirilir. Azərbaycan bazarı tamamilə doludur, bu barədə heç bir problem yoxdur.

Siz bəlkə də bir o qədər demədiniz ki, xaricdən mal gətirən və burada ticarətlə məşğul olan hər bir iş adamı böyük çətinliklərlə rastlaşır. Amma biz bunu bilirik. Ancaq görün ki, bizim iş adamları, təkcə bizim yox, Azərbaycana gələn xarici ölkələrin iş adamları nə qədər inadla iş görmək istəyirlər ki, bütün bu manеələrdən, bürokratik əngəllərdən keçərək, harada onlardan rüşvət tələb edirlərsə, o rüşvətləri verərək Azərbaycanda ticarəti inkişaf etdiriblər. Hesab edirəm ki, bu bizim əsas nailiyyətlərimizdən biridir.

İndi inşaat sahəsində biznes inkişaf edir. Geniş miqyasda inşaat işləri gedir. Ümumiyyətlə, Azərbaycanda, ölkəmizin bütün bölgələrində sürətlə inşaat işləri gedir. Bu da şəxsi evlərin tikilməsidir.

Müxtəlif bölgələrdə insanlar özləri üçün şəxsi evlər tikirlər. Kənd yerlərində çox, deyə bilərəm ki, müasir tələblərə uyğun fərdi evlər tikilir. Bakı şəhərində də müasir tələblərə cavab verən çox binalar, yaşayış evləri tikilir. Bunlar müsbət haldır. Biz bunları dəstəkləyirik. Hesab edirəm ki, bizim iş adamları bu sahədə daha uğurlu işlər görəcəklər.

Başqa xidmət sahələrində də xarici və yerli şirkətlər çox iş görüblər və görürlər. Bu gün burada sərgiyə baxdıq. Sərgidə təqdim olunan mallar, əsasən, həmin şirkətlərin istehsal etdikləri məhsullardır. Ancaq indi Azərbaycanın yerli iş adamları 6-7 il bundan əvvəlki səviyyədə deyillər. Onlar xarici şirkətlərlə birgə iş görərək, xarici ölkələrin təcrübəsindən istifadə edərək artıq müasir səviyyədə işləyə bilirlər. Ona görə də yerli biznes genişlənibdir. Bəlkə bu səbəbdən də inşaat, yaxud da ticarət, iaşə sahəsində xarici şirkətlər azalıbdır. Bu, təbii prosesdir. Çünki yerli sahibkarlıq artıq inkişaf edibdir.

Biz istəyirik ki, xarici sərmayə vasitəsilə, xarici şirkətlər vasitəsilə Azərbaycanda yerli sahibkarlığı, yerli biznesi inkişaf etdirək. Ancaq indi qeyri-neft sektoru haqqında danışanda, xarici sərmayənin cəlb olunması və yerli sərmayədən istifadə olunması vasitəsilə onun inkişafını təmin etmək haqqında danışanda, birinci növbədə istehsal sahəsini nəzərdə tuturuq. Açıq demək lazımdır ki, bizdə neft sektorundan kənarda biznesin istehsal sahəsi çox azdır. Xaricdən gələn şirkətlər bu sahəyə az sərmayə qoyublar, az fəaliyyət göstəriblər, bu sahəyə o qədər də böyük maraq göstərməyiblər. Həm də bizim yerli iş adamları daha çox ticarətlə, indi inşaatla, iaşə, xidmət və başqa sahələrlə məşğuldurlar. Ancaq **istehsal müəssisələri yaratmaq, yerli istehsalı inkişaf etdirmək və bunun nəticəsində yeni iş yerləri açmaq indi bizim bazar iqtisadiyyatında, özəl sektorda əsas vəzifələrimizdir.** Mən arzu edərdim ki, Azərbaycana maraq göstərən xarici şirkətlər indi qeyri-neft sektorunda daha çox istehsal sahəsi ilə məşğul olsunlar. Azərbaycanda bu barədə imkanlar çoxdur. Burada deyildi ki, bir çox sənaye müəssisələri özəlləşdiriləcəkdir. Bizdə çoxlu maşınqayırma zavodları, metallurgiya sənayesi, kimya sənayesi var. Azərbaycanda kənd təsərrüfatı məhsullarının emalı üçün çox gözəl sənaye müəssisələri yaratmaq olar. Mən istəyirəm ki, bunlara xarici sərmayə daha çox cəlb olunsun. Xarici ölkələrin şirkətləri bu sahəyə daha da çox maraq göstərsinlər.

Azərbaycanda kənd təsərrüfatı tamamilə özəlləşibdir. Bu da çox yaxşı nəticələr verir. Kənd təsərrüfatı məhsullarının istehsalı ilbəil artır. Azərbaycan bir çox ərzaq məhsulları ilə özünü təmin edə bilir. Bilirsiniz ki, bazarlarda Azərbaycanda istehsal olunan həddindən çox ərzaq məhsulları var. Ançaq bu məhsulların emal edilməsi hələ ki, çox zəifdir. Mən bu sahəyə də xarici sərmayəçilərin cəlb olunmasını istərdim.

Burada bizim rabitə sahəsindəki nöqsanlardan danışıldı. Mən deyilən tənqidlərlə tamamilə razıyam. Demək olar ki, bizim bütün sahələrdə görülən işlərimiz az da, çox da olsa, lazımi səviyyədə gedir. Ançaq təəssüflər olsun ki, bu sahədə hələ ki, lazımi iş görə bilməmişik. Guman edirəm ki, biz yaxın vaxtlarda bununla ciddi məşğul olmalıyıq.

Bu görüşlərin nəticəsi ilə əlaqədar biz Azərbaycanın dövlət hakimiyyət orqanlarının vəzifələri haqqında gələcək görüşümüzdə ətraflı danışacağıq. Ançaq mən indi sizi əmin etmək istəyirəm ki, dediyiniz tənqidlə tamamilə razıyam. Sizin irəli sürdüyünüz təkliflərin çoxu əhəmiyyətlidir və onlar nəzərə alınacaqdır. Bu görüşlərdən sonra Azərbaycanda yerli sahibkarlığın, ümumiyyətlə, biznesin inkişafı üçün daha yaxşı şərait yaradılacaqdır.

Bazar iqtisadiyyatına keçid ağır, çətin prosesdir. Biz bu prosesin iştirakçılarıyıq, onun çətinliyini hamı bilməlidir.

Təbiidir, biz istəyirik ki, Azərbaycanda demokratik, hüquqi, dünyəvi dövlət quraraq bütün sahələri inkişaf etmiş ölkələrin, Avropa ölkələrinin standartları səviyyəsinə çatdıraq. İnanın, biz bunu istəyirik. Biz buna doğru gedirik. Bütün tədbirlərimiz də məhz bu istiqamətə yönəlibdir. Ancaq siz də bilməlisiniz və ümumiyyətlə, ölkədən kənarda da hamı bilməlidir ki, bu ağır və çətin bir prosesdir.

Keçmiş Sovetlər İttifaqına məxsus olan ölkələrin hamısında bu proses gedir. Amma çətin gedir, ağır gedir. Mən Azərbaycanın nailiyyətlərini şişirtmək istəmirəm. Ancaq Beynəlxalq Valyuta Fondunun və Dünya Bankının araşdırmalarına görə, bir çox sahələrdə Azərbaycanın göstəriciləri Müstəqil Dövlətlər Birliyinə daxil olan başqa

ölkələrin göstəricilərindən üstündür. Ancaq onlar bizi də qane etmir, sizi də. Biz çalışırıq və bundan sonra da çalışacağıq ki, inkişaf etmiş ölkələrin səviyyəsinə çatmaq üçün Azərbaycanda tərəqqi daha da sürətləndirilsin. Ancaq bilmək lazımdır: bunların hamısını bir gündə, bir ayda, bir ildə etmək mümkün deyildir. Buna həm zaman lazımdır, həm də iradə, inam lazımdır. Zaman bizdən asılı deyildir. Ancaq iradə, inam özümüzdən asılıdır. Hamı bilməlidir ki, Azərbaycan dövlətində, Azərbaycan hakimiyyətində bu iradə, bu inam var. Bu iradə ilə, bu inamla da biz bütün işlərimizi görürük. Bəzən bizim ölkəmizi inkişaf etmiş dövlətlərlə müqayisə edirlər. Orada korrupsiya bu qədərdir, sizdə bu qədərdir... Birincisi, mən bildirmək istəyirəm ki, harada nə qədər korrupsiya olduğunu heç kim bilmir. Korrupsiyanın bir üzdə olan tərəfi var, bir də altda. Özü də heç yerdə bir ölçü yoxdur ki, biləsən korrupsiya harada hansı dərəcədədir. Ancaq təbiidir ki, iqtisadi cəhətdən inkişaf etmiş ölkələrdə, demokratiya sahəsində inkişaf etmiş ölkələrdə korrupsiya azdır. Mən heç də deyə bilmərəm ki, yoxdur. Ancaq keçid dövrünü yaşayan ölkələrdə — bir ölkədə o birindən çox, digərində o birindən az korrupsiya vardır. Korrupsiyanı inkar etmək mümkün deyildir. Korrupsiya ilə mübarizə etmək lazımdır. Mübarizə də Azərbaycanda gedir və gedəcəkdir. Buna heç kəsin şübhəsi olmasın. Bizim iqtisadi tədbirlərimizin də çoxu, – əgər onları yaxşı həyata keçirə bilsək, – məhz korrupsiyanın qarşısını ala biləcəkdir. Başqa vasitələrdən də istifadə olunacaqdır. Bunu hamı bilməlidir.

Mən hesab edirəm ki, burada çalışan iş adamları Azərbaycanın nailiyyətlərini öz ölkələrində təbliğ etməlidirlər. **Bizim nöqsanlarımızı burada deyin, Azərbaycanda deyin, bizə deyin. Amma öz ölkənizdə deməyin. Nailiyyətlərimizi isə öz ölkənizdə təbliğ edin.** Lazımdır ki, bizimlə iş görən adamlar Azərbaycanda biznes şəraitinin nöqsanları haqqında öz ölkələrində çox geniş söhbət aparmasınlar. Əksinə, təbliğ etmək lazımdır ki, sərmayəçilər Azərbaycana gəlsinlər. Biz də bütün bu tədbirlərimizlə nöqsanları aradan qaldırmağa çalışırıq. Sizinlə birlikdə bu nöqsanları aradan qaldırmalıyıq. Əgər siz olmasaydınız, xarici biznes Azərbaycanda olmasaydı, bu problemlər də olmazdı. Bu problemlər var, bu bizim ümumi işimizin nəticəsidir. Demək, bu problemləri biz həll etməliyik.



Problemlərin həll edilməsi üçün də, təbiidir ki, bir tərəfdən, səylərimizi artırmalıyıq, digər tərəfdən bizə zaman lazımdır. Məsələn, neft sektorunda bizim apardığımız işləri görürsünüz. Böyük problemlər yoxdur. Mən orada korrupsiyanı da görməmişəm, hiss etməmişəm. Başqa mənfi hallar da orada yoxdur, bəlkə də azdır. Mən bunu xarici neft şirkətləri ilə və yaxud da müqavilələrin həyata keçirilməsinə cəlb olunmuş şirkətlərlə işin timsalında bildirmək istəyirəm. Bunlar çox böyük, formalaşmış şirkətlərdir. Onlar öz təcrübələrini Azərbaycana gətiriblər. Bu sahədə biz müsbət mənzərəni görürük.

Ancaq digər sahələrdə mənzərə bundan fərqlidir. Əksər hallarda mənfiliyinə görə fərqlidir. Bunlar bizim problemlərimizdir. Biz bunları həll etməliyik və inana bilərsiniz ki, həll edəcəyik. Arzumuz ondan ibarətdir ki, əməkdaşlıq etdiyimiz hər bir ölkədə Azərbaycanda bugünkü biznes şəraiti haqqında, ölkəmizin daxili ictimai-siyasi vəziyyəti haqqında doğru-düzgün, obyektiv məlumat verilsin. Təəssüflər olsun ki, xırda faktlardan çox böyük fikirlər yaradırlar. Bu da bizə lazım deyildir. Biz özümüz sizinlə birlikdə nöqsanlarımızı yaxşı bilirik. Bu iki görüş Azərbaycan Prezidenti kimi şəxsən mənə çox şeyləri məlum etdi. Bir də deyirəm, ona görə də mən bu görüşlərdən məmnun oldum.

**Mövcud nöqsanları biz birgə aradan qaldırmalıyıq. Biz Azərbaycanda biznes mühitini daha da sağlam etməliyik, şəffaflığı təmin etməliyik. Bütün bürokratik əngəlləri aradan qaldırmalıyıq, hamımız bir yerdə korrupsiya ilə ciddi mübarizə aparmalıyıq.** Təbiidir ki, biz hakimiyyət olaraq bunları etməliyik. Bizimlə əməkdaşlıq edən hər bir qurum, təşkilat, hər bir firma da bizə yardım etməlidir, bizimlə bərabər mübarizə aparmalıdır. Bəzi hallar var ki, onlarla bəlkə də bir gün yox, bir ay yox, bir il yox, uzun müddət mübarizə aparmaq lazımdır. İnsanlar bəzi mənfi hərəkətlərə öyrəniblər. Onların çoxu artıq başqa cür işləyə bilmir. Ona görə də insanların bu psixologiyasını dəyişmək üçün biz hələ çox iş görməliyik. Ancaq mən inanıram ki, biz bu işləri görməyə qadirik, bu işləri görürük və görəcəyik.

Azərbaycanın Prezidenti kimi mən onu bildirmək istəyirəm ki, ölkəmizdə biznesin və o cümlədən xarici biznesin inkişafını Azər-

baycanın iqtisadiyyatını təmin edən əsas amillərdən biri kimi görürəm.

**Biznes indi iqtisadiyyatın aparıcı qüvvəsidir. Ona görə də mən bu sahəyə daim diqqət yetirmişəm, yetirirəm və bundan sonra da yetirəcəyəm. Hər bir iş adamı,-xarici ölkədən gəlmiş, yaxud Azərbaycan vətəndaşı, — bilsin ki, Azərbaycanın Prezidenti kimi mən onun sağlam iş görməsinin himayədarıyam. Bu himayədarlığı daim edəcəyəm. Hər bir iş adamına, sağlam iş görən iş adamına mənim daim qayğım olacaqdır.** Hər bir iş adamının iş görməsi üçün şəraitin yaxşılaşdırılmasını özümün əsas vəzifələrimdən biri hesab edirəm.

**Əmin ola bilərsiniz ki, mənim bu siyasətim, bu əməli fəaliyyətim bundan sonra da davam edəcəkdir. Mən Azərbaycanın gələcək inkişafını, gələcəyini demokratiyanın inkişafında görürəm. Azərbaycanın inkişafını bazar iqtisadiyyatının inkişafında görürəm. Bu istiqamətdə indiyə qədər gördüyümüz işləri davam etdirəcəyik və daha da sürətlə irəliyə gedəcəyik.**

Mən sizin hamınıza bu görüşə görə bir daha təşəkkür edirəm. Hər birinizə cansağlığı, işlərinizdə uğurlar arzulayıram.

Sağ olun.

**14 may 2002-ci il.**



## Azərbaycan Respublikasında kiçik və orta sahibkarlığın inkişafının Dövlət proqramının (2002-2005-ci illər) təsdiq edilməsi haqqında AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN

# FƏRMANI

Ölkə iqtisadiyyatında özəl bölmənin inkişafını sürətləndirmək, bu sahəyə investisiyaların cəlb olunmasını həvəsləndirmək, kiçik və orta sahibkarlığa dövlət köməyinin səmərəliliyini artırmaq məqsədilə qərara alıram:

1. "Azərbaycan Respublikasında kiçik və orta sahibkarlığın inkişafının Dövlət proqramı (2002-2005-ci illər)" təsdiq edilsin (əlavə olunur).

2. Dövlət Proqramının baş icraçısı Azərbaycan Respublikasının İqtisadi İnkişaf Nazirliyi müəyyən edilsin.

3. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi Dövlət Proqramında nəzərdə tutulan tədbirlərin həyata keçirilməsi məqsədilə hər ilin dövlət büdcəsinin layihəsində müvafiq vəsaitin ayrılmasını təmin etsin.

4. Azərbaycan Respublikasının Nazirlər Kabineti Dövlət Proqramının icrasını təmin edən müvafiq qərarlar qəbul etsin.

5. Bu Fərman dərc olunduğu gündən qüvvəyə minir.

**Heydər ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**

**Bakı şəhəri, 17 avqust 2002-ci il.**

**Azərbaycan Respublikası Prezidentinin 2002-ci il 17 avqust tarixli Fərmanı ilə təsdiq edilmişdir**

# AZƏRBAYCAN RESPUBLİKASINDA KİÇİK VƏ ORTA SAHİBKARLIĞIN İNKİŞAFININ DÖVLƏT PROQRAMI (2002-2005-ci illər)

"Azərbaycan Respublikasında kiçik və orta sahibkarlığa Dövlət Köməyi Proqramı"nda (1997-2000-ci illər) müəyyən edilmiş vəzifələr əsasən yerinə yetirilmişdir. Ölkəmizdə kiçik və orta sahibkarlığın (bundan sonra-KOS) hüquqi bazası inkişaf etdirilmiş, sahibkarlığın tənzimlənməsi sahəsində əhəmiyyətli irəliləyişlər olmuşdur. KOS-lara təhsil, informasiya və məsləhət xidmətləri göstərən strukturlar genişlənmiş və onların fəaliyyəti güclənmişdir. KOS-lara maliyyə köməyi mexanizmlərinin formalaşması, sahibkarlar üçün vergi yükünün azaldılması, vergi sisteminin stimullaşdırıcı rolunun gücləndirilməsi istiqamətində zəruri addımlar atılmışdır. Sahibkarların hüquqlarının və qanuni mənafelərinin qorunması mexanizmlərinin formalaşması sahəsində məqsədli tədbirlər görülmüşdür. Sahibkarlıq fəaliyyətində qanunsuz müdaxilələrin qarşısını almaq və əsassız yoxlamaları aradan qaldırmaq məqsədilə "Nəzarət kitabçası"nın tətbiqinə başlanılmışdır. KOS-ların regional infrastrukturlarının fəaliyyəti genişlənmişdir. Sahibkarların ictimai və peşə biliklərinin formalaşması istiqamətində əhəmiyyətli nəticələr qazanılmışdır. KOS-ların inkişafı sahəsində beynəlxalq, regional və xarici dövlətlərin milli təşkilatları ilə əməkdaşlıq əlaqələri genişlənmişdir.

Dövlət əmlakının özəlləşdirilməsi və KOS-ların inkişafı sahəsində həyata keçirilən dövlət köməyi tədbirləri nəticəsində özəl sektor ölkə iqtisadiyyatında payına görə hakim mövqeyə yiyələnmişdir. 2001-ci ilin yekunlarına görə ümumi daxili məhsulda qeyri-dövlət sektorunun payı 71,0 faiz təşkil etmişdir. Sənaye istehsalının 48,3 faizi, kənd təsərrüfatı istehsalının 99,0 faizi, tikinti işlərinin 76,1 faizi, daxili əmtəə dövriyyəsinin 98,4 faizi, əhaliyə göstərilən pullu xidmətlərin 62,5 faizi, sərnişin daşınmasının 83,9 faizi, xarici ticarət dövriyyəsinin 59,0



faizi, ixracın 52,6 faizi, idxalın 69,0 faizi özəl bölmənin payına düşmüşdür. Dövlət büdcəsinin gəlirlərinin 39,6 faizi qeyri-dövlət sektorundan daxilolmalar hesabına formalaşmışdır. Ölkə üzrə əhalinin ümumi məşğulluğunda qeyri-dövlət bölməsinin payı 70,0 faiz təşkil edir. 2001-ci ilin yekunlarına görə, dövlət qeydiyyatından keçmiş qeyri-dövlət bölməsinə aid olan hüquqi şəxs statuslu təsərrüfat-maliyyə strukturlarının sayı 58,6 mini keçmişdir. Bunun 80,1 faizi kiçik və orta müəssisələrdir. Orta hesabla əhalinin hər 10 min nəfərinə dövlət qeydiyyatından keçmiş 58 kiçik müəssisə düşür. Son 5 ildə KOS-un ümumi daxili məhsulda payı 24,7 faizdən 42,7 faizə çatmışdır.

Bununla yanaşı, ölkəmizdə formalaşmış siyasi və makroiqtisadi sabitliyin yaratdığı imkanlardan KOS-ların inkişafının sürətləndirilməsi məqsədləri üçün tam istifadə olunmamışdır. Sahibkarlıq fəaliyyəti ilə məşğul olanların sayı mövcud imkanlardan azdır. Özəl sektorun ölkə iqtisadiyyatında xüsusi çəkisi yüksəlsə də, bu bölmədə hələlik strateji cəhətdən mühüm olan, struktur formalaşdırıcı potensiala malik müəssisələr zəif inkişaf edir. KOS sektorunun ölkənin ixrac potensialının gücləndirilməsinə və strukturunun təkmilləşdirilməsinə təsiri məhduddur. Sahibkarlığın regional inkişafının hazırkı səviyyəsi ölkənin mövcud potensialına uyğun gəlmir. Belə ki, indi KOS müəssisələrinin 70 faizi Bakı şəhəri və onun ətrafında cəmləşmişdir. Daxili istehsalçılar arasında əlaqələr zəif inkişaf edir və KOS-larla iri müəssisələrin kooperasiyası və inteqrasiyası zəruri səviyyəyə çatmamışdır.

KOS-un inkişafının sürətləndirilməsi, bu sektorun səmərəli bazar iqtisadiyyatı sisteminin formalaşmasında və beynəlxalq iqtisadi mühitə uyğunlaşmasında, ölkənin iqtisadi və sosial problemlərinin həllində rolunun gücləndirilməsi Azərbaycan dövlətinin iqtisadi siyasətinin öncül istiqamətlərindən birini təşkil edir. Bu məqsədlə KOS sektorunun inkişafına dövlət köməyi tədbirlərinin çərçivəsi genişləndirilir və onların ünvanlılığı gücləndirilir.

**Proqramın məqsədi**

Proqramın məqsədi Azərbaycan Respublikasında sahibkarlıq fəaliyyətinin tənzimlənməsi sisteminin təkmilləşdirilməsi, KOS-un insan resursunun inkişafı, texniki, maliyyə köməyi mexanizmlərinin dərinləşdirilməsi, sahibkarlığın hüquqi təminatının gücləndirilməsi və regionlarda sahibkarlığın inkişafına əlverişli şəraitin yaradılması əsasında KOS-un inkişafını təmin etməkdir.

**Proqramın qanunvericilik bazası**

Proqram Azərbaycan Respublikasının Konstitusiyasına, Azərbaycan Respublikasının Mülki Məcəlləsinə, "Sahibkarlıq fəaliyyəti haqqında" və "Kiçik sahibkarlığa dövlət köməyi haqqında" Azərbaycan Respublikasının qanunlarına və digər qanunvericilik aktlarına uyğun hazırlanmışdır.

**Proqramın vəzifələri**

Proqramın məqsədlərinin həyata keçirilməsi üçün aşağıdakı vəzifələrin həlli nəzərdə tutulur:

— sahibkarlıq fəaliyyətinin dövlət qeydiyyatının, lisenziyalaşdırılmasının və KOS məhsullarının sertifikatlaşdırılması qaydalarının təkmilləşdirilməsi;

— müasir informasiya texnologiyasının geniş tətbiqi əsasında KOS-ların bilgi (informasiya) təminatının yaxşılaşdırılması;

— gənclərin sahibkarlıq fəaliyyətinə hazırlanması sisteminin formalaşması;

— KOS-ların beynəlxalq işgüzar əlaqələrinin yaradılmasına və genişləndirilməsinə kömək göstərilməsi;

— KOS-ların rəqabət qabiliyyətli ixrac məhsullarının istehsalı üçün texniki, maddi və maliyyə köməyi mexanizmlərinin hazırlanması;

— KOS-ların istehsal yönümlü fəaliyyətinə maliyyə-kredit və investisiya köməyi mexanizmlərinin genişləndirilməsi;

— sahibkarlığın regional inkişafının təmin edilməsi;

— daxili istehsalçılar arasında koorporasiya əlaqələrinin inkişafının stimullaşdırılması;

— KOS sferasında texnoloji inkişafın dəstəklənməsi;

— sahibkarların hüquqlarının müdafiəsi sisteminin inkişaf etdirilməsi.

**Proqramın maliyyə təminatı**

Proqramın maliyyələşdirilməsinin əsas mənbələri aşağıdakılardır:

— nəzərdə tutulmuş dövlət büdcə təsisatları üzrə ayırmalar;

— Sahibkarlığa Kömək Milli Fondunun vəsaiti;

— əhalinin məşğulluğu üzrə dövlət vəsaiti;

— bələdiyyələrin vəsaitləri;



— beynəlxalq və xarici ölkə təşkilatlarının texniki və maliyyə köməyi;

— məqsədli layihələr;

— xarici investisiyalar;

— əhalidən könüllü daxil olan vəsaitlər.

**Gözlənilən nəticələr**

— ölkə əhalisinin sahibkarlıq fəaliyyətinə cəlb edilməsi çərçivəsinin genişləndirilməsi;

— sahibkarlıq fəaliyyətinin struktur, regional və texnoloji baxımdan təkmilləşdirilməsi;

— ölkə iqtisadiyyatının strukturunun yenidən qurulmasında, rəqabət potensialının artırılmasında və iqtisadi qloballaşma şəraitinə uyğunlaşmasında KOS-ların rolunun gücləndirilməsi;

— Azərbaycan cəmiyyətinin sosial problemlərinin həllində KOS-ların fəaliyyətinin yüksəldilməsi;

— istehsal sferasında yeni iş yerlərinin yaradılması, əhalinin məşğulluq strukturunun təkmilləşdirilməsi;

— ölkə ixracında KOS-ların payının artması;

— iqtisadi fəaliyyətin regional strukturunun təkmilləşdirilməsi.

# AZƏRBAYCAN RESPUBLİKASINDA KİÇİK VƏ ORTA SAHİBKARLIĞIN İNKİŞAFININ DÖVLƏT PROQRAMI (2002-2005-ci İLLƏR) ÜZRƏ HƏYATA KEÇİRİLƏCƏK ƏSAS TƏDBİRLƏR

| Sıra №-si | Tədbirlər | Tədbirin məqsədi | İcraçılar | Yerinə yetirilmə müddəti |
|---|---|---|---|---|
| 1 | 2 | 3 | 4 | 5 |
| **1. Sahibkarlığın dövlət tənzimlənməsinin təkmilləşdirilməsi** | | | | |
| 1.1. | Xüsusi razılıq (lisenziya) tələb olunan fəaliyyət növlərinin siyahısına vaxtaşırı baxılması və lisenziya sisteminin təkmilləşdirilməsi ilə bağlı təkliflərin hazırlanması | Lisenziyalaşdırmanın istiqamətləndirici rolunun yüksəldilməsi. Lisenziyalaşdırılan fəaliyyət növlərinə nəzarətin səmərəli təşkilinin təmin edilməsi. Xüsusi razılıq verilən (lisenziyalaşdırılan) sahibkarlıq dairəsinin səmərəli sərhədlərinin müəyyən edilməsi. | İqtisadi İnkişaf Nazirliyi, Ədliyyə Nazirliyi | 2002-2005-ci illər |
| 1.2. | KOS-lara məhsulların standartlaşdırılmasının, sertifikatlaşdırılmasının həyata keçirilməsi sahəsində metodiki və təşkilati kömək göstərilməsi | KOS sferasında istehsal olunan məhsulların və xidmətlərin keyfiyyətinin yüksəldilməsi və rəqabət qabiliyyətinin artırılmasına şərait yaradılması | İqtisadi İnkişaf Nazirliyi, Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Agentliyi | 2002-2005-ci illər |
| 1.3. | KOS sferasında istehsal olunan məhsulların və xidmətlərin sertifikatlaşdırılması qaydalarının təkmilləşdirilməsi | KOS məhsullarının və xidmətlərinin keyfiyyətinə səmərəli nəzarət sisteminin formalaşdırılması | İqtisadi İnkişaf Nazirliyi, Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Agentliyi | 2003-cü il |
| 1.4. | KOS subyektlərinin müəyyən edilməsi meyarlarının təkmilləşdirilməsi barədə təkliflərin hazırlanması | KOS sferasının sərhədlərinin dəqiq müəyyən edilməsi üsulunun tətbiqi | İqtisadi İnkişaf Nazirliyi, Dövlət Statistika Komitəsi | 2002-ci il |
| 1.5. | Dövlət ehtiyacları üçün məhsul istehsalı və işlərin (xidmətlərin) görülməsi üzrə sifarişlərin yerinə yetirilməsində KOS subyektlərinin iştirakı mexanizmlərinin yaradılması | Dövlət sifarişlərinin həyata keçirilməsində KOS subyektlərinin iştirakının təmin edilməsi | İqtisadi İnkişaf Nazirliyi, Maliyyə Nazirliyi | 2002-2003-cü illər |
| **2. KOS inkişafının maliyyə və investisiya təminatı** | | | | |
| 2.1. | "Qarşılıqlı sığortalama cəmiyyətləri haqqında" Azərbaycan Respublikasının Qanun layihəsinin hazırlanması | Qarşılıqlı sığortalamanın təşəkkülü və inkişafı üçün hüquqi bazanın yaradılması. Sahibkarlıq riskindən sığortalama sisteminin inkişafı | Maliyyə Nazirliyi, İqtisadi İnkişaf Nazirliyi | 2003-cü il |
| 2.2. | "İnvestisiya fəaliyyəti haqqında" Azərbaycan Respublikası Qanununun yeni layihəsinin hazırlanması | İnvestisiyalara dövlət təminatının təkmilləşdirilməsi. Regionlarda öncül sahələrə investisiya qoyulmasının stimullaşdırılması | İqtisadi İnkişaf Nazirliyi, Maliyyə Nazirliyi, Vergilər Nazirliyi | 2002-2003-ci illər |
| 2.3. | Kiçik sahibkarlıq subyektləri üçün sadələşdirilmiş sistem üzrə verginin tətbiqi təcrübəsinin təhlili və onun təkmilləşdirilməsi barədə təkliflərin hazırlanması | Kiçik sahibkarlıq subyektləri üçün səmərəli vergi sisteminin formalaşdırılması | Vergilər Nazirliyi, Maliyyə Nazirliyi, İqtisadi İnkişaf Nazirliyi | 2002-ci il |
| 2.4. | KOS sferasında rüsumların və müxtəlif qeyri-vergi ödənişlərinin tətbiqinin təhlili | KOS sferasında rüsumların və qeyri-vergi ödənişlərinin səmərəli hədlərinin müəyyənləşdirilməsi üçün təkliflərin hazırlanması | Maliyyə Nazirliyi, İqtisadi İnkişaf Nazirliyi | 2003-2005-ci illər |
| 2.5. | Vergi siyasətinin KOS-a dövlət köməyinin digər istiqamətləri ilə əlaqələndirilməsinə dair təkliflərin hazırlanması | KOS-a dövlət köməyi siyasətinin səmərəliliyinin yüksəldilməsi | İqtisadi İnkişaf Nazirliyi, Vergilər Nazirliyi, Maliyyə Nazirliyi | 2003-cü il |

| 1 | 2 | 3 | 4 | 5 |
|---|---|---|---|---|
| 2.6. | Kiçik sahibkarların kredit təminatı sisteminin təkmilləşdirilməsi barədə təkliflərin hazırlanması | Kiçik sahibkarlıq subyektlərinə verilən kreditlərə görə kollektiv təminat mexanizminin yaradılması, kiçik sahibkarlıq subyektlərinə verilən kreditlərin təminatlıq səviyyəsinin yüksəldilməsi | Milli Bank, Maliyyə Nazirliyi, İqtisadi İnkişaf Nazirliyi, Sahibkarlığa Kömək Milli Fondu | 2002-2003-cü illər |
| 2.7. | Kiçik sahibkarlıq sferasında ipoteka və girov mexanizmlərinin təkmilləşdirilməsi barədə təkliflərin hazırlanması | Girov müqavilələrinin bağlanması və müqavilələr üzrə öhdəliklərin yerinə yetirilməsinin səmərəli qaydalarının formalaşdırılması | Milli Bank, Maliyyə Nazirliyi, Ədliyyə Nazirliyi, İqtisadi İnkişaf Nazirliyi | 2002-ci il |
| 2.8. | Sahibkarlıq fəaliyyəti ilə məşğul olmaq istəyən əhalinin müxtəlif sosial qrupları üçün mikrokredit sxemlərinin yaradılması | Əhalinin sahibkarlıq fəaliyyətinə başlaması üçün start kapitalı əldə etməsinə imkanlar yaradılması | Milli Bank, Maliyyə Nazirliyi, İqtisadi İnkişaf Nazirliyi | 2002-2003-cü illər |
| 2.9. | Kredit ittifaqlarına köməklik göstərilməsi | Kredit ittifaqının müstəqil olaraq öz üzvlərinin maliyyə ehtiyaclarını ödəmək imkanlarının genişləndirilməsi. KOS-un kredit bazasının genişləndirilməsi | Milli Bank, Maliyyə Nazirliyi, İqtisadi İnkişaf Nazirliyi | 2002-2005-ci illər |
| 2.10. | KOS subyektlərinin dövlət investisiya proqramlarında iştirakı mexanizminin hazırlanması | KOS-ların dövlət investisiya resurslarının istifadəsində fəal iştirakına şərait yaradılması | İqtisadi İnkişaf Nazirliyi, Maliyyə Nazirliyi | 2003-cü il |
| 2.11. | KOS sənaye müəssisələrinin modernizasiyasına investisiya yardımı mexanizminin hazırlanması | Sənaye sektorunun texniki-texnoloji yeniləşdirilməsinin sürətləndirilməsi | Maliyyə Nazirliyi, İqtisadi İnkişaf Nazirliyi | 2002-2003-cü illər |
| 2.12. | Kommersiya banklarının KOS-un investisiya ehtiyaclarına uyğunlaşdırılması barədə təkliflərin hazırlanması | Bank kreditlərinə KOS-ların əlyetərliliyinin təmin olunması mexanizmlərinin formalaşdırılması | Milli Bank, Maliyyə Nazirliyi, Vergilər Nazirliyi, İqtisadi İnkişaf Nazirliyi | 2002-ci il |

| 1 | 2 | 3 | 4 | 5 |
|---|---|---|---|---|
| 2.13. | Kənd təsərrüfatı məhsullarının emalı sahəsində mini texnologiyaların tədbiqi üzrə pilot investisiya layihələrinin hazırlanmasına və həyata keçirilməsinə kömək göstərilməsi | Aqrar-sənaye komplekslərində KOS-ların perspektivli fəaliyyət sahələrinə istiqamətləndirilməsi | İqdisadi İnkişaf Nazirliyi, Kənd Təsərrüfatı Nazirliyi, Azərbaycan Texnologiya Universiteti | 2002-2005-ci illər |
| 2.14. | Neft-kimya və kimya sənayesində yeni texnologiyaların tədbiqi üzrə pilot investisiya layihələrinin hazırlanması və həyata keçirilməsinə kömək göstərilməsi | Neft-kimya kompleksində KOS-ların perspektivli fəaliyyət sahələrinə istiqamətləndirilməsi | İqdisadi İnkişaf Nazirliyi, Milli Elmlər Akademiyası, Azərbaycan Dövlət Neft Akademiyası | 2002-2005-ci illər |
| 2.15. | KOS-ların investisiya təklifləri üzrə məlumat bankının yaradılması | KOS sferasında investisiya marağı doğuran layihələrin və investisiya mənbələrinin aşkar edilməsi, seçilməsi və səmərəli əlaqələndirilməsi | İqtisadi İnkişaf Nazirliyi | 2002-2005-ci illər |
| 2.16. | KOS subyektlərinin innovasiya layihələrinin maliyyələşdirilməsinə kömək göstərilməsi, vençur kapitalından istifadə mexanizminin yaradılması | KOS sektorunda elmi-texniki nailiyyətlərin, riskli layihələrin və yeni texnologiyanın tətbiqinin maliyyələşdirilməsinə kömək göstərilməsi | Standartlaşma, Metrologiya və Patent üzrə Dövlət Agentliyi, Milli Elmlər Akademiyası, İqtisadi İnkişaf Nazirliyi, Təhsil Nazirliyi, Maliyyə Naziriliyi, Milli Bank | 2003-2005-ci illər |
| 2.17. | Xarici və beynəlxalq maliyyə-kredit qurumları ilə kiçik sahibkarlığın maliyyələşdirilməsi sahəsində əməkdaşlığın genişləndirilməsi | KOS sferasında investisiya resurslarının cəlb edilməsi imkanlarının artırılması | İqtisadi İnkişaf Nazirliyi, Milli Bank, Maliyyə Nazirliyi | 2002-2005-ci illər |

| 1 | 2 | 3 | 4 | 5 |
|---|---|---|---|---|

## 3. KOS sektorunda struktur dəyişikliklərinə və texnoloji inkişafa kömək

| 1 | 2 | 3 | 4 | 5 |
|---|---|---|---|---|
| 3.1. | "Kiçik, orta və iri müəssisələr arasında kooperasiya əlaqələrinin inkişafının stimullaşdırılması haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərar layihəsinin hazırlanması | Kiçik, orta və iri müəssisələr arasında kooperasiya əlaqələrinin genişləndirilməsinə kömək göstərilməsi | İqtisadi İnkişaf Nazirliyi, Ədliyyə Nazirliyi, sahibkarların ictimai birliklərinin iştirakı ilə | 2003-cü il |
| 3.2. | Kiçik, orta və iri müəssisələrin kooperasiya imkanları haqqında məlumat bankının yaradılması | Kiçik və orta müəssisələrin kooperasiya bazasının formalaşması | İqtisadi İnkişaf Nazirliyi, Dövlət Neft Şirkəti | 2002-2005-ci illər |
| 3.3. | Kiçik, orta və iri müəssisələr arasında kooperasiya əlaqələrinin qurulmasına dair metodiki materialların hazırlanması | Kiçik və orta müəssisələrin iri müəssisələrlə səmərəli kooperasiya əlaqələrinin qurulmasına kömək göstərilməsi | İqtisadi İnkişaf Nazirliyi | 2002-ci il |
| 3.4. | KOS subyektlərinin məhsullarının satış-sərgi mərkəzinin yaradılması və onun fəaliyyətinə kömək göstərilməsi | KOS-ların rəqabət qabiliyyətli ixrac məhsullarının istehsalının stimullaşdırılması, KOS sektoruna investorların cəlb olunması | İqtisadi İnkişaf Nazirliyi, Bakı şəhər İcra Hakimiyyəti, sahibkarların ictimai birliklərinin iştirakı ilə | 2002-2005-ci illər |
| 3.5. | KOS subyektlərinin ixrac fəaliyyətinə kömək mexanizmlərinin formalaşması | Kiçik və orta müəssisələr tərəfindən ixracyönümlü istehsalın genişləndirilməsinə şərait yaradılması | İqtisadi İnkişaf Nazirliyi, sahibkarların ictimai birliklərinin iştirakı ilə | 2002-2003-cü illər |
| 3.6. | KOS-ların xarici texnoloji qurumlarla işbirliyi yaratmalarına kömək göstərilməsi | KOS sektorunda yeni texnologiyaların geniş tətbiqinə şərait yaradılması | Xarici İşlər Nazirliyi, İqtisadi İnkişaf Nazirliyi, Standartlaşma, Metrologiya və Patent üzrə Dövlət Agentliyi | 2002-2005-ci illər |

| 1 | 2 | 3 | 4 | 5 |
|---|---|---|---|---|

## 4. KOS-a texniki kömək və insan amilinin inkişafı

| 1 | 2 | 3 | 4 | 5 |
|---|---|---|---|---|
| 4.1. | KOS-ların informasiya təminatı sisteminin formalaşdırılmasının başa çatdırılması | Müasir informasiya texnologiyasının geniş tətbiqi əsasında sahibkarların informasiya təminatının yaxşılaşdırılması | İqtisadi İnkişaf Nazirliyi, sahibkarların ictimai birliklərinin iştirakı ilə | 2002-2005-ci illər |
| 4.2. | KOS-ların "İnternet-biznes" xidmətlərindən istifadəsinə kömək göstərilməsi. "KOS-NET" xidmətlərinin təşkili | KOS-ların İnternet xidmətlərindən istifadə imkanlarının genişləndirilməsi | İqtisadi İnkişaf Nazirliyi, Dövlət Statistika Komitəsi, Rabitə Nazirliyi | 2002-2005-ci illər |
| 4.3. | KOS-lar üçün informasiya məcmuələrinin nəşri | KOS-un informasiya təminatının yaxşılaşdırılması | İqtisadi İnkişaf Nazirliyi, sahibkarların ictimai birliklərinin iştirakı ilə | 2002-2005-ci illər |
| 4.4. | KOS-un tədris mərkəzinin yaradılması | KOS tədrisinin inkişaf etdirilməsi | İqtisadi İnkişaf Nazirliyi, Təhsil Nazirliyi, Maliyyə Nazirliyi | 2003-cü il |
| 4.5. | KOS təhsili üçün baza elmi-metodik və tədris proqramlarının hazırlanması | Sahibkarların hazırlığı və yenidən hazırlığı sahəsində tədrisin təkmilləşdirilməsi | Təhsil Nazirliyi, İqtisadi İnkişaf Nazirliyi, sahibkarların ictimai birliklərinin iştirakı ilə | 2003-cü il |
| 4.6. | KOS təhsili üçün tədris-metodik və məsləhət yönümlü dərslik vəsaitlərinin hazırlanması və nəşri | Əhalinin sahibkarlıq fəaliyyəti üçün lazımi biliklər əldə edilməsinə kömək göstərilməsi | Təhsil Nazirliyi, İqtisadi İnkişaf Nazirliyi | 2002-2005-ci illər |
| 4.7. | Ümumtəhsil, peşə və ali təhsil sistemində sahibkarlıq fəaliyyəti əsaslarının tədrisinin təşkilinə dair təkliflərin hazırlanması | Ümumtəhsil və peşə-ixtisas təhsili məktəbləri müdavimlərinin sahibkarlıq fəaliyyətinə hazırlanması | Təhsil Nazirliyi, İqtisadi İnkişaf Nazirliyi | 2003-cü il |

| 1 | 2 | 3 | 4 | 5 |
|---|---|---|---|---|
| 4.8. | Sahibkarlığın inkişafı tələblərinə uyğun olaraq təhsil sisteminin təkmilləşdirilməsinə dair təkliflərin hazırlanması | Kiçik və orta biznes üçün əsas peşələr üzrə kadr hazırlığının yaxşılaşdırılması | Təhsil Nazirliyi, İqtisadi İnkişaf Nazirliyi, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi | 2002-2003-cü illər |
| 4.9. | Ordudan tərxis olunan gənclər üçün sahibkarlığın əsaslarına dair treyninq, məsləhət və informasiya xidmətinin təşkili | Gənclərin sahibkarlıq fəaliyyətinə cəlb olunmasına kömək göstərilməsi | Gənclər, İdman və Turizm Nazirliyi, İqtisadi İnkişaf Nazirliyi, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi | 2002-2005-ci illər |
| 4.10. | KOS təhsil müəssisələrinin sertifikasiyası meyarlarının və qaydalarının hazırlanması | KOS-lar üçün təhsilin keyfiyyətinə nəzarətin gücləndirilməsi | Təhsil Nazirliyi, İqtisadi İnkişaf Nazirliyi | 2003-cü il |
| 4.11. | Bakı şəhərində "MDB tərəfdaşlıq" işgüzar əməkdaşlıq forumunun keçirilməsi | KOS-ların xarici tərəfdaşlarla işgüzar əlaqələrinin yaradılmasına və inkişafına kömək göstərilməsi | İqtisadi İnkişaf Nazirliyi, Xarici İşlər Nazirliyi, Maliyyə Nazirliyi, Bakı şəhər İcra Hakimiyyəti, sahibkarların ictimai birliklərinin iştirakı ilə | 2002-ci il |
| 4.12. | KOS sektorunun monitorinqinin həyata keçirilməsi | Sahibkarlığın inkişafının mühüm problemlərinin həlli gedişini nəzarətdə saxlamaq | İqtisadi İnkişaf Nazirliyi, Dövlət Statistika Komitəsi, sahibkarların ictimai birliklərinin iştirakı ilə | 2002-2005-ci illər |
| 4.13. | KOS-un inkişafı barəsində illik analitik hesabatların hazırlanması | KOS-un inkişafı sahəsində nailiyyətlərin araşdırılması və dövlət siyasətinin həyata keçirilməsinə dair təkliflərin hazırlanması | İqtisadi İnkişaf Nazirliyi, Dövlət Statistika Komitəsi | 2002-2005-ci illər |

| 1 | 2 | 3 | 4 | 5 |
|---|---|---|---|---|
| | **5. Sahibkarlığın regional inkişafının sürətləndirilməsi** | | | |
| 5.1. | Azərbaycan Respublikasının investisiya layihələri xəritəsinin tərtibi | Regionlara investisiyaların cəlb edilməsi | İqtisadi İnkişaf Nazirliyi | 2002-ci il |
| 5.2. | Regional iqtisadi təşviq mexanizmlərinin normativ-hüquqi bazasının formalaşdırılması və həyata keçirilməsi | İqtisadi rayonların inkişafına fəal investisiya qoyuluşlarının cəlb edilməsinin və sahibkarlığın inkişafının sürətləndirilməsi | İqtisadi İnkişaf Nazirliyi, Ədliyyə Nazirliyi, Maliyyə Nazirliyi, Vergilər Nazirliyi | 2002-2005-ci illər |
| 5.3. | Dağ və sərhədyanı rayonlarda, habelə Naxçıvan Muxtar Respublikasında əmək haqqına güzəştli əmsalların, enerjidaşıyıcılarına güzəştli tariflərin, vergi ödəyicilərinə müddətli tətillərin və yerli istehsalın inkişafına güzəştli kreditlərin tətbiqi barədə konkret təkliflərin hazırlanması və həyata keçirilməsi | Əhalinin məşğulluq səviyyəsinin daha da yüksəldilməsinin təmin edilməsi | İqtisadi İnkişaf Nazirliyi, Maliyyə Nazirliyi, Yanacaq və Energetika Nazirliyi, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, Vergilər Nazirliyi, Milli Bank | 2002-2003-cü illər |
| 5.4. | Bölgələrdə evdə iş görənlərə təşkilati kömək sisteminin qurulması barədə təkliflərin hazırlanması | Bölgələrdə əhalinin məşğulluq səviyyəsinin və qazanc əldə etmə mənbələrinin genişləndirilməsinə imkanlar yaratmaq | İqtisadi İnkişaf Nazirliyi, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, bələdiyyələr | 2002-2003-cü illər |
| 5.5. | Yerli icra hakimiyyəti orqanlarının iqtisadi inkişafa, xüsusilə yerli sahibkarlığa kömək mexanizmlərinin formalaşması məqsədilə mövcud normativ-hüquqi sənədlərdə müvafiq dəyişikliklər edilməsinə dair təkliflərin hazırlanması | Yerli icra hakimiyyəti orqanlarının rayonların sosial-iqtisadi inkişafına təsir mexanizminin gücləndirilməsi | İqtisadi İnkişaf Nazirliyi, Ədliyyə Nazirliyi, Maliyyə Nazirliyi, Vergilər Nazirliyi, yerli icra hakimiyyəti orqanları | 2002-2003-cü illər |

| 1 | 2 | 3 | 4 | 5 |
| --- | --- | --- | --- | --- |
| 5.6. | Yerli özünüidarəetmə orqanlarının iqtisadi inkişaf məsələləri sahəsində fəaliyyətlərinin gücləndirilməsi məqsədilə bu sahədə mövcud normativ-hüquqi bazanın təkmilləşdirilməsinə dair təkliflərin hazırlanması | Regionların iqtisadi inkişafının sürətləndirilməsi | İqtisadi İnkişaf Nazirliyi, Ədliyyə Nazirliyi, yerli icra hakimiyyəti orqanları, bələdiyyələr | 2003-cü il |
| 5.7. | Regionlar üzrə sahibkarların və sənətkarların peşə ittifaqlarının formalaşdırılmasına dair normativ-hüquqi sənədlərin layihələrinin hazırlanması | Regionlar üzrə sahibkarların və sənətkarların peşə ittifaqının formalaşdırılmasının sürətləndirilməsi | İqtisadi İnkişaf Nazirliyi, Ədliyyə Nazirliyi, yerli icra hakimiyyəti orqanları, sahibkarların ictimai strukturları | 2003-cü il |
| 5.8. | Bölgələrdə sənətkarlığın bərpası və inkişafı proqramlarının layihələrinin hazırlanması və həyata keçirilməsi | Bölgələrdə sənətkarlığın sürətli inkişafının təmin olunması | İqtisadi İnkişaf Nazirliyi, sahibkarların regional ictimai birlikləri | 2002-2005-ci illər |
| 5.9. | Sosial-iqtisadi infrastruktur xidmətləri obyektlərinin reabilitasiyası, inkişafı və bazar iqtisadiyyatı tələblərinə uyğun olaraq fəaliyyətlərinin genişləndirilməsi | Bölgələrdə sosial-iqtisadi infrastruktur obyektlərinin inkişafının sürətləndirilməsi | Yanacaq və Energetika Nazirliyi, İqtisadi İnkişaf Nazirliyi, Rabitə Nazirliyi, Səhiyyə Nazirliyi, Təhsil Nazirliyi, Mədəniyyət Nazirliyi, Gənclər, İdman və Turizm Nazirliyi, Meliorasiya və Su Təsərrüfatı Komitəsi, "Azərenerji" SC, "Azəriqaz" SC, "Azəravtoyol" DK | 2002-2005-ci illər |

| 1 | 2 | 3 | 4 | 5 |
| --- | --- | --- | --- | --- |
| 5.10. | Kiçik sahibkarlıq üzrə regional sahə proqramlarının hazırlanmasına və həyata keçirilməsinə kömək göstərilməsi | Yerli resurslardan səmərəli istifadə əsasında bölgələrdə sahibkarlığın inkişafının sürətləndirilməsi | İqtisadi İnkişaf Nazirliyi, Maliyyə Nazirliyi, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, yerli icra hakimiyyəti orqanları, bələdiyyələr | 2002-2005-ci illər |
| 5.11. | Bakı şəhərində texnoloji biznes inkubatorun yaradılması | İnnovasiya yönümlü sahibkarlığın inkişafına əlverişli şərait yaradılması | Standartlaşma, Metrologiya və Patent üzrə Dövlət Agentliyi, Milli Elmlər Akademiyası, Təhsil Nazirliyi, İqtisadi İnkişaf Nazirliyi | 2003-2005-ci illər |
| 5.12. | Sahibkarlığın yerli bazar infrastrukturlarının (məsləhət, tədris, informasiya, reklam və s.) formalaşdırılması | Yerli sahibkarlığın bazar infrastrukturunun formalaşdırılmasının başa çatdırılması | İqtisadi İnkişaf Nazirliyi, Maliyyə Nazirliyi, sahibkarlığın ictimai birlikləri ilə | 2002-2005-ci illər |
| 5.13. | Maliyyə-kredit qurumlarının bölgələrdə strukturlarının yaradılmasına kömək göstərilməsi | Bölgələrdə kiçik sahibkarların investisiya mənbələrindən istifadəsinin əlyetərliliyinin təmin edilməsi | Milli Bank, Birləşmiş Universal Səhmdar Bankı, Beynəlxalq Bank | 2002-2005-ci illər |
| 5.14. | Bölgələrdə aqroservis (texnika təmiri, kimyəvi preparatlar, baytar və aqronom xidmətləri və s.) müəssisələri şəbəkəsinin genişləndirilməsi | Fermer təsərrüfatlarının inkişaf etdirilməsi | Kənd Təsərrüfatı Nazirliyi, İqdisadi İnkşaf Nazirliyi, Maliyyə Nazirliyi | 2002-2004-cü illər |

| 1 | 2 | 3 | 4 | 5 |
|---|---|---|---|---|
| 5.15. | Qaçqın və məcburi köçkünlərin məskunlaşdıqları ərazilərdə yerli şəraitə müvafiq sahibkarlıq fəaliyyəti sahələrinin yaradılmasının genişləndirilməsi | Qaçqın və məcburi köçkünlərin məşğulluq səviyyəsinin artırılması | Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsi, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, İqdisadi İnkişaf Nazirliyi, Maliyyə Nazirliyi | 2002-2004-cü illər |

## 6.Sahibkarların hüquqlarının müdafiəsinin gücləndirilməsi

| | | | | |
|---|---|---|---|---|
| 6.1. | Azərbaycan Respublikasının Mülki Məcəlləsinə əlavə və dəyişikliklər edilməsi barədə təkliflərin hazırlanması | Təsərrüfat subyektlərinin dövlət qeydiyyatının qanunvericilikdə müəyyən edilmiş vaxt müddətində həyata keçirilməsi üçün qeydiyyat orqanlarının məsuliyyətinin yüksəldilməsi | İqdisadi İnkişaf Nazirliyi, Ədliyyə Nazirliyi | 2002-ci il |
| 6.2. | Müqavilə hüququ normalarının möhkəmləndirilməsi,müqavilə üzrə mübahisələrin məhkəmə vasitəsilə həlli qaydalarının təkmilləşdirilməsi barədə təkliflərin hazırlanması | Sahibkarların kommersiya əlaqələrində mütəşəkkilliyinin yüksəldilməsində müqavilələrin rolunun artırılması | Ədliyyə Nazirliyi, İqtisadi İnkişaf Nazirliyi, Maliyyə Nazirliyi, Milli Bank, İqtisad Məhkəməsi | 2003-cü il |
| 6.3. | "Sahibkarlıq sferasında nəzarət və yoxlamaların həyata keçirilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərar layihəsinin hazırlanması | Yoxlama keçirilən orqanların siyahısının, hər bir orqanın yoxlama səlahiyyətində olduğu məsələlərin adlarının, yoxlamanın sərhədinin, dövriliyinin və yoxlama üçün əsas ola bilən halların qanunvericiliklə təsbiti | Ədliyyə Nazirliyi, Maliyyə Nazirliyi, Vergilər Nazirliyi, İqtisadi İnkişaf Nazirliyi, Respublika Prokurorluğu, Daxili İşlər Nazirliyi, Səhiyyə Nazirliyi, Kənd Təsərrüfatı Nazirliyi | 2002-ci il |

| 1 | 2 | 3 | 4 | 5 |
|---|---|---|---|---|
| 6.4. | "Nəzarət kitabçaları"nın tətbiqi mexanizmlərinin təkmilləşdirilməsi | Sahibkarlıq fəaliyyətinə qanunsuz müdaxilələrin aradan qaldırılması | İqtisadi İnkişaf Nazirliyi | 2002-2003-cü illər |
| 6.5. | "Sahibkarlıq hüququnun əsasları" seriyasında kitabların hazırlanması və nəşri | KOS-ların hüquqi ədəbiyyatla təminatının genişləndirilməsi | İqtisadi İnkişaf Nazirliyi, Ədliyyə Nazirliyi | 2002-2005-ci illər |
| 6.6. | KOS sistemində sahibkarlara hüquqi xidmətin genişləndirilməsi | KOS-lara güzəştli şərtlərlə hüquqi məsləhətlər göstərilməsi miqyasının artırılması | İqtisadi İnkişaf Nazirliyi, Ədliyyə Nazirliyi | 2002-2005-ci illər |
| 6.7. | Sahibkarların ictimai birliklərinin öz üzvlərinin hüquq və mənafelərinin müdafiəsinə texniki və təşkilati kömək göstərilməsi | Sahibkarların hüquqlarının və qanuni mənafelərinin müdafiəsində KOS-ların ictimai strukturlarının rolunun yüksəldilməsi | İqtisadi İnkişaf Nazirliyi, Ədliyyə Nazirliyi, Sahibkarların ictimai birlikləri | 2002-2005-ci illər |

# AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN YANINDA SAHİBKARLAR ŞURASININ YARADILMASI HAQQINDA AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

Azərbaycan Respublikasında sahibkarlığın inkişafına dövlət qayğısını artırmaq, bu sahədə mövcud problemləri vaxtaşırı təhlil edərək müvafiq tədbirlər görülməsini təmin etmək məqsədi ilə qərara alıram:

**1.** Azərbaycan Respublikası Prezidentinin yanında Sahibkarlar Şurası yaradılsın.

**2.** Müəyyən edilsin ki, Sahibkarlar Şurasının əsas məqsədi Azərbaycan Respublikasında sahibkarlığın inkişafı və bu sahəyə dövlət qayğısının istiqamətləri barədə təkliflər hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etməkdən ibarətdir.

**3.** Azərbaycan Respublikasının Nazirlər Kabineti bir ay müddətində Sahibkarlar Şurası haqqında Əsasnamənin layihəsini və onun tərkibi haqqında təkliflərini Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin.

**4.** Bu Fərman imzalandığı gündən qüvvəyə minir.

**Heydər ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**

**Bakı şəhəri, 27 avqust 2002-ci il.**



# Azərbaycan Respublikasının Sahibkarlığa Kömək Milli Fondu haqqında Əsasnamənin təsdiq edilməsi barədə AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

Azərbaycan Respublikasında sahibkarlığa kömək tədbirlərinin maliyyələşdirilməsi mexanizmini təkmilləşdirmək məqsədi ilə qərara alıram:

1.Azərbaycan Respublikasının Sahibkarlığa Kömək Milli Fondu haqqında Əsasnamə təsdiq edilsin (əlavə olunur).

2. Azərbaycan Respublikasının Sahibkarlığa Kömək Milli Fondunun vəsaitinin istifadəsi Qaydaları təsdiq edilsin (əlavə olunur).

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

-Ölkədə sahibkarlığın inkişafı ilə bağlı digər mənbələrdə nəzərdə tutulan vəsaitlərin Azərbaycan Respublikasının Sahibkarlığa Kömək Milli Fondunda cəmləşdirilməsini təmin etsin və bu barədə Azərbaycan Respublikasının Prezidentinə məlumat versin.

-bu Fərmandan irəli gələn digər məsələləri həll etsin.

4. Azərbaycan Respublikasının İqtisadi İnkişaf Nazirliyi bu Fərmanın icrasını təmin etsin və öz səlahiyyətləri daxilində bu Fərmandan irəli gələn məsələləri həll etsin.

5. Azərbaycan Respublikası Sahibkarlığa Kömək Milli Fondunun Əsasnaməsinin təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin 1992-ci il 12 oktyabr tarixli 269 saylı Fərmanı qüvvədən düşmüş hesab edilsin.

6. Bu Fərman dərc olunduğu gündən qüvvəyə minir.

**Heydər ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**

**Bakı şəhəri, 27 avqust 2002-ci il.**

**Azərbaycan Respublikası Prezidentinin 2002-ci il 27 avqust tarixli Fərmanı ilə təsdiq edilmişdir**

# Azərbaycan Respublikasının Sahibkarlığa Kömək Milli Fondu haqqında ƏSASNAMƏ

## I. Ümumi müddəalar

1. Azərbaycan Respublikasının Sahibkarlığa Kömək Fondu (bundan sonra-Fond) Azərbaycan Respublikası İqtisadi İnkişaf Nazirliyinin (bundan sonra-Nazirlik) nəzdində fəaliyyət göstərir.

2. Fond dövlət təsisatıdır, hüquqi şəxsdir, sərəncamında dövlət əmlakı vardır, müstəqil balansa, bank təşkilatlarında hesablaşma və digər hesablara, üzərində Azərbaycan Respublikası Dövlət Gerbinin əksi və öz adı olan möhürə, müvafiq ştamp və blanklara malikdir.

3. Fond öz fəaliyyətini mərkəzi və yerli icra hakimiyyəti orqanları, yerli özünüidarəetmə orqanları, kredit, maliyyə və sığorta təşkilatları, sahibkarlığın ictimai birlikləri ilə əlaqəli şəkildə həyata keçirir.

4. Fond öz fəaliyyətində Azərbaycan Respublikasının Konstitusiyasını, Azərbaycan Respublikasının qanunlarını, Azərbaycan Respublikası Prezidentinin fərmanlarını və sərəncamlarını, Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarlarını və sərəncamlarını, Azərbaycan Respublikası İqtisadi İnkişaf Nazirliyinin Əsasnaməsini, habelə bu Əsasnaməni rəhbər tutur.

5. Fond Bakı şəhərində yerləşir.

## II. Fondun məqsədi, əsas vəzifələri və funksiyaları

6. Fondun məqsədi Azərbaycan Respublikasında sahibkarlığın inkişafı və əhalinin işgüzarlıq fəaliyyətinin artırılması sahəsində tədbirlərdə iştirak etmək, onlara maliyyə dəstəyi verməkdən ibarətdir.

7. Fondun əsas vəzifələri aşağıdakılardır:

7.1. Azərbaycan Respublikasında sahibkarlığın inkişafına maliyyə təminatı yaratmaq üçün tədbirlər görmək;

7.2. sahibkarlığın, xüsusilə kiçik sahibkarlığın inkişafına kömək məqsədi ilə maliyyə resurslarının cəlb olunması və səmərəli istifadəsi əsasında dövlətin iqtisadi siyasətinin həyata keçirilməsinə kömək etmək;

7.3. sahibkarlığın inkişafına yönəldilmiş proqramları maliyyələşdirmək;

7.4. iqtisadiyyatın öncül inkişaf istiqamətləri ilə bağlı investisiya layihələrinin və proqramlarının həyata keçirilməsinə maliyyə köməyi göstərmək;

7.5. sahibkarlığın, sağlam rəqabətin və əmtəə bazarının inkişafını, yeni iş yerlərinin yaradılmasını təmin edən sahə və regional proqramların və investisiya layihələrinin işlənib hazırlanmasında və həyata keçirilməsində iştirak etmək;

7.6. qanunvericiliyə uyğun olaraq digər vəzifələri həyata keçirmək.

8. Fond ona həvalə olunmuş vəzifələrə uyğun olaraq aşağıdakı funksiyaları yerinə yetirir:

8.1. sahibkarlıq fəaliyyətini həyata keçirmək üçün sahibkarlıq subyektlərinə bərabər şərait və imkanlar yaranmasını təmin edən bazar infrastrukturunun formalaşmasında iştirak edir;

8.2. sahibkarlıq subyektlərinə zəruri olan hüquqi, iqtisadi və digər məlumatların toplanmasında, bazar konyukturasının öyrənilməsində, sahibkarlıq fəaliyyəti ilə bağlı proqramların və investisiya layihələrinin işlənib hazırlanmasında məsləhətlər verir və metodiki kömək göstərir;

8.3. sahibkarların innovasiya fəaliyyətini, idxalı əvəz edən məhsulların istehsalını və sahibkarlığa yardımla bağlı digər tədbirləri maliyyələşdirir;

8.4. sahibkarlar tərəfindən yeni məhsul növlərinin istehsalı layihələrinin işlənib hazırlanmasına, yeni texnologiyaların, ixtiraların və "nou-hau"-ların mənimsənilməsinə kömək edir;

8.5. sahibkarlıq subyekti üçün idarəetmə kadrlarının hazırlanmasına kömək edir;

8.6. sahibkarlıq subyektlərinin xarici iqtisadi fəaliyyətinin fəallaşmasına yardım edir;

8.7. sahibkarlığın inkişafı sahəsində qanunvericiliklə müəyyən edilmiş qaydada reklam və nəşriyyat fəaliyyəti ilə məşğul olur;

**8.8.** qanunvericiliyə uyğun digər funksiyaları həyata keçirir.

## III. Fondun hüquqları

**9.** Fondun öz vəzifələrini həyata keçirmək üçün aşağıdakı hüquqları vardır:

**9.1.** Fonda vəsaitlər cəlb etmək və bu məqsədlə qanunvericiliyə uyğun əqdlər bağlamaq;

**9.2.** Fondun fəaliyyətinin məqsədinə uyğun olaraq və hüquqları daxilində Azərbaycan Respublikasında və xarici ölkələrdə hüquqi və fiziki şəxslərlə sövdələşmələr aparmaq və münasibətlər yaratmaq;

**9.3.** sərəncamında olan dövlət əmlakından qanunvericiliklə müəyyən edilmiş qaydada istifadə etmək;

**9.4.** təhsil almaq və təcrübə mübadiləsi keçirmək üçün sahibkarları, mütəxəssisləri və öz işçilərini xaricə ezam etmək;

**9.5.** sahibkarlıq fəaliyyəti ilə bağlı beynəlxalq konfranslar, simpoziumlar və digər tədbirlər təşkil etmək, Azərbaycan Respublikasında və xaricdə keçirilən bu qəbildən olan tədbirlərdə iştirak etmək;

**9.6.** qanunvericiliklə müəyyən edilmiş qaydada qiymətli kağızlar əldə etmək və onlarla bağlı əməliyyatlar aparılmasında iştirak etmək;

**9.7.** daxili və xarici investisiyaların cəlb edilməsi və onlardan səmərəli istifadə olunması ilə bağlı tədbirlər keçirmək, o cümlədən qanunvericilikdə nəzərdə tutulmuş qaydada müsabiqələr, sərgilər və yarmarkalar təşkil etmək;

**9.8.** öz vəzifələrini həyata keçirmək məqsədilə ekspertlər cəlb etmək;

**9.9.** Fond tərəfindən sahibkarlıq subyektlərinə verilən vəsaitin təyinatı üzrə istifadəsinə və qaytarılmasına nəzarət etmək, bu vəsaitdən təyinatı üzrə istifadə edilmədikdə maliyyələşdirilməni dayandırmaq və qanunvericiliyə uyğun olaraq digər tədbirlər görmək;

**9.10.** qanunvericiliklə nəzərdə tutulmuş digər hüquqları həyata keçirmək.

## IV. Fondun vəsaitinin formalaşması və istifadəsi

**10.** Fondun vəsaiti aşağıdakı mənbələr hesabına formalaşır:

**10.1.** Azərbaycan Respublikasının dövlət büdcəsinin təxsisatları;

**10.2.** dövlət əmlakının özəlləşdirilməsindən daxil olan vəsait;



**10.3.** Fondun fəaliyyətindən əldə olunan daxilolmalar;

**10.4.** Fondun əldə etdiyi qiymətli kağızlardan daxil olan dividendlər;

**10.5.** yerli və xarici hüquqi və fiziki şəxslər tərəfindən könüllü verilən ianələr;

**10.6.** xarici dövlətlər və beynəlxalq təşkilatlar tərəfindən verilən yardımlar, qrantlar və kreditlər;

**10.7.** qanunvericiliklə qadağan olunmayan digər mənbələr.

**11.** Fondun vəsaitinin istifadəsi Azərbaycan Respublikasının Prezidenti tərəfindən müəyyən edilən Qaydalara uyğun olaraq həyata keçirilir.

## V. Fondun idarə edilməsi

**12.** Azərbaycan Respublikasının İqtisadi İnkişaf Nazirliyi Fondun idarə edilməsi ilə bağlı aşağıdakıları həyata keçirir:

**12.1.** Fondun fəaliyyətinin əsas istiqamətlərini müəyyənləşdirir və onun fəaliyyət proqramını təsdiq edir;

**12.2.** Fondun vəsaitinin səmərəli istifadəsi məqsədilə Müsabiqə Komissiyası yaradır və onun haqqında Əsasnaməni təsdiq edir;

**12.3.** Fondun maliyyə-təsərrüfat fəaliyyəti haqqında hesabatları təsdiq edir;

**12.4.** Fondun fəaliyyəti ilə bağlı zəruri olan normativ hüquqi aktları təsdiq edir;

**12.5.** Fondun fəaliyyətinin təftiş edilməsini təşkil edir və ona nəzarəti həyata keçirir;

**12.6.** Fondun strukturunu, ştat cədvəlini və smeta xərclərini, həmçinin əməyin ödənilməsi fondunu təsdiq edir;

**12.7.** Fondun icraçı direktorunu, onun müavinini və baş mühasibini vəzifəyə təyin edir və vəzifədən azad edir.

**13.** Fondun cari fəaliyyətinə Azərbaycan Respublikasının iqtisadi inkişaf naziri tərəfindən vəzifəyə təyin edilən və vəzifədən azad edilən, Fonda həvalə edilmiş vəzifələrin yerinə yetirilməsi üçün şəxsən məsuliyyət daşıyan icraçı direktor rəhbərlik edir.

**14.** Fondun icraçı direktorunun aşağıdakı hüquqları vardır:

**14.1.** Fondun cari işini təşkil edir, bank təşkilatlarında Fondun hesablaşma və digər hesablarını açır;

**14.2.** Fondun struktur bölmələrinin əsasnamələrini təsdiq edir;

**14.3.** Fondun işçilərini (baş mühasib istisna olmaqla) vəzifəyə təyin edir və vəzifədən azad edir, onların barəsində qanunvericiliklə nəzərdə tutulmuş qaydada həvəsləndirmə və intizam tənbehi tədbirləri tətbiq edir.

**14.4.** Fondun fəaliyyətinin yaxşılaşdırılmasına dair təkliflər verir;

**14.5.** hüquqları çərçivəsində Fondun işçiləri üçün icrası məcburi olan əmrlər, sərəncamlar, göstərişlər verir və onların icrasına nəzarəti təşkil edir;

**14.6.** Azərbaycan Respublikasında və xarici ölkələrdə dövlət və bələdiyyə orqanları ilə, hüquqi və fiziki şəxslərlə münasibətlərdə etibarnaməsiz Fondu təmsil edir;

**14.7.** Fondun vəzifələrinin həyata keçirilməsi məqsədilə Fondun səlahiyyətləri çərçivəsində hüquqi və fiziki şəxslərlə sövdələşmələr aparır və Fondun adından etibarnaməsiz çıxış edir;

**14.8.** maliyyə ili başa çatdıqdan sonra ən geci bir ay müddətində Fondun illik hesabatını və illik balansını təsdiq olunmaq üçün Azərbaycan Respublikasının İqtisadi İnkişaf Nazirliyinə təqdim edir.

**15.** Fond Azərbaycan Respublikasının dövlət büdcəsindən Fondun saxlanılması üçün ayrılan vəsait hesabına maliyyələşdirilir. Fond həmin vəsaitin sərəncamçısıdır.

### VI. Uçot və hesabat

**16.** Fond qanunvericiliyə müvafiq olaraq öz fəaliyyəti üzrə mühasibat və statistika üçotunu aparır və müəyyən olunmuş qaydada maliyyə və digər hesabatları aidiyyatı üzrə təqdim edir.

### VII. Fondun yenidən təşkil və ləğv edilməsi

**17.** Fondun yenidən təşkil və ləğv edilməsi Azərbaycan Respublikasının Prezidenti tərəfindən həyata keçirilir.

**18.** Fond ləğv edildikdə onun qalan əmlakı dövlətin sərəncamına keçir.



**Azərbaycan Respublikası Prezidentinin**
**2002-ci il 27 avqust tarixli fərmanı ilə təsdiq edilmişdir**

## Azərbaycan Respublikası Sahibkarlığa Kömək Milli Fondunun vəsaitinin istifadəsi

# QAYDALARI

### 1. Ümumi müddəalar

**1.1.** Bu qaydalar Azərbaycan Respublikasının Qanunlarına və Azərbaycan Respublikası Prezidentinin 2001-ci il 11 iyun tarixli 495 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının İqdisadi İnkişaf Nazirliyi haqqında Əsasnamə"yə uyğun olaraq hazırlanmışdır və Sahibkarlığa Kömək Milli Fondunun vəsaitlərinin istifadəsi mexanizmini və şərtlərini müəyyən edir.

**1.2.** Fondun vəsaitləri bu Qaydaların 2-ci bəndində nəzərdə tutulmuş məqsədlərin, həmçinin sahibkarlığa kömək infrastrukturunun, o cümlədən aqroservislərin, texnoparkların, sənaye şəhərciklərinin yaradılmasına, sahə və regional proqramların həyata keçirilməsinin maliyyələşdirilməsinə yönəldilir.

**1.3.** Layihənin daha çevik və səmərəli həyata keçirilməsi məqsədi ilə Fondun vəsaitləri layihədə iştirak üçün seçiləcək müvəkkil banklar tərəfindən öz adına və öz riskləri hesabına yerləşdirilir. Müvəkkil banklar Fond qarşısında istifadəçilərin (benifisiarların) öz öhdəliklərini icra edib-etməməsindən asılı olmayaraq məsuliyyət daşıyırlar.

**1.4.** Müvəkkil bankların seçilməsi Azərbaycan Respublikasının İqdisadi İnkişaf Nazirliyi, Azərbaycan Respublikasının Maliyyə Nazirliyi və Azərbaycan Respublikasının Milli Bankı tərəfindən qanunvericiliyə uyğun olaraq həyata keçirilir.

**1.5.** Fondun vəsaitlərinin regionlarda yerləşdirilməsi zamanı müvəkkil bankların regional strukturu və regional əhatəsi nəzərə alınır.

## II. Fondun vəsaitinin istifadəsi istiqamətləri

Fondun vəsaitləri sahibkarlığın inkişafı ilə bağlı aşağıda göstərilən öncül istiqamətlər üzrə layihələrin (bundan sonra-layihə ) maliyyələşdirilməsinə yönəldilir;

— ölkənin sosial-iqtisadi inkişafı ilə bağlı məqsədli proqramlar çərçivəsində özəl sektorun dəstəklənməsi;

— idxalı əvəz edən məhsulların istehsalı;

— ixrac qabiliyyətli məhsulların istehsalı;

— innovasiya yönümlü layihələr;

— qədim xalq sənətinin inkişafı;

— xammal və dövriyyə vəsaitlərinin alınması;

— turizm infrastrukturunun inkişafı;

— kütləvi informasiya vasitələrinin inkişafı.

## III. Müvəkkil banklara kredit xəttinin açılması, onlara xidmət edilməsi

**3.1.** Kredit xətləri üzrə müvəkkil banklarla Fond arasında vəsaitlərin istifadə ediləcək istiqaməti, müddəti və sair şərtləri nəzərdə tutan müqavilə imzalanır. Hər bir müvəkkil bank üçün 500.0 milyon manat həcmini aşmamaq şərti ilə ilkin kredit xətti müəyyən edilir. Növbəti kredit vəsaitinin həcmi bankla Fond arasında qarşılıqlı razılaşma əsasında müəyyən edilir.

**3.2.** Kredit vəsaiti ən çoxu beş il müddətinə verilir və məqsədyönlü istifadə olunduğu halda qarşılıqlı razılığa əsasən müddəti uzadıla bilər. Kredit vəsaiti yalnız tam istifadə olunduqdan sonra müvəkkil banklar tərəfindən yeni kredit xəttlərinin açılması üçün müraciət edilə bilər.Müvəkkil bankların layihə çərçivəsində cəlb etdikləri vəsaitlər, onların məcmu kapitallarının 30%-dən çox olmamalıdır.

**3.3.** Kredit xətti 6 (altı) aydan çox müddətdə istifadə olunmazsa, kreditin istifadə olunmayan hissəsinə müvəkkil banklar tərəfindən komissyon haqqı ödənilir. Komissyon haqqın Qaydaları məbləği bu Qanunların 3,1-ci bəndində göstərilən müqavilədə müəyyən edilir.

**3.4.** Müvəkkil banklar kreditin istifadə etdikləri məbləğləri üzrə faiz borclarını, növbəti rübdən başlamaqla hər rübün son iş günü ödəyirlər. İstifadə edilməmiş məbləğlər üzrə komissiyon haqları isə 7-ci aydan başlayaraq ötən dövr üçün hər rübün son günü ödənilir. Əsas borc kreditin müddəti bitdikdən sonra növbəti 5 gün ərzində tam həcmdə ödənilir.



**3.5.** Müvəkkil bankların Fond qarşısında öhdəliyi, onların son istifadəçilərlə (benefisarlarla) olan münasibətlərindən asılı deyil. Son istifadəçilər tərəfindən kreditlərin qaytarılmasından asılı olmayaraq, müvəkkil banklar Fond qarşısında öz öhdəliklərini yerinə yetirməlidirlər. Müvəkkil banklar Fond qarşısında öhdəliklərinin gecikdirildiyi hər gün üçün 0,1%, lakin kreditin istifadə olunmuş hissəsinin 10%-dən çox olmamaqla cərimə ödəyirlər.

**3.6.** Fond müvəkkil bankların (o cümlədən, layihə üzrə son istifadəçilər, (benefisiarlar) qarşısında) öhdəliklərinə cavabdeh deyil və kreditlər bu məqsədlərlə istifadə edilə bilməz. Fondun vəsaitlərinin son istifadəçiləri kiçik və orta sahibkarlıq subyektləridir.

## IV. Kreditlərin son istifadəçilərə (benefisiarlara) ayrılması və onların istifadə edilməsi

**4.1.** Müvəkkil banklar bu Qaydalara uyğun olaraq Fondun vəsaitlərini öz adlarından və öz riskləri hesabına yerləşdirirlər.

**4.2.** Sahibkarlar layihə çərçivəsində kreditlərin ayrılması üçün müvəkkil banklara müraciət edirlər. Müvəkkil banklarda bu müraciətlərə baxılır, zəruri sənədlərin tərtib olunması və layihə üzrə digər tələblərin müraciətçi tərəfindən icrası araşdırılır və banklar tərəfindən kredit verilməsi barədə qərar qəbul olunur.

**4.3.** İlkin ekspertiza tamamlandıqdan və bütün tələblər icra edildikdən sonra Fonda kredit vəsaitinin ayrılması barədə sifariş göndərilir. Sifarişin qəbul olunmasının növbəti iş günü Fond kredit vəsaiti çərçivəsində vəsaitlərin müvəkkil banka ayrılmasına göstəriş verir. Müvəkkil bank göstərişi aldıqdan sonra bir iş günü ərzində vəsaiti istifadəçinin hesabına köçürür və bu barədə Fonda məlumat verir. Vəsaitlər müxbir hesaba daxil olandan bir gün sonra müvəkkil banklar son istifadəçilərə vəsaitlərdən istifadə etmək hüquqlarını təsdiq edən bildiriş təqdim edirlər. Həmin tarixdən sonra istifadəçilər layihə çərçivəsində kredit vəsaitlərindən istifadə edirlər.

## V. KREDİTLƏRİN HƏDLƏRİ

Müvəkkil banklar Fondun vəsaitlərindən aşağıdakı həcmdə kredit kimi istifadə edirlər:

— 1000 ABŞ dolları ekvivalentinədək-mikrokreditlər;

— 1000 ABŞ dollarından 10 000 ABŞ dolları ekvivalentinədək-kiçik həcmli kreditlər;

— 10000 ABŞ dollarından 30000 ABŞ dolları ekvivalentinədək-orta həcmli kreditlər;

— 30000 ABŞ dollarından 100000 ABŞ dolları ekvivalentinədək-böyük həcmli kreditlər.

## VI. KREDİTLƏRİN MÜDDƏTİ VƏ FAİZLƏRİ

**6.1.** Fondun kreditlərinin ən uzun müddətləri istifadə olunacaqları istiqamətlərdən asılı olaraq aşağıdakı kimi müəyyən edilir.

— Mikrokredit və kiçik həcmli kreditlər üçün 1,5 ilədək;

— 30000 ABŞ dolları ekvivalentinə qədər kreditlər üçün 3 ilədək;

— 30000 ABŞ dolları ekvivalentindən artıq kreditlər üçün 5 ilədək.

**6.2.** Fondun kreditlərinin illik faizləri aşağıdakı kimi müəyyən edilir:

— kütləvi informasiya vasitələrinin inkişafı layihələrinin maliyyələşdirilməsi üzrə-kredit məbləğinin 0,5%-i həcmində;

— istehsal və emal yönümlü layihələrin maliyyələşdirilməsi üzrə-kredit məbləğinin 2%-i həcmində;

— qeyri-istehsal sahələri üzrə layihələrin maliyyələşdirilməsi üzrə-kredit məbləğinin 4 %-i həcmində;

— mikrokreditlər üzrə-kredit məbləğinin 1,5 %-i həcmində.

**6.3.** Müvəkkil bankların Fondun kreditlərinə tətbiq etdiyi illik faiz dərəcəsinin ən yüksək həddi bu Qaydaların 6.1-ci bəndində nəzərdə tutulmuş faizlər də daxil olmaqla cəmi kredit məbləğinin 7 %-indən (kütləvi informasiya vasitələrinin inkişafı üzrə layihələrin maliyyələşdirilməsi üzrə kredit məbləğinin 5 %-dən) artıq olmamalıdır.



## VII. GÜZƏŞT MÜDDƏTİ

Kreditlərin istifadə müddətlərinin ilk 2/3 dövrünə güzəşt müddəti müəyyən edilir. Güzəşt müddətində son istifadəçilər yalnız faiz borclarını ödəyir, əsas borc üzrə isə hər hansı ödəniş həyata keçirmirlər.

## VIII. KREDİTLƏRƏ XİDMƏT OLUNMASI

Son istifadəçilər alınmış kreditlər üzrə borclarını hər rübün son iş günü ödəyirlər. Əsas borc isə güzəşt müddəti bitdikdən sonra növbəti aydan başlayaraq hər ayın son iş günü bərabər hissələrlə ödənilir.

## IX. LAYİHƏNİN MONİTORİNQİ

**9.1.** Müvəkkil banklar tərəfindən son istifadəçilərin mütəmadi olaraq monitorinqi aparılır və Fonda rüblük olaraq hesabatlar verilir. Vəsaitlərin təyinatı üzrə istifadəsinə nəzarət etmək məqsədilə Fond tərəfindən məqsədyönlü monitorinqlər aparılır.

Monitorinq zamanı kredit müqaviləsinin şərtlərinin pozulması halları aşkar edildikdə, bank sahibkarlara kredit və faiz borcunun vaxtından əvvəl qaytarılması barədə göstəriş verir. Belə sahibkarlara gələcəkdə layihə çərçivəsində kreditlərin verilməsi qadağan edilir.

Əgər layihə üzrə müəyyən edilmiş şərtlərin müvəkkil banklar tərəfindən pozulması aşkar edilərsə, bu banklar layihədən kənarlaşdırılır və onların son istifadəçilər (benifisiarlar) tərəfindən öhdəliklərinin yerinə yetirilməsindən asılı olmayaraq, Fond qarşısında əsas borc və kredit faizləri təxirə salınmadan ödənilir.

# Bəzi fəaliyyət növlərinə xüsusi razılıq (lisenziya) verilməsi qaydalarının təkmilləşdirilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin FƏRMANI

Ölkədə sahibkarlığın inkişafı sahəsində dövlət siyasətinin həyata keçirilməsində mühüm rol oynayan amillərdən biri bəzi sahibkarlıq fəaliyyəti növlərinin lisenziyalaşdırılmasıdır. Son illər bu sahədə bir sıra işlərin görülməsinə baxmayaraq, hələ də sahibkarlığın inkişafına mane olan hallar tam aradan qaldırılmamışdır. Belə ki, mövcud lisenziyalaşdırma sistemi xüsusi icazə verən dövlət orqanları tərəfindən sahibkarlıq fəaliyyəti ilə məşğul olanlara təzyiq vasitəsinə çevrilmiş, bəzi hallarda isə rüşvətxorluğun yayılmasına şərait yaratmışdır. Ölkədə 240-dan çox fəaliyyət növünün xüsusi icazə əsasında fəaliyyəti və lisenziyanın qısa müddətə verilməsi, faktiki olaraq, sahibkarlığın inkişafına, iqtisadiyyata investisiya qoyuluşu prosesinə mənfi təsir etmiş, sağlam rəqabət mühitinin formalaşması və istehlakçıların hüquqlarının qorunması sahəsində dövlət siyasətinin gerçəkləşdirilməsi yolunda inzibati-bürokratik əngələ çevrilmişdir.

Sahibkarlığın inkişafına dövlət qayğısının artırılması yuxarıda göstərilən nöqsanların qısa müddətdə aradan qaldırılmasını, ilk növbədə, xüsusi icazə tələb edən fəaliyyət növlərinin sayının kəskin surətdə azaldılmasını, lisenziya müddətinin uzadılmasını, lisenziya verilməsi prosesində dövlət orqanları tərəfindən sui-istifadə hallarına yol verməyən və bu işdə şəffaflığı təmin edən qaydaların tətbiqini zəruri edir.

Azərbaycan Respublikasında sahibkarlığın inkişafı üçün mövcud mühiti yaxşılaşdırmaq və bəzi fəaliyyət növlərinə lisenziya verilməsi qaydalarını daha da təkmilləşdirmək məqsədi ilə qərara alıram:

**1.** "Azərbaycan Respublikasında bəzi fəaliyyət növlərinə xüsusi razılıq (lisenziya) verilməsi haqqında Qaydalar" (əlavə 1) təsdiq edilsin.



**2.** "Xüsusi razılıq (lisenziya) tələb olunan fəaliyyət növlərinin və onu verən icra hakimiyyəti orqanlarının siyahısı (əlavə 2) təsdiq edilsin.

**3.** "Naxçıvan Muxtar Respublikasının İcra hakimiyyəti orqanları tərəfindən xüsusi razılıq (lisenziya) verilən fəaliyyət növlərinin siyahısı (əlavə 3) təsdiq edilsin.

**4.** Sahibkarların hüquqlarının müdafiəsi ilə bağlı bəzi fəaliyyət növlərinə xüsusi razılıq verilməsi sahəsində dövlət tənzimlənməsini və bu sahədə metodiki rəhbərliyi həyata keçirtmək məqsədilə lisenziyalaşdırma sahəsində xüsusi səlahiyyətli orqan funksiyası Azərbaycan Respublikasının İqtisadi İnkişaf Nazirliyinə həvalə edilsin.

Azərbaycan Respublikasının İqtisadi İnkişaf Nazirliyinin lisenziyalaşdırma sahəsində xüsusi səlahiyyətləri bu Fərmanın əlavəsində verilən "Azərbaycan Respublikasında bəzi fəaliyyət növlərinə xüsusi razılıq (lisenziya) verilməsi haqqında Qaydalarla müəyyən edilir.

**5.** Azərbaycan Respublikasının Nazirlər Kabinetinə tapşırılsın:

— bu Fərmanın 2 saylı əlavəsində göstərilən fəaliyyət növlərinin xüsusiyyətindən asılı olaraq, xüsusi razılıq (lisenziya) verilməsi üçün tələb olunan əlavə şərtləri müəyyənləşdirib təsdiq etsin;

— qüvvədə olan qanunvericilik aktlarının bu Fərmana uyğunlaşdırılması haqqında təkliflərini bir ay müddətində Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

— Nazirlər Kabinetinin və müvafiq icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının bu Fərmana uyğunlaşdırılmasını təmin etsin və bu barədə Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

— bu Fərmandan irəli gələn digər məsələləri həll etsin.

**6.** Müəyyən edilsin ki:

— bu Fərmanın 3 saylı əlavəsində göstərilən bəzi fəaliyyət növləri üzrə xüsusi razılıq (lisenziya) Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti tərəfindən müəyyən edilən müvafiq icra hakimiyyəti orqanı tərəfindən verilir;

— Naxçıvan Muxtar Respublikasının müvafiq icra hakimiyyəti orqanları tərəfindən verilən xüsusi razılıq (lisenziya) yalnız Naxçıvan Muxtar Respublikasının ərazisində qüvvədədir.

7. Bu Fərmanla lisenziyalaşdırılması nəzərdə tutulan fəaliyyət növləri üzrə bu Fərman qüvvəyə minənədək verilmiş lisenziyalar öz hüquqi qüvvəsini onlarda göstərilmiş tarixədək saxlayırlar.

8. Azərbaycan Respublikası Prezidentinin "Bəzi sahibkarlıq fəaliyyəti növlərinə xüsusi razılıq (lisenziya) verilməsi haqqında" 1997-ci il 27 yanvar tarixli 543 saylı, "Xüsusi razılıq (lisenziya) tələb olunan fəaliyyət növlərinin siyahısının təsdiq edilməsi haqqında" 1997-ci il 4 oktyabr tarixli 637 saylı, "Qiymətli kağızlarla fəaliyyət sahəsindən bəzi fəaliyyət növlərinin lisenziyalaşdırılması qaydalarının təsdiq edilməsi haqqında" 1999-cu il 8 noyabr tarixli 202 saylı və "Naxçıvan Muxtar Respublikasının icra orqanları tərəfindən bir sıra fəaliyyət növlərinə xüsusi razılığın (lisenziyanın) verilməsi haqqında" 21 dekabr 2001-ci il tarixli 605 saylı fərmanları və Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Respublikasında bəzi sahibkarlıq fəaliyyəti növlərinə xüsusi razılıq (lisenziya) verilməsinin təkmilləşdirilməsi haqqında" 2000-ci il 28 mart tarixli 310 saylı Fərmanının 1-ci, 5-ci və 6-cı bəndləri qüvvədən düşmüş hesab edilsin.

9. Bu Fərman dərc olunduğu gündən qüvvəyə minir.

**Heydər ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**

**Bakı şəhəri, 2 sentyabr 2002-ci il.**



**Əlavə 1.**
**Azərbaycan Respublikası Prezidentinin**
**2 sentyabr 2002-ci il tarixli fərmanı ilə təsdiq edilmişdir.**

# Azərbaycan Respublikasında bəzi fəaliyyət növlərinə xüsusi razılıq (lisenziya) verilməsi haqqında QAYDALAR

## 1. Ümumi müddəalar

**1.1.** Bu Qaydalar Azərbaycan Respublikasının Mülki Məcəlləsinə, "Sahibkarlıq fəaliyyəti haqqında" Azərbaycan Respublikası Qanununa əsasən hazırlanmışdır və bəzi fəaliyyət növləri ilə məşğul olmaq üçün xüsusi razılıq (lisenziya) verilməsi qaydalarını tənzimləyir.

**1.2.** Lisenziya—təşkilati-hüquqi formasından asılı olmayaraq bütün hüquqi şəxslərə və hüquqi şəxs yaratmadan sahibkarlıq fəaliyyəti ilə məşğul olan fiziki şəxsə (bundan sonra-ərizəçi) müvafiq sahibkarlıq fəaliyyəti növlərini həyata keçirməyə icazə verən rəsmi sənəddir.

**1.3.** Lisenziya hər bir fəaliyyət növü üçün ayrıca verilir. Ərizəçinin fəaliyyəti çoxprofilli (çoxyönümlü) olduqda, o bir neçə lisenziyaya malik ola bilər. Ərizəçi yalnız lisenziya aldıqdan sonra həmin lisenziyada göstərilən fəaliyyət növü ilə müəyyən edilmiş qaydada və müddətdə məşğul ola bilər.

**1.4.** Xarici hüquqi və fiziki şəxslər, habelə xarici hüquqi şəxslərin filialları və nümayəndəlikləri öz öhdəliklərində bu Qaydalarda göstərilən fəaliyyət növü ilə məşğul olmaq üçün aldıqları lisenziyaların Azərbaycan Respublikasında tanınmasını müəyyən edən dövlətlərarası saziş olmadığı halda, həmin fəaliyyət növü ilə məşğul olmaq üçün bu qaydalara uyğun olaraq, lisenziya almalıdırlar.

**1.5.** Lisenziyanın sahibi ona verilən lisenziyadan yalnız özü istifadə edə bilər və onu başqa şəxsə verə bilməz. Verilmiş lisenziyanın qüvvəsi lisenziya sahibinin təsisçisi olduğu hüquqi şəxslərə, habelə lisenziyanın sahibi ilə birgə fəaliyyət, o cümlədən onunla əməkdaşlıq

barədə bağlanmış müqavilə əsasında fəaliyyət göstərən başqa şəxslərə şamil edilmir.

**1.6.** Fərdi əmək müqaviləsi (kontrakt) və ya tapşırıq əsasında lisenziya sahibinin adından hərəkətlər edən şəxsə müvəqqəti olaraq, lisenziyanın verilməsi lisenziyanın başqa şəxsə verilməsi sayılır.

**1.7.** Lisenziyalaşdırma sahəsində xüsusi səlahiyyətli orqan Azərbaycan Respublikasının İqtisadi İnkişaf Nazirliyidir.

**1.8.** Azərbaycan Respublikasının İqtisadi İnkişaf Nazirliyi:

— lisenziyalaşdırma ilə bağlı dövlət tənzimlənməsinin əsas istiqamətlərini işləyib hazırlayır;

— lisenziyalaşdırma məsələləri üzrə normativ hüquqi aktların layihələrini hazırlayır;

— dövlət orqanları və təsərrüfat subyektləri tərəfindən lisenziyalaşdırma sahəsində qanunvericiliyə riayət edilməsinə nəzarət edir və lisenziyalaşdırma qaydalarının tətbiqinə dair izahatlar verir;

— lisenziya verən dövlət orqanlarına metodiki rəhbərliyi və informasiya təminatını həyata keçirir;

— lisenziyalaşdırma sahəsində sənədlərin formasını və onların doldurulması qaydalarını müəyyən edir;

— ölkədə vahid lisenziya reyestrini aparır;

— lisenziya blanklarının hazırlanmasına sifariş verir, onların bölgüsünü həyata keçirir, bankların istifadəsinin uçot və hesabatlarını aparır.

**1.9.** Azərbaycan Respublikasının İqtisadi İnkişaf Nazirliyinin lisenziyalaşdırma məsələləri üzrə sərəncamı mərkəzi icra hakimiyyəti orqanları, yerli icra hakimiyyəti orqanları və yerli özünüidarəetmə orqanları, hüquqi və fiziki şəxslər üçün məcburidir.

## II. Lisenziyanın verilməsi qaydası

**2.1.** Lisenziya almaq üçün ərizəçi lisenziya verən dövlət orqanına aşağıdakıları təqdim edir;

**2.1.1.** Lisenziya almaq üçün ərizə. Ərizədə aşağıdakılar öz əksini tapmalıdır:

— hüquqi şəxslər üçün-adı, təşkilati-hüquqi forması, hüquqi ünvanı, hesablaşma hesabının nömrəsi və bankın adı, fəaliyyət növü;

— fiziki şəxslər üçün-adı, atasının adı, soyadı, şəxsiyyət vəsiqəsinə dair məlumatlar (seriya, nömrə, nə vaxt və kim tərəfindən verilmişdir, ünvanı), fəaliyyət növü;

**2.1.2.** Hüquqi şəxsin dövlət qeydiyyatı haqqında şəhadətnaməsinin surəti;

**2.1.3.** ərizəçinin vergi orqanları tərəfindən uçota alınması haqqında müvafiq sənədin surəti;

**2.1.4.** ərizədə qeyd olunan obyektlərdən hər biri üçün ərizəçinin istifadə hüququnu (mülkiyyət hüququ, icarə, istifadə və s. əsasları) təsdiq edən sənədin surəti;

**2.1.5.** bu Qaydaların 2.9-cu bəndinə uyğun olaraq, lisenziya almaq üçün dövlət rüsumunun ödənildiyini təsdiq edən sənəd;

**2.1.6.** fəaliyyət növünün xüsusiyyətindən asılı olaraq, Azərbaycan Respublikasının Nazirlər Kabineti tərəfindən müəyyən edilən əlavə şərtləri əks etdirən sənədlər.

**2.2.** Ərizəçidən bu Qaydalarda nəzərdə tutulmayan sənədlərin tələb olunması qadağandır.

**2.3.** Lisenziya verən dövlət orqanı zərurət olduqda konkret fəaliyyət növü ilə məşğul olmaq üçün həmin fəaliyyət növünün xüsusiyyətindən asılı olaraq, müvafiq rəy alınması üçün aidiyyəti dövlət orqanlarına müraciət edə bilər.

**2.4.** Lisenziya verən dövlət orqanı tərəfindən rəy alınması üçün aidiyyəti dövlət orqanına göndərilmiş müraciətə 5 gün müddətində baxılaraq rəy verilir.

**2.5.** Lisenziya almaq üçün təqdim edilən sənədlər lisenziya verən dövlət orqanı tərəfindən qəbul edilir, xüsusi kitabda qeydə alınır, baxılır, çatışmazlıqlar və ya imtina üçün əsas olmadıqda qeydə alındığı gündən başlayaraq, 15 gündən gec olmayaraq, lisenziya verilməsi haqqında qərar qəbul edilir.

**2.6.** Təqdim edilmiş sənədlərdə çatışmazlıqlar aşkar edildikdə, bu barədə ərizəçiyə 5 gündən gec olmayaraq, yazılı məlumat verilir. Onlar aradan qaldırıldıqdan və sənədlər təkrar təqdim edildikdən sonra onlara 5 gün müddətində baxılır və müvafiq qərar qəbul edilir.

**2.7.** Ərizəçiyə lisenziya verilməsindən imtina edildikdə bu barədə ona imtinanın səbəbləri göstərilməklə beş gün müddətində yazılı məlumat verilir.

**2.8.** Lisenziyanın verilməsindən yalnız qanunla nəzərdə tutulmuş hallarda imtina oluna bilər və bu imtinadan qanunvericiliyə uyğun olaraq, məhkəməyə şikayət verilə bilər.

**2.9.** Lisenziyanın verilməsindən imtina edilmədikdə ərizəçi lisenziya verilməsinə görə dövlət rüsumunun ödənildiyini təsdiq edən sənəd təqdim edir.

**2.10.** Hüquqi şəxs ləğv edildikdə, fiziki şəxs vəfat etdikdə, həmin şəxslərə verilən lisenziya da öz hüquqi qüvvəsini itirir.

**2.11.** Hüquqi şəxs yenidən təşkil edildikdə, onun adı dəyişdirildikdə, fiziki şəxsin vəsiqəsinə dair məlumatlar (seriya, nömrə, kim tərəfindən və nə vaxt verilmişdir, ünvanı) dəyişdikdə, yaxud lisenziya itirildikdə ərizəçi 15 gün müddətində lisenziyanın yenidən rəsmiləşdirilməsi üçün ərizə təqdim etməlidir.

**2.12.** Lisenziyanın yenidən rəsmiləşdirildiyi müddətdə ərizəçi öz fəaliyyətini əvvəlki lisenziya əsasında, lisenziya itirildikdə isə müvafiq dövlət orqanlarının verdiyi müvəqqəti icazə əsasında həyata keçirir. Lisenziya verən dövlət orqanının rəhbəri və ya onun həvalə etdiyi vəzifəli şəxs tərəfindən imzalanmış və möhürlə təsdiq edilmiş müvəqqəti icazə lisenziyanın yenidən rəsmiləşdirilməsi üçün bütün sənədlər təqdim edildikdən sonra verilir.

**2.13.** Lisenziyada aşağıdakılar göstərilir:

**2.13.1.** Lisenziya verən dövlət orqanının adı:

— hüquqi şəxslər üçün-lisenziya verilən hüquqi şəxsin adı və hüquqi ünvanı;

— fiziki şəxslər üçün-adı, atasının adı, soyadı, şəxsiyyət vəsiqəsinə dair məlumat (seriya, nömrə, kim tərəfindən və nə vaxt verilmişdir, ünvanı);

**2.13.2.** həyata keçirilməsinə lisenziya verilən fəaliyyət növü;

**2.13.3.** lisenziyanın qüvvədə olma müddəti;

**2.13.4.** lisenziyanın qeydiyyat nömrəsi və verilmə tarixi.

**2.14.** Lisenziya, lisenziyanı verən dövlət orqanının rəhbəri və ya onun həvalə etdiyi vəzifəli şəxs tərəfindən imzalanır və möhürlə təsdiq edilir.

**2.15.** Lisenziyalaşdırılan fəaliyyət növü ərazi baxımından ayrı-ayrı obyektlərdə həyata keçirildiyi halda, ərizəçiyə lisenziya ilə birlikdə hər bir obyekt üçün onun ünvanı göstərilməklə lisenziyanın surəti təqdim olunur.



## III. Lisenziyanın müddəti

**3.1.** Lisenziya 5 il müddətinə verilir.

**3.2.** Lisenziyanın qüvvədə olma müddətinin uzadılması lisenziyanın mövcudluğunu təsdiq edən sənədin yenidən rəsmiləşdirilməsi qaydasında həyata keçirilir.

**3.3.** Müddəti bitmiş lisenziya etibarsız sayılır.

## IV. Lisenziya tələblərinə və şərtlərinə nəzarət

**4.1.** Lisenziya verən dövlət orqanları hüquqi və fiziki şəxslər tərəfindən lisenziya tələblərinə və şərtlərinə riayət olunmasına nəzarət edirlər.

Bu Qaydaların 4.1-ci bəndində göstərilmiş nəzarət lisenziya almış hüquqi və fiziki şəxslər tərəfindən lisenziya tələblərinə və şərtlərinə riayət olunmasına dair ildə bir dəfə Azərbaycan Respublikasının İqtisadi İnkişaf Nazirliyi tərəfindən müəyyən edilmiş formada məlumatın lisenziya vermiş orqana təqdim edilməsi yolu ilə həyata keçirilir.

**4.2.** Lisenziya verən dövlət orqanlarının nəzarət sahəsində aşağıdakı hüquqları vardır:

**4.2.1.** Lisenziya almış hüquqi və fiziki şəxslərin fəaliyyətinin lisenziya tələblərinə və şərtlərinə uyğunluğunu yoxlamaq;

**4.2.2.** yoxlama zamanı hüquqi və fiziki şəxslərdən zəruri izahat və sənədlər tələb etmək;

**4.2.3.** yoxlamanın nəticələri əsasında pozuntuları konkret göstərməklə akt (protokol) tərtib etmək;

**4.2.4.** aşkar edilmiş nöqsanların aradan qaldırılması üçün qərar çıxarmaq;

**4.2.5.** hüquqi və fiziki şəxslərə xəbərdarlıq etmək.

## V. Lisenziyanın fəaliyyətinin dayandırılması və ya ləğv edilməsi

**5.1.** Lisenziya verən dövlət orqanı, lisenziyanın fəaliyyətini aşağıdakı hallarda dayandırır:

**5.1.1.** lisenziya sahibi tərəfindən müvafiq ərizə təqdim edildikdə;

**5.1.2.** lisenziya sahibi tərəfindən normativ aktlara əməl edilmədikdə, yaxud Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq, müvafiq dövlət orqanı tərəfindən ərizəçinin fəaliyyəti dayandırıldıqda;

**5.1.3.** lisenziya sahibinin müflisləşməsi faktı Azərbaycan Respublikasının qanunvericiliyi ilə təsdiq edildikdə;

**5.1.4.** Azərbaycan Respublikasının qanunvericiliyində nəzərdə tutulan digər hallarda.

**5.2.** Lisenziya verən dövlət orqanı, lisenziyanın fəaliyyətinin dayandırılması haqqında qərar qəbul etdiyi andan 3 gün müddətində yazılı şəkildə lisenziyanın sahibinə və dövlət ərazi vergi xidməti orqanlarına məlumat göndərir.

**5.3.** Lisenziyanın fəaliyyətinin dayandırılmasına səbəb olan hallar aradan qaldırıldıqdan sonra lisenziyanın fəaliyyəti lisenziyanın sahibinin müraciətinə əsasən bərpa edilə bilər. Lisenziya verən dövlət orqanı tərəfindən bu barədə qərar qəbul edildikdə, lisenziya bərpa edilmiş hesab olunur, həmin qərar qəbul edildiyi andan 3 gün müddətində lisenziyanın sahibinə və dövlət ərazi vergi xidməti orqanına məlumat göndərilir.

**5.4.** Lisenziya verən dövlət orqanı lisenziyanı aşağıdakı hallarda ləğv edir:

**5.4.1.** lisenziya sahibi tərəfindən müvafiq ərizə təqdim edildikdə;

**5.4.2.** lisenziya verilməsi üçün təqdim edilən sənədlərdə yanlış məlumat aşkar edildikdə;

**5.4.3.** məhkəmənin müvafiq qərarı olduqda;

**5.4.4.** hüquqi şəxs ləğv edildikdə və fiziki şəxs vəfat etdikdə;

**5.4.5.** Azərbaycan Respublikasının qanunvericiliyində nəzərdə tutulan digər hallarda.

**5.5.** Lisenziya verən dövlət orqanı lisenziyanın ləğv edilməsi haqqında qərar qəbul etdiyi andan 3 gün müddətində yazılı şəkildə lisenziyanın sahibinə və dövlət vergi xidməti orqanlarına məlumat göndərir.



**5.6.** Lisenziya verən dövlət orqanı verdiyi, qeydə aldığı, dayandırdığı, bərpa etdiyi və ləğv etdiyi lisenziyaların reyestrini aparır.

**5.7.** Lisenziya verən dövlət orqanı lisenziyanın reyestrdə qeydə alındığı tarixdən 10 gün müddətində müvafiq məlumatı dövlət ərazi vergi xidməti orqanına göndərir.

## VI. Lisenziya verən dövlət orqanının vəzifəli şəxslərinin və ərizəçilərin məsuliyyəti

**6.1.** Lisenziya verən dövlət orqanlarının vəzifəli şəxsləri lisenziyalaşdırma qaydalarını pozduqda və ya həmin qaydalara riayət etmədikdə, mövcud qanunvericiliyə uyğun məsuliyyət daşıyırlar.

**6.2.** Ərizəçilər təqdim etdikləri sənədlərin və onlarda göstərilən məlumatın düzgünlüyünə görə qanunvericiliyə uyğun məsuliyyət daşıyırlar.

**6.3.** Lisenziya verən dövlət orqanlarının qəbul etdiyi qərarlardan və onların vəzifəli şəxslərinin hərəkətlərindən müəyyən edilmiş qaydada məhkəməyə şikayət verilə bilər.

**Əlavə 2.**
**Azərbaycan Respublikası Prezidentinin 2 sentyabr 2002-ci il tarixli Fərmanı ilə təsdiq edilmişdir.**

# Xüsusi razılıq (lisenziya) tələb olunan fəaliyyət növlərinin SİYAHISI

| Sıra N-si | Fəaliyyət növünün adı | Lisenziya verən İcra Hakimiyyəti orqanı |
|---|---|---|
| 1. | I və II məsuliyyət səviyyəli bina və tikililərin dövlət standartlarına uyğun olaraq layihələndirilməsi və mühəndis axtarışı | Azərbaycan Respublikasının Dövlət Tikinti və Arxitektura Komitəsi |
| 2. | Kartoqrafiya fəaliyyəti | Azərbaycan Respublikasının Dövlət Torpaq və Xəritəçəkmə Komitəsi |
| 3. | Radioaktiv və ionizə şüaları verən maddələrin tullantılarının saxlanması və basdırılması | Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi |
| 4. | "Toksiki istehsalat tullantılarının utilizasiyası və zərərsizləşdirilməsi | Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi |
| 5. | Əlvan metal, tərkibində qiymətli metallar və daşlar olan sənaye və istehsalat tullantılarının tədarükü, emalı və satışı | Azərbaycan Respublikasının İqtisadi İnkişaf Nazirliyi |
| 6. | Neft məhsullarının satışı | Azərbaycan Respublikasının Yanacaq və Energetika Nazirliyi |
| 7. | Qaz məhsullarının satışı | Azərbaycan Respublikasının Yanacaq və Energetika nazirliyi |
| 8. | Tibb fəaliyyəti | Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi |
| 9. | Əczaçılıq fəaliyyəti | Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi |
| 10. | Etil (yeyinti) spirtinin və alkoqollu içkilərin: | |
| | a) istehsalı<br>b) idxalı | Azərbaycan Respublikasının İqtisadi İnkişaf Nazirliyi |
| | c) satışı | Şəhər və rayon (şəhər rayonları istisna olmaqla) icra hakimiyyəti orqanları |
| 11. | Tütün məmulatının: | |
| | a) istehsalı<br>b) idxalı | Azərbaycan Respublikasının İqtisadi İnkişaf Nazirliyi |
| | c) satışı | Şəhər və rayon (şəhər rayonları istisna olmaqla) icra hakimiyyəti orqanları |
| 12. | Əməliyyat-axtarış fəaliyyətinin həyata keçirilməsinə müvəkkil edilməmiş hüquqi və fiziki şəxslər tərəfindən qeyri-leqal yolla informasiya alınması üçün nəzərdə tutulmuş texniki vasitələrin işlənilməsi, istehsalı, satışı, alınması, ölkəyə gətirilməsi və ölkədən çıxarılması | Azərbaycan Respublikasının Milli Təhlükəsizlik Nazirliyi |
| 13. | Su nəqliyyatı ilə yük və sərnişin daşınması | Azərbaycan Respublikasının Nəqliyyat Nazirliyi |
| 14. | Hava nəqliyyatı ilə yük və sərnişin daşınması | Azərbaycan Respublikasının Nəqliyyat Nazirliyi |

| | | |
|---|---|---|
| 15. | Rabitə xidməti (telefon, sellülar, peycinq, radiolranq, kabel televiziyasının qurulması və istismarı, sürətli poçt xidməti) | Azərbaycan Respublikasının Rabitə Nazirliyi |
| 16. | İnformasiya mühafizə vasitələrinin layihələndirilməsi və istehsalı sahəsində fəaliyyət | Azərbaycan Respublikasının Milli Təhlükəsizlik Nazirliyi |
| 17. | Təhsil (orta, orta ixtisas və ali) müəssisələrinin fəaliyyəti | Azərbaycan Respublikasının Təhsil Nazirliyi |
| 18. | Azərbaycan Respublikası vətəndaşlarının xarici ölkələrdə işə düzəlmələrində vasitəçilik fəaliyyəti | Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi |
| 19. | Bank fəaliyyəti | Azərbaycan Respublikasının Milli Bankı |
| 20. | Qeyri-dövlət sosial fondların fəaliyyəti | Azərbaycan Respublikasının Maliyyə Nazirliyi |
| 21. | Sığorta fəaliyyəti | Azərbaycan Respublikasının Maliyyə Nazirliyi |
| 22. | Auditor fəaliyyəti | Azərbaycan Respublikasının Auditorlar Palatası |
| 23. | Əmtəə birjasının fəaliyyəti | Azərbaycan Respublikasının İqtisadi İnkişaf Nazirliyi |
| 24. | Fond birjasının fəaliyyəti | Azərbaycan Respublikasının Prezidenti yanında Qiymətli Kağızlar üzrə Dövlət Komitəsi |

| | | |
|---|---|---|
| 25. | İnvestisiya fondunun fəaliyyəti | Azərbaycan Respublikasının Prezidenti yanında Qiymətli Kağızlar üzrə Dövlət Komitəsi |
| 26. | Qiymətli kağızlar bazarının professional iştirakçılarının fəaliyyəti (broker, diler, qiymətli kağızların idarə edilməsi, qarşılıqlı öhdəliklərin müəyyən edilməsi (klirinq),depozitar, qiymətli kağız sahiblərinin reyestrinin aparılması, qiymətli kağızlar bazarında ticarətin təşkili) | Azərbaycan Respublikasının Prezidenti yanında Qiymətli Kağızlar üzrə Dövlət Komitəsi |
| 27. | Bütün növ qiymətli kağız blanklarının hazırlanması və satışı üzrə fəaliyyət | Azərbaycan Respublikasının Prezidenti yanında Qiymətli Kağızlar üzrə Dövlət Komitəsi |
| 28. | Ciddi hesabat blanklarının hazırlanması | Azərbaycan Respublikasının Maliyyə Nazirliyi |
| 29. | Müxtəlif növ möhürlərin və ştampların hazırlanması | Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi |
| 30. | Turizm fəaliyyəti | Azərbaycan Respublikasının Gənclər, İdman və Turizm Nazirliyi |

Əlavə 3.

Azərbaycan Respublikası Prezidentinin 2 sentyabr 2002-ci il tarixli Fərmanı ilə təsdiq edilmişdir.

## Naxçıvan Muxtar Respublikasının İcra Hakimiyyəti orqanları tərəfindən xüsusi razılıq (lisenziya) verilən fəaliyyət növlərinin SİYAHISI

| Sıra N-si | Fəaliyyət növlərinin adı |
|---|---|
| 1. | Tibb fəaliyyəti |
| 2. | Əczaçılıq fəaliyyəti |
| 3. | Azərbaycan Respublikası vətəndaşlarının xarici ölkələrdə işə düzəlmələrində vasitəçilik fəaliyyəti |
| 4. | Müxtəlif növ möhürlərin və ştampların hazırlanması |
| 5. | Turizm fəaliyyəti |

# AZƏRBAYCAN RESPUBLİKASINDA SAHİBKARLIĞIN İNKİŞAFINA DÖVLƏT HİMAYƏSİ SAHƏSİNDƏ ƏLAVƏ TƏDBİRLƏR HAQQINDA AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN

# FƏRMANI

**Son illər həyata keçirilən iqtisadi islahatlar Azərbaycan Respublikasında sahibkarlığın inkişafına təkan vermiş, əhalinin həyat səviyyəsinin yaxşılaşdırılmasında və iqtisadiyyatının inkişafında sahibkarlığın rolunu artırmışdır. Bununla yanaşı, ölkədə keyfiyyətli məhsul bolluğunun yaradılmasında, rəqabətə davamlı istehsal sahələrinin inkişafında və əhalinin məşğulluğunun təmin olunmasında sahibkarlıq hələ də həlledici amilə çevrilməmişdir. Bu isə öz növbəsində sahibkarlığın daha sürətlə inkişafı üçün dövlət köməyinin artırılmasını zəruri edir.**

**Azərbaycan Respublikasında sahibkarlığın inkişafına dövlət himayəsini daha da artırmaq, sahibkarlıq fəaliyyətinin hüquqi bazasını təkmilləşdirmək və ona zəruri maliyyə dəstəyi vermək məqsədi ilə qərara alıram:**

**1. Azərbaycan Respublikasının Nazirlər Kabineti:**

— ölkədə işgüzar fəaliyyəti həvəsləndirmək məqsədilə 2003-cü il yanvarın 1-dən vergi növləri üzrə dərəcələrin sahələr və regionlar üzrə fərqləndirməklə aşağı salınmasına, sadələşdirilmiş vergi sisteminin tətbiq dairəsinin genişləndirilməsinə, habelə sosial sığorta haqlarının azaldılmasına dair təkliflərini iki həftə müddətində Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

— ölkədə əlverişli sahibkarlıq mühiti yaratmaq məqsədilə Azərbaycan Respublikasının İqtisadi İnkişaf Nazirliyi ilə birlikdə təbii inhisarçı təsərrüfat subyektlərinin (elektrik enerjisi, qaz, su, dəmir yolu, hava və dəniz nəqliyyatı, rabitə xidməti və s.) tariflərinin təkmilləşdirilməsi ilə bağlı iki ay müddətində müvafiq tədbirlər həyata keçirsin və bu barədə Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

— inhisarçı təsərrüfat subyektlərinin xidmətindən istifadəyə görə əvvəlcədən haqq alınması hallarının qarşısının alınması üçün lazımi tədbirlər görsün və nəticəsi barədə bir ay müddətində Azərbaycan Respublikası Prezidentinə məlumat versin;

— 2003-2005-ci illər üzrə Azərbaycan Respublikasının Dövlət büdcəsi layihələrində sahibkarlığın inkişafına 250 milyard manat (o cümlədən 2003-cü ildə 50 milyard manat) vəsait nəzərdə tutulmasını təmin etsin və bu məqsədlə nəzərdə tutulan vəsaitin büdcəyə cəlb edilməsi barədə təkliflərini on beş gün müddətində Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

— məşğulluq tədbirlərinin maliyyələşdirilməsi çərçivəsində yeni iş yerlərinin yaradılması üçün nəzərdə tutulan vəsaitin Azərbaycan Respublikası Sahibkarlığa Kömək Milli Fondunun hesabına köçürülməsini təmin etmək məqsədilə qüvvədə olan qanunvericilik aktlarının dəyişdirilməsinə dair təkliflərini on beş gün müddətində Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

— kiçik və orta sahibkarlığın inkişafına kömək məqsədilə Bakı şəhərində texnoloji biznes-inqubator mərkəzinin və müvafiq kommunikasiya və infrastrukturaya malik olan sənaye şəhərciyinin yaradılması barədə təkliflərini iki ay müddətində hazırlayıb, Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

— beynəlxalq maliyyə-kredit qurumları tərəfindən ölkədə sahibkarlığın maliyyələşdirilməsi üçün ayrılan kredit xətlərinin tam istifadə olunmasına mane olan amillərin aradan qaldırılması və zəruri hallarda təminatların verilməsi barədə iki ay müddətində müvafiq tədbirlər görsün və bununla bağlı Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

— ölkədə daxili bazarın qorunması və ixracın həvəsləndirilməsi siyasətini təmin edən gömrük rüsumlarının tətbiqini həyata keçirsin;

— sərbəst gömrük zonasının və gömrük anbarlarının yaradılması sahəsində müvafiq təkliflər hazırlayıb bir ay müddətində Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin.

**2. Azərbaycan Respublikasının Milli Məclisinə tövsiyə edilsin ki, "Hüquqi şəxslərin dövlət qeydiyyatı və reyestri" və "Daşınmaz əmlakın dövlət reyestri haqqında" Azərbaycan Respublikası qanunlarının layihələrinin müzakirəsini və qəbulunu sürətləndirsin.**



Azərbaycan Respublikasının Nazirlər Kabineti sahibkarlıq subyektlərinin investisiya layihələrinin kredit təşkilatları tərəfindən maliyyələşdirilməsinə əlverişli şərait yaratmaq məqsədilə Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi ilə birlikdə girov (ipoteka) müqavilələrinin dövlət qeydiyyatının aparılması üçün ölkədə daşınmaz əmlakın vahid dövlət reyestrinin yaradılması ilə bağlı zəruri təşkilati-texniki tədbirlər həyata keçirsin və bu barədə Azərbaycan Respublikasının Prezidentinə məlumat versin.

**3. Azərbaycan Respublikasının İqtisadi İnkişaf Nazirliyi:**

— iqtisadiyyatda inhisarçılığın məhdudlaşdırılması və sağlam rəqabətin inkişafı məqsədilə əmtəə bazarlarında inhisarçı mövqe tutan təsərrüfat subyektlərinə qarşı qanunvericilikdə nəzərdə tutulmuş tədbirlər həyata keçirsin və bu sahədə görülən işlər barədə ildə iki dəfə Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

— onun sərəncamına verilmiş dövlət müəssisələrinin və obyektlərinin özəlləşdirilməsini sürətləndirsin;

— dövlət əmlakının özəlləşdirilməsi ilə bağlı keçirilən hərracların tam aşkarlıq şəraitində aparılmasını, əhalidə olan dövlət özəlləşdirmə paylarından (çeklərdən) istifadə üçün şəraitin yaxşılaşdırılmasını təmin etsin;

— dövlət əmlakının özəlləşdirilməsi prosesinin gedişi barədə rübdə bir dəfə Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

— dövlət əmlakının icarəyə verilməsi işini təkmilləşdirsin;

— kiçik və orta sahibkarların, habelə sənətkarlıq məhsullarının satışına dəstək vermək məqsədilə Bakı şəhər İcra hakimiyyəti ilə birlikdə Bakı şəhərində daimi fəaliyyət göstərən Sərgi-satış Mərkəzinin yaradılması məsələsini həll etsin;

— şəhər və rayon icra hakimiyyətləri ilə birlikdə ayrı-ayrı rayonlarda sahibkarların biznes mərkəzlərinin yaradılması üçün zəruri tədbirlər həyata keçirsin, onlara dövlət yardımı göstərilməsi barədə təkliflərini hazırlayıb, Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin.

**4. Azərbaycan Respublikası Maliyyə Nazirliyi:**

— 2002-ci ilin dövlət büdcəsində kiçik sahibkarlığa investisiya yardımı üçün nəzərdə tutulmuş vəsaitin cari ilin sonunadək Azərbay-

can Respublikası Sahibkarlığa Kömək Milli Fondunun hesabına köçürülməsini təmin etsin. Azərbaycan Respublikasının İqtisadi İnkişaf Nazirliyi bu vəsaitin qanunvericiliyə uyğun olaraq, sahibkarlara ayrılması və məqsədli istifadəsi üçün zəruri tədbirlər görsün;

— Azərbaycan Respublikasının Vergilər Nazirliyi ilə birlikdə sahibkarlar tərəfindən dövlət büdcəsinə artıq ödənilmiş vergilərin qaytarılması və ya gələcək ödənişlərin hesabına aid edilməsi məqsədilə iki ay müddətində tədbirlər hazırlayıb, həyata keçirsin və görülən işlər barədə Azərbaycan Respublikasının Prezidentinə məlumat versin.

**5. Azərbaycan Respublikası Milli Bankı:**

— ölkədə kreditlər üzrə formalaşmış illik faiz dərəcələrini aşağı salmaq məqsədilə mərkəzləşdirilmiş kredit üçün uçot dərəcəsinin azaldılmasını təmin etsin və onun gələcəkdə makroiqtisadi vəziyyətdən və inflyasiyanın səviyyəsindən asılı olaraq, çevik tənzimlənməsini davam etdirsin;

— Azərbaycan Respublikasının İqtisadi İnkişaf Nazirliyi və Azərbaycan Respublikasının Maliyyə Nazirliyi ilə birlikdə kommersiya banklarını istehsal yönümlü layihələrin kreditləşdirilməsində, verilən kreditlərin strukturunda uzunmüddətli kreditlərin xüsusi çəkisinin artırılmasında maraqlandırmaq məqsədilə təşviqedici tədbirlər barədə təkliflər hazırlayıb, on gün müddətində Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

— Azərbaycan Respublikasının İqtisadi İnkişaf Nazirliyi və Azərbaycan Respublikasının Maliyyə Nazirliyi ilə birlikdə sahibkarlığa maliyyə dəstəyini daha da yaxşılaşdırmaq məqsədi ilə xarici investorların təsisçiliyi ilə mikrokredit bankının yaradılması istiqamətində görülən işləri sürətləndirsin və üç ay müddətində həmin bankın yaradılmasını başa çatdırsın.

**6. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi:**

— sahibkarlıq fəaliyyəti sahəsində dövlət qeydiyyatı ilə bağlı süründürməçilik hallarını aradan qaldırsın, dövlət qeydiyyatı prosedurunu sadələşdirsin;

— mülkiyyətçilərin əmlak üzərində mülkiyyət hüquqlarını məhdudlaşdıran və Azərbaycan Respublikasının qanunlarına zidd olaraq hüquqi şəxslərin və vətəndaşların sahibkarlıq fəaliyyəti ilə məşğul olmaları üçün süni maneələr yaradan icra hakimiyyəti orqanlarının, bələdiyyələrin, Azərbaycan Respublikası Milli Bankının normativ xarakterli aktlarının dövlət qeydiyyatına alınması hallarına yol verməsin və bu sahədə nəzarəti gücləndirsin.

**7. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi** iqtisadi əlaqələri daha da genişləndirmək, iş adamlarının ölkəyə gəlişini asanlaşdırmaq, iqtisadiyyata daha çox investisiya cəlb etmək məqsədilə sənədlərin leqallaşdırılması və viza rejiminin sadələşdirilməsi məsələlərini həll etsin, bu sahədə olan nöqsanları aradan qaldırsın, görülən işlər barəsində on beş gün müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin.

**8. Azərbaycan Respublikasında fəaliyyət göstərmək istəyən iş adamlarının** nəzərinə çatdırılsın ki, Azərbaycan Respublikasının müvafiq qanunu ilə ölkədə hər kəsin varidatına, o cümlədən Azərbaycan Respublikası vətəndaşlarının xarici ölkələrdə sahibkarlıq fəaliyyəti nəticəsində əldə etdikləri və investisiyaya yönəltmək üçün Azərbaycan Respublikasına gətirdikləri pul vəsaitinin və digər əmlakının toxunulmazlığına tam təminat verilir. Hər kəs öz varidatını izahat vermədən, deklorasiya və ya başqa sənəd təqdim etmədən qanunvericiliklə qadağan edilməyən istənilən fəaliyyət sahələrinə sərbəst yönəldə bilər.

**9. "Azərbaycan Respublikasının 2002-ci il dövlət büdcəsi haqqında"** Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin 2001-ci il 26 dekabr tarixli 612 saylı Fərmanının 2-ci bəndinin ikinci abzası qüvvədən düşmüş hesab edilsin.

**10. Bu Fərman dərc olunduğu gündən qüvvəyə minir.**

**Heydər ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**

**Bakı şəhəri, 10 sentyabr 2002-ci il.**

# Sahibkarlığın inkişafına mane olan müdaxilələrin qarşısının alınması haqqında AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

Azərbaycan Respublikasında sahibkarlığın inkişafı məqsədilə son illər xüsusi dövlət proqramları və sahibkarlıq fəaliyyətinə mane olan bürokratik əngəllərin və yoxlamaların aradan qaldırılmasına yönəldilmiş qərarlar qəbul edilmiş və digər tədbirlər həyata keçirilmişdir. Onların arasında Azərbaycan Respublikası Prezidentinin "İstehsalat, xidmət, maliyyə-kredit fəaliyyətinə dövlət nəzarətinin qaydaya salınması və əsassız yoxlamaların qadağan edilməsi barədə" 1996-cı il 17 iyun tarixli 463 saylı və "Dövlət nəzarəti sisteminin təkmilləşdirilməsi və sahibkarlığın inkişafı sahəsində süni manеələrin aradan qaldırılması haqqında" 1999-cu il 7 yanvar tarixli 69 saylı fərmanları, Azərbaycan Respublikası Prezidentinin 1997-ci il 24 iyun tarixli 610 saylı Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında kiçik və orta sahibkarlığa dövlət köməyi proqramı (1997-2000-ci illər)" xüsusi yer tutur. Bu tədbirlərin və eləcə də həyata keçirilən iqtisadi islahatların nəticəsi olaraq, hazırda ölkədə ümumi daxili məhsul istehsalının 71 faizi, o cümlədən sənayedə 50 faizi, kənd təsərrüfatında və ticarətdə 99 faizi özəl bölmələrin payına düşür.

Eyni zamanda qeyd etmək lazımdır ki, sahibkarlığın inkişafı ilə bağlı görülən işlərə baxmayaraq, bu sahədə bir sıra problemlər hələ də tam aradan qaldırılmamışdır. Bu gün sahibkarlığın dövlət tənzimlənməsini həyata keçirən bir sıra mərkəzi, şəhər və rayon icra hakimiyyəti orqanlarının işi qənaətbəxş sayıla bilməz. Belə ki, ayrı-ayrı mərkəzi və yerli icra hakimiyyəti orqanları, o cümlədən vergi, gömrük, hüquq-mühafizə və sanitar-epidemioloji xidmət orqanları tərəfindən sahibkarların fəaliyyətinə yerli-yersiz müdaxilələr edilir, müxtəlif yoxlamalar aparmaqla onların işinə maneçilik törədilir. Məhkəmələr tərəfindən iqtisadi mübahisələrin həllində süründürməçilik və qeyri-obyektiv qərarların qəbul olunması hallarına rast gəlinir. Bütün bunlar sahibkarlıq fəaliyyəti ilə məşğul olan adamların haqlı narazılığına səbəb olur, onların sahibkarlıq təşəbbüsünün reallaşmasına və daxili potensialdan daha dolğun istifadə edilməsinə imkan vermir.



Ölkədə sahibkarlığın inkişafını daha da sürətləndirmək və ona mane olan əsassız müdaxilələrin qarşısını almaq məqsədi ilə **qərara alıram:**

**1.** Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin İqtisadiyyatda Cinayətkarlıqla Mübarizə İdarəsi ləğv edilsin.

Hüquq-mühafizə orqanlarının (məhkəmənin qərarları əsasında hallar istisna olmaqla) sahibkarlıq subyektlərinə müdaxilələri qadağan edilsin.

**2.** Azərbaycan Respublikasının Vergilər Nazirliyi:

— vergilərin ödənilməsinə yol verilən nöqsanları, o cümlədən vergilərin əvvəlcədən qanunsuz ödənilməsi hallarını aradan qaldırsın;

— vergi yoxlamalarının qanunvericilikdə nəzərdə tutulmuş vaxtdan uzun müddətə aparılmasına və onun səlahiyyətinə aid olmayan yoxlamaların aparılmasına yol verməsin;

— vergi orqanları tərəfindən həyata keçirilən səyyar vergi yoxlamalarının sayını azaltsın və bir-birini təkrarlayan əsassız yoxlamaların qarşısını alsın;

— vergi orqanlarının vəzifəli şəxslərinin qanunvericiliklə nəzərdə tutulmuş vəzifələrinə əməl etməsinə ciddi nəzarət etsin və vergi ödəyicilərinə xidmət sahəsində süründürməçiliyin aradan qaldırılmasını təmin etsin;

— vergi orqanlarının vəzifəli şəxslərinin hərəkətlərindən (hərəkətsizliyindən) şikayətlərə vaxtında və obyektiv baxılmasını təmin edən müvafiq tədbirlər görsün;

— vergi orqanları tərəfindən təsərrüfat subyektlərinin fəaliyyətinin, o cümlədən bank hesabları üzrə əməliyyatlarının qeyri-qanuni surətdə məhdudlaşdırılması hallarının qarşısını alsın;

— vergi nəzarəti işinin qanunvericiliyə uyğun olaraq aparılmasını təmin etsin;

— bu Fərmanın 2-ci bəndində müəyyən edilmiş tədbirlərin yerinə yetirilməsi barədə Azərbaycan Respublikasının Prezidentinə mütəmadi olaraq məlumat versin.

**3.** Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi

gömrük orqanları tərəfindən sahibkarlıq fəaliyyətinə qanunsuz müdaxilə hallarına son qoyulmasını təmin etsin, onların işini təkmilləşdirsin, qaçaqmalçılığa qarşı nəzarəti gücləndirsin və görülən işlər barədə Azərbaycan Respublikasının Prezidentinə məlumat versin.

**4.** Azərbaycan Respublikası Rabitə Nazirliyinin, Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin və digər aidiyyəti mərkəzi icra hakimiyyəti orqanlarının rəhbərliyinə tapşırılsın ki, həmin orqanlar və onların qurumları tərəfindən aparılan qanunsuz yoxlamaları və sahibkarlara törədilən maneələri aradan qaldırsınlar, gələcəkdə sahibkarların fəaliyyətinə qeyri-qanuni müdaxilə hallarına yol verilməməsi üçün zəruri tədbirlər görsünlər.

**5.** Şəhər və rayon icra hakimiyyəti başçılarına tapşırılsın ki, həmin orqanların nəzarət və yoxlama funksiyalarını yerinə yetirən müxtəlif qurumlarını (departament, idarə, mərkəz, büro və s.) on gün müddətində ləğv etsinlər və bu barədə Azərbaycan Respublikasının Prezidentinə məlumat versinlər.

**6.** Müəyyən edilsin ki, dövlət orqanları tərəfindən (vergi orqanları istisna olmaqla) sahibkarlıq subyektlərində yoxlamalar qanunvericiliklə müəyyən edilmiş hallarda və qaydada yalnız Azərbaycan Respublikası İqtisadi İnkişaf Nazirliyinin nümayəndəsinin iştirakı ilə həyata keçirilə bilər.

**7.** Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi Dövlət Yol Polisinin nəqliyyat vasitələrinin işinə yersiz müdaxilələrinin qarşısını alsın, onun işini təkmilləşdirsin, şəxsi heyətini 15 faiz ixtisar etsin. Yolların müvafiq texniki vasitələrlə təminatının yaxşılaşdırılmasına və şəxsi heyətin sosial müdafiəsinin gücləndirilməsinə dair təkliflərini bir ay müddətində Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin.

**8.** Azərbaycan Respublikasının məhkəmələrinə tövsiyə olunsun ki:

— iqtisadi və sahibkarlıq fəaliyyətinə dair mübahisələrin həlli ilə bağlı qərarların qəbulundan qanunun aliliyini təmin etsinlər və mübahisələrin baxılmasında süründürməçilik hallarına yol verməsinlər;

— məhkəmə icraatı zamanı dövlət müəssisələrinin hüquqi və fiziki şəxslər qarşısında öhdəliklərin təmin edilməsi ilə bağlı tələbin dövlət əmlakı hesabına ödənilməsi barədə qərarlar qəbul edərkən dövlət əmlakının süni surətdə müflisləşdirilməklə əsassız olaraq, özgəninkiləşdirilməsinə yol verməsinlər. Azərbaycan Respublikasının İqtisadi İnkişaf Nazirliyi dövlət müəssisələri ilə bağlı məhkəmə mübahisələrində dövlətin maraqlarının təmsil edilməsini təmin etsin.

**9.** Sahibkarların hüquqlarının müdafiəsi ilə əlaqədar Azərbaycan Respublikasının Ali Məhkəməsinə təklif edilsin ki, hakimlərin ədalətsiz və bir çox hallarda mövcud qanunları təhrif edən qərarlarını araşdırıb, Azərbaycan Respublikası Ali Məhkəməsinin İntizam Kollegiyasında baxılmasını təmin etsin və altı ay müddətində barələrində intizam məsuliyyəti tətbiq edilmiş hakimlər haqqında Azərbaycan Respublikasının Prezidentinə müvafiq məlumat təqdim etsin.

**10.** Azərbaycan Respublikasının Nazirlər Kabineti:

— mərkəzi və yerli icra hakimiyyəti orqanları tərəfindən sahibkarlara verilən müxtəlif növ sertifikat, şəhadətnamə, xüsusi razılıq və bu kimi digər sənədlərin verilməsini tənzimləyən mexanizmlərin səmərəliliyini araşdırsın və nəticəsi barədə Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

— Azərbaycan Respublikası Vergilər Nazirliyinin yoxlama-nəzarət funksiyalarını həyata keçirən və müasir tələblərə cavab verməyən struktur bölmələri işçilərinin sayını 40 faiz ixtisar etsin, Nazirliyin Tədris Mərkəzinin fəaliyyətə başlaması üçün zəruri tədbirlər görsün və bunlar barədə Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

— vergi orqanlarının maddi-texniki təminatının yaxşılaşdırılmasını, müasir tələblərə cavab verən kompüter şəbəkəsinin yaradılmasını təmin etsin və vergi orqanları işçilərinin maaşlarının artırılmasına dair təkliflərini bir ay müddətində Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin.

— əsassız vergi yoxlamalarının qarşısının alınması məqsədi ilə dövlət vergi orqanları tərəfindən həyata keçirilən operativ nəzarət funksiyalarını tənzimləyən müvafiq qanunvericilik aktlarının layihələrini hazırlayıb, Azərbaycan Respublikasının Prezidenti ilə razılaşdıraraq bir ay müddətinə təsdiq etsin;

— kiçik sahibkarlıq subyektləri üçün sadələşdirilmiş uçot sistemini müəyyənləşdirən normativ hüquqi aktın layihəsini bir həftə müddətində Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

— sahibkarlıq subyektlərinin vergi borclarına görə bank hesablarından vəsaitin dövlət büdcəsinə alınmasının icrası mexanizmlərinə dair təkliflərini on beş gün müddətində Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

— yoxlama və nəzarət funksiyalarını həyata keçirən bəzi dövlət orqanları ilə sahibkarlıq subyektləri arasında partnyorluq sazişlərinin bağlanması praktikasına keçidin təmin edilməsi üçün zəruri tədbirlər həyata keçirsin və bu barədə Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

— sahibkarlıq subyektlərində yoxlamaların uçotunun aparılması məqsədi ilə tətbiq olunan Nəzarət Kitabçasından istifadənin səmərəliliyini artırmaq üçün bir ay müddətində zəruri tədbirlər görsün;

— öz səlahiyyətləri daxilində bu fərmandan irəli gələn digər məsələləri həll etsin.

**11.** Azərbaycan Respublikasının İtqisadi İnkişaf Nazirliyi:

— sahibkarlıq fəvaliyyəti ilə məşğul olan bütün subyektlərin Nəzarət Kitabçası ilə təmin olunması məsələsini həll etsin, yoxlamalarla bağlı bu kitabçalarda olan qeydlərin təhlilini aparsın və ildə iki dəfə bu barədə Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

— sahibkarlarla operativ əlaqə sistemi yaratsın, onların fəaliyyətinə mane olan və qanunsuz müdaxilə edənlər haqqında məlumatı sistemləşdirib, tədbir görülmək üçün müvafiq orqanlara göndərsin və nəticəsi barədə mütamadi olaraq, Azərbaycan Respublikasının Prezidentinə məlumat versin.

**12.** Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi sahibkarların fəaliyyətinə qanunvericiliklə nəzərdə tutulmayan müdaxilə hallarına yol verən ictimai təşkilatlar barəsində qanunvericiliyə uyğun müvafiq tədbirlər görsün.

**13.** "Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə məsələləri haqqında Azərbaycan Respublikasının Qanununun və həmin qanunla təsdiq edilmiş "Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 25 avqust tarixli 387 saylı fərmanına aşağıdakı redaksiyada "4" bəndi əlavə edilsin:



"4. Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 192-ci (Qanunsuz sahibkarlıq), 193-cü (Yalançı sahibkarlıq) və 213-cü (Vergi ödəməkdən yayınma) maddələri üzrə cinayət işləri Azərbaycan Respublikası Vergilər Nazirliyi tərəfindən başlandıqda, həmin cinayətlərin ibtidai istintaqı zamanı Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 178-ci (Dələduzluq), 179-cu (Mənimsəmə və ya israf etmə), 184-cü (Aldatma və ya etibardan sui istifadə etmə yolu ilə əmlaka ziyan vurma), 195-ci (Qanunsuz kredit alma və ya kreditdən təyinatı üzrə istifadə etməmə), 196-cı (Kreditor borclarını ödəməkdən qəsdən yayınma), 197-ci (əmtəə nişanlarından qanunsuz istifadə etmə), 198-ci (Bilə-bilə yalan reklam etmə), 199-cu (İnhisarçılıq hərəkətləri və rəqabəti məhdudlaşdırma), 200-cü (İstehlakçıları aldatma və ya pis keyfiyyətli məhsul istehsal etmə və satma), 201-ci (əqdin bağlanmasına və ya onun bağlanılmasından imtinaya məcbur etmə), 202-ci (Kommersiya və ya bank sirri olan məlumatları qanunsuz yolla əldə etmə və ya yayma), 203-cü (Qiymətli kağızların buraxılması (emissiyası) qaydalarını pozma), 204-cü (Saxta pul və ya qiymətli kağızlar hazırlama və satma),205-ci (Saxta kredit və ya hesab kartlarını və ya başqa ödəniş sənədlərini hazırlama və ya satma), 208-ci (Xarici valyuta vasitələrini xaricdən qaytarmama), 210-cu (Müflisləşmə zamanı qanunsuz hərəkətlər), 211-ci (Qəsdən müflisləşmə), 212-ci (Saxta müflisləşmə), 308-ci (Vəzifə səlahiyyətlərindən sui-istifadə), 309-cu (Vəzifə səlahiyyətlərini aşma), 311-ci (Rüşvət alma), 312-ci (Rüşvət vermə), 313-cü (Vəzifə saxtakarlığı), 314-cü (Səhlənkarlıq), 320-ci (Rəsmi sənədləri, dövlət təltiflərini, möhürləri, ştampları, blankları saxtalaşdırma, hazırlama, satma və ya saxta sənədlərdən istifadə etmə) və 326-cı (Rəsmi sənədləri, ştampları, möhürləri oğurlama və ya məhv etmə) maddələrində göstərilən cinayətlərin əlamətləri aşkar olunduqda, göstərilən işlər üzrə ibtidai istintaq Azərbaycan Respulikası Vergilər Nazirliyi tərəfindən aparılır.

**14.** Bu Fərman dərc olunduğu gündən qüvvəyə minir.

**Heydər ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

**Bakı şəhər, 28 sentyabr 2002-ci il.**

# MÜNDƏRİCAT


Azərbaycanda iqtisadiyyatın və sosial sahənin yüksəlişi özəl sektorun inkişafından asılıdır
Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin yerli sahibkarlarla görüşü — 5

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin giriş nitqi – 6

İqtisadi İnkişaf naziri Fərhad Əliyevin çıxışı — 11

Yerli sahibkarlarla görüşdə Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin yekun nitqi — 25

Xarici iş adamlarının Azərbaycanda daha səmərəli fəaliyyəti üçün hər cür şərait yaradılır
Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin xarici sahibkarlarla görüşü — 32

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin nitqi — 33

İqtisadi İnkişaf naziri Fərhad Əliyevin çıxışı — 37

Xarici sahibkarlarla görüşdə Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin yekun nitqi — 44

Azərbaycan Respublikasında kiçik və orta sahibkarlığın inkişafının Dövlət proqramının (2002-2005-ci illər) təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı
17 avqust 2002-ci il — 53

Azərbaycan Respublikasında kiçik və orta sahibkarlığın inkişafının dövlət proqramı (2002-2005-ci illər)
17 avqust 2002-ci il — 54

Azərbaycan Respublikasında kiçik və orta sahibkarlığın inkişafının dövlət proqramı (2002-2005-ci illər) üzrə həyata keçiriləcək əsas tədbirlər (cədvəl) — 58

Azərbaycan Respublikası Prezidentinin yanında sahibkarlar şurasının yaradılması haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı
27 avqust 2002-ci il — 70

Azərbaycan Respublikasının Sahibkarlığa Kömək Milli Fondu haqqında Əsasnamənin təsdiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Fərmanı
27 avqust 2002-ci il — 71

Azərbaycan Respublikasının Sahibkarlığa Kömək Milli Fondu haqqında əsasnamə
27 avqust 2002-ci il — 72

Azərbaycan Respublikası Sahibkarlığa Kömək Milli Fondunun vəsaitinin istifadəsi qaydaları
27 avqust 2002-ci il — 77

Bəzi fəaliyyət növlərinə xüsusi razılıq (lisenziya) verilməsi qaydalarının təkmilləşdirilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı
2 sentyabr 2002-ci il — 82

Azərbaycan Respublikasında bəzi fəaliyyət növlərinə xüsusi razılıq (lisenziya) verilməsi haqqında Qaydalar
2 sentyabr 2002-ci il — 85
Xüsusi razılıq (lisenziya) tələb olunan fəaliyyət növlərinin siyahısı (Əlavə 2)
Naxçıvan Muxtar Respublikasının İcra Hakimiyyəti orqanları tərəfindən xüsusi razılıq (lisenziya) verilən fəaliyyət növlərinin siyahısı (Əlavə 3) — 92

Azərbaycan Respublikasında sahibkarlığın inkişafına dövlət himayəsi sahəsində əlavə tədbirlər haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı
10 sentyabr 2002-ci il — 97

Sahibkarlığın inkişafına mane olan müdaxilələrin qarşısının alınması haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı
28 sentyabr 2002-ci il — 102

**Azərbaycan Respublikası
Prezidentinin İşlər İdarəsinin və
"Respublika" qəzetinin redaksiya heyətinin
qərarı ilə çap olunur**

**Kitabın hazırlanmasında «AzərTAC»-ın
rəsmi materiallarından istifadə olunmuşdur.**

**Kitab "Respublika" qəzeti redaksiyasının
kompüter mərkəzində yığılıb səhifələnmişdir**

Yığılmağa verilmişdir: 28.10.2002.
Çapa imzalanmışdır: 07.11.2002.
Nəşrin ölçüsü: 60x90 1/16.
Ofset kağızı №1. Fiziki çap vərəqi: 7,00.

«NURLAR»
nəşriyyat-poliqrafiya

Hazır diopozitivlərdən «NURLAR» mətbəəsində çap olunmuşdur. Sifariş: 70. Sayı: 500 ədəd.
Bakı, H.Zərdabi 78. Tel: (994 12) 977021, 971362.
Faks: (994 12) 971295. E-mail: nurlar@azdata.net

У9(2Я)
Э 64